Xalqın qəzeti!

# Xalq qəzeti

№ 251 (30947) 29 noyabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycanın iqlim təşəbbüsləri qlobal önəm daşıyır




**Biz "Yaşıl Keçid Proqramı"nı həyata keçiririk. COP29-da mühüm nailiyyətlərdən biri ondan ibarətdir ki, biz elə konstruktiv mühit yaratdıq və şəxsi töhfə verdik ki, karbon bazarlarının fəaliyyəti ilə bağlı 6-cı maddə üzərində razılıq əldə olunsun. Beləliklə, o, COP29-un ən mühüm və tutarlı nəticəsinə çevrildi. Yaşıl gündəliyimiz və körpü salmaq, müxtəlif tərəflər arasında anlaşma yaratmaq kimi məsələlərdə göstərdiyimiz səylər BMT və bir çox beynəlxalq tərəfdaşlar tərəfindən lazımınca dəyərləndirilir.**

**Biz artıq investorlarımızla birlikdə "yaşıl enerji" layihələrinə investisiyalarımıza başlamışıq. Biz 240 meqavat gücündə ilk günəş elektrik stansiyasının açılışını etdik. Sonra isə 4 günəş və külək elektrik enerjisi stansiyasının təməli qoyuldu və onların ümumi gücü 1300 meqavat olacaq.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Ermənistanda konstitusiya islahatları: zərurət və məcburiyyət

*Yeni əsas qanundan gözləntimiz və...*



**Deməli, Ermənistan Konstitusiya İslahatları Şurası növbəti iclasını keçirib. Bu barədə məlumat verən ölkənin ədliyyə naziri Srbui Qalyan deyib ki, yeni konstitusiya gələn ilin martında hazır olacaq: "Ədliyyə Nazirliyinin öz üzərinə götürdüyü mətnin hazırlanması və onun hazırlanma müddəti ilə bağlı öhdəliyi bir daha təsdiqləmək istəyirəm. Öhdəlik ondan ibarətdir ki, konstitusiyanın yeni mətni mart ayında hazır olmalıdır".**

Qeyd edək ki, Ermənistanda konstitusiyadan söz düşəndə məsələ Bakının tələbi şəklində təqdim olunur. Xüsusən, ölkənin revanşist və şovinist xislətli müxalif kəsimi iqtidarı aşağılamaq üçün bildirir ki, baş nazir Nikol Paşinyan administrasiyası əsas qanunu yeniləmək məcburiyyətindədir, çünki Azərbaycandan qorxur. Əlbəttə, demək istəmirik ki, hay hakim dairələri qorxmurlar. Amma məsələnin, yəni ümumən Paşinyan iqtidarının Ermənistanda konstitusiya islahatları mövzusunun tarixi qorxunun yarandığı vaxtdan qabaqdır.

*(ardı 3-cü səhifədə)*

## Zərdabişünaslığa yeni töhfə




Səhifə ⇨ 15

## Diplomatiya, jurnalistika və siyasi analitika



Səhifə ⇨ 9

## Azərbaycanın iqlim savadlılığı təşəbbüsünün geosiyasi çəkisi




Səhifə ⇨ 4

## Transatlantik gərginlik yenidən artır



Səhifə ⇨ 4

## Gürcüstan hakimiyyəti seçki qanunvericiliyini dəyişdirir



Səhifə ⇨ 5

## Bakı–Roma dialoqu genişlənir



Səhifə ⇨ 6

## Qeyri-neft-qaz ixracı artır



Səhifə ⇨ 7

## Köhnə Bakı necə yenilәşir, müasirləşir?



Səhifə ⇨ 8

## "Neft"dən "Oskar"a aparan tarixçə



Səhifə ⇨ 12

## İncə duyğuların əlvan şeiriyyəti



Səhifə ⇨ 13

## Çin Xalq Respublikasının Sədri Zati-aliləri cənab Si Cinpinə

**Hörmətli cənab Sədr!**

Honkonqda yerləşən yaşayış kompleksində baş vermiş güclü yanğın nəticəsində çox sayda insanın həlak olması xəbəri bizi olduqca sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Çin xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 noyabr 2025-ci il**

## Timor-Leste Demokratik Respublikasının Prezidenti Zati-aliləri cənab Coze Ramuş-Hortaya

**Hörmətli cənab Prezident!**

Timor-Leste Demokratik Respublikasının müstəqilliyinin elan edilməsinin 50-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı ürəkdən təbrik edir, ən səmimi arzularımı çatdırıram.

Azərbaycan ilə Timor-Leste arasında münasibətlərin yeni vüsət alması bizi sevindirir. Biz sağlam təməllər üzərində qurulmuş, qarşılıqlı hörmətə əsaslanan dövlətlərarası əlaqələrimizin inkişafına və əməkdaşlığımızın yeni məzmunla zənginləşməsinə böyük əhəmiyyət veririk.

İnanıram ki, Azərbaycan ilə Timor-Leste arasında dostluq münasibətlərinin möhkəmlənməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 noyabr 2025-ci il**

## Albaniya Respublikasının Prezidenti Zati-aliləri cənab Bayram Beqaya

**Hörmətli cənab Prezident!**

Albaniya Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Albaniya arasında əlaqələrə böyük əhəmiyyət veririk. Sağlam təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimizin yüksələn xətt üzrə inkişaf etməsi, əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi bizi sevindirir.

Görüşlərimizin və səfərlərimizin intensivliyi Azərbaycan-Albaniya dostluğunun səviyyəsindən, qarşılıqlı əlaqələrimizin dinamikasından xəbər verir. Cari ilin mayında "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısında iştirak etmək üçün Tiranaya səfərimi ən xoş təəssüratlarla xatırlayıram.

Əminəm ki, xalqlarımızın iradəsinə uyğun olaraq Azərbaycan ilə Albaniya arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi, bir sıra sahələrdə qarşılıqlı maraq doğuran əməkdaşlığın daha da dərinləşdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Albaniya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 noyabr 2025-ci il**

## Azərbaycan–Tailand əməkdaşlıq müzakirəsi



**Noyabrın 28-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Tailand Parlamentinin nəzdində fəaliyyət göstərən Kral Prajadhipok İnstitutunun Baş katibi İssara Sereevatthanavut ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Tailand arasında dostluq və əməkdaşlıq münasibətlərinin genişləndirilməsi, o cümlədən parlament diplomatiyası, beyin mərkəzləri arasında əlaqələr və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov Azərbaycanın beynəlxalq platformalarda fəal roluna diqqət çəkərək, ölkəmizin Qoşulmama Hərəkatına, COP29-a və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (CICA) sədrliyi, irəli sürülən təşəbbüslərin qlobal əməkdaşlığa verdiyi töhfə barədə məlumat verib. Növbəti il ölkəmizdə keçiriləcək Ümumdünya Şəhərsalma Forumu (WUF13), BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyası (UNESCAP) və CICA sammitləri barədə məlumat verərək bu tədbirlərin regiondaxili və beynəlxalq dialoqa əlavə dəyər qatacağını bildirib.

Görüşdə, həmçinin Kral İnstitutunun Azərbaycan beyin mərkəzləri ilə təmasları və bu çərçivədə aparılan əməkdaşlıq perspektivləri, eləcə də iki ölkə arasında Xarici İşlər nazirlikləri arasında qarşıdan gələn məsləhətləşmələrin təşkili məsələləri müzakirə olunub.

Eyni zamanda, Azərbaycan tərəfindən həyata keçirilən təqaüd proqramları, təhsil mübadiləsi imkanları, turizm sahəsində əməkdaşlıq və qarşılıqlı yüksəksəviyyəli səfərlərin təşkili məsələləri görüşün diqqət mərkəzində olub.

***XQ***

# Əli Əsədov İordaniya nazirini qəbul edib



**Azərbaycanın Baş naziri Əli Əsədov noyabrın 28-də İordaniya Haşimilər Krallığının sənaye, ticarət və təchizat naziri, iki ölkə arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Yarub Qudah ilə görüşüb.**

Görüşdə Azərbaycan-İordaniya dövlətlərarası münasibətlərinin dostluq və əməkdaşlıq prinsipləri əsasında inkişaf etdiyi vurğulanıb.

Azərbaycan Prezidenti İlham Əliyev və İordaniyanın Kralı II Abdullah ibn Al Hüseyn arasında yaranmış səmimi münasibətlərin bu inkişafı şərtləndirən əsas amil olduğu bildirilib.

Görüşdə iki ölkə arasında müxtəlif istiqamətlərdə, o cümlədən ticarət-iqtisadi, investisiya, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsi perspektivləri müzakirə olunub.

Görüşdə maliyyə naziri Sahil Babayev iştirak edib.

***XQ***

# Hikmət Hacıyevin Aİ və NATO nümayəndələri ilə görüşləri





**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Avropa İttifaqının rəsmi şəxsləri ilə görüşüb. Bu barədə Hikmət Hacıyev "X" sosial şəbəkəsində paylaşım edib.**

"Mən Avropa İttifaqından olan həmkarlarımla Azərbaycan və Aİ arasında münasibətlərdə son vaxtlar müşahidə olunan müsbət dinamikanı müzakirə etməkdən məmnun oldum.

Biz ikitərəfli gündəliyin geniş spektrini və Azərbaycan-Aİ tərəfdaşlığının daha da gücləndirilməsi perspektivləri ətrafında fikir mübadiləsi apardıq", – H.Hacıyev yazıb.

*

**Azərbaycan Prezidentinin köməkçisi - Azərbaycan Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Brüsseldə Avropa İttifaqının Siyasi və Təhlükəsizlik Komitəsinin üzvləri ilə də görüşüb. Bu barədə də məlumatı Hikmət Hacıyev "X" sosial şəbəkə hesabında paylaşıb.**

"Bu gün Brüsseldə biz Avropa İttifaqının Siyasi və Təhlükəsizlik Komitəsinin üzvləri ilə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın dərinləşdirilməsinə dair əsaslı müzakirələr apardıq. Aİ-nin Siyasi və Təhlükəsizlik Komitəsinin sədri Delfin Pronka minnətdaram.

Mən Komitəyə Azərbaycanın regionda irəli sürdüyü sülh gündəliyi, o cümlədən sülhün iqtisadi faydaları, Zəngəzur dəhlizinin inkişafı və etimad quruculuğu tədbirləri barədə məlumat verdim. Komitə üzvlərinə Aİ ilə əməkdaşlığımızı və tərəfdaşlığımızı gücləndirmək üçün gələcək addımları tam dəstəklədiklərini ifadə etdiklərinə görə təşəkkür edirəm", - H.Hacıyev yazıb.

*



**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Brüsseldə NATO-nun Şimali Atlantika Şurasının üzv ölkələrinin səfirləri ilə görüşüb. Bu barədə Azərbaycanın NATO-dakı nümayəndəliyi xəbər verir.**

Görüşdə Türkiyə, Slovakiya, Almaniya, Kanada, Danimarka, Bolqarıstan, Latviya, Lüksemburq, Böyük Britaniya, Rumıniya, Litva, Belçika, Polşa, Fransa, Estoniya, İtaliya, İsveç və Finlandiya nümayəndələri, həmçinin NATO-nun siyasi məsələlər və təhlükəsizlik siyasəti üzrə Baş katibinin müavini Boris Ruqe iştirak ediblər.

Görüşdə NATO Şurasının səfirlərinin Bakıya bu yaxınlardakı səfəri və Azərbaycan Prezidenti İlham Əliyevlə aparılan danışıqlar vurğulanıb.

"Tərəflər Azərbaycan-NATO uğurlu tərəfdaşlığı, gələcək əməkdaşlıq perspektivləri, Azərbaycanın Alyansın fəaliyyətinə, o cümlədən Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə töhfəsi, həmçinin regional təhlükəsizlik məsələləri və Azərbaycanla Ermənistan arasında sülh gündəliyi də daxil olmaqla geniş məsələləri müzakirə ediblər", - məlumatda vurğulanır.

***XQ***

## Azərbaycan–BƏƏ Əməkdaşlıq Komitəsinin ilk iclası



**Əbu-Dabidə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq üzrə Əməkdaşlıq Komitəsinin ilk iclası keçirilib.**

İclasa komitənin həmsədrləri qismində Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, BƏƏ tərəfindən isə Xarici İşlər Nazirliyində dövlət naziri Saeed Al Hajeri rəhbərlik ediblər.

Komitənin işi çərçivəsində nazir müavini Y.Rəfiyev və dövlət naziri S.Al Hajeri arasında təkbətək görüş baş tutub. Daha sonra həmsədrlərin rəhbərliyi və aidiyyəti qurumların nümayəndələrinin, habelə hər iki ölkənin səfirlərinin iştirakı ilə geniş tərkibli görüş keçirilib, alt komitələrin həmsədrləri irəli sürülmüş təkliflər və layihələr barədə məlumat veriblər. Həmsədrlər konkret nəticələrin əldə olunması məqsədilə müvafiq işlərin aparılması, o cümlədən yol xəritəsi və iş planlarının razılaşdırılaraq qəbul edilməsi ilə bağlı gözləntilərini ifadə ediblər. Bununla yanaşı, növbəti görüşlərin və ümumilikdə komitənin işinin modallıqları və təqvimi müəyyənləşdirilib.

İclasda Xarici İşlər Nazirliyi ilə yanaşı, Azərbaycan tərəfindən İqtisadiyyat, Energetika, Ədliyyə, Müdafiə, Daxili İşlər, Rəqəmsal İnkişaf və Nəqliyyat, Elm və Təhsil, Mədəniyyət və Kənd Təsərrüfatı nazirliklərinin, habelə Dövlət Turizm Agentliyinin, SOCAR və Azərbaycan İnvestisiya Holdinqinin nümayəndələri iştirak ediblər.

***XQ***

## Emin Əmrullayevin Naxçıvanda vətəndaş qəbulu



**Elm və təhsil naziri Emin Əmrullayev Naxçıvan şəhərində vətəndaşların müraciətlərini dinləyib.**

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbulda Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur sakinləri iştirak ediblər. Vətəndaşlar xarici kvalifikasiyaların tanınması, iş yerinin dəyişdirilməsi, müəllimlərin işə qəbulu və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

***XQ***

# Ermənistanda konstitusiya islahatları: zərurət və məcburiyyət

(əvvəli 1-ci səhifədə)

Əvvəlcə bildirək ki, hay hakim dairələrinin ölkədə konstitusiya islahatları ilə bağlı mövqeyində dəyişiklik olub. Yəni ilk dövrlərdə konstitusiyaya dəyişikliyi vacib sayılırdısa, indi yeni konstitusiya məramı gündəmdədir. Məsələ isə ondadır ki, N.Paşinyan Ermənistanın əsas qanununa əl gəzdirmək ideyasını ortaya hakimiyyət kreslosuna əyləşər-əyləşməz atmışdı. O, 2018-ci ildə bildirmişdi ki, 2015-ci il konstitusiyası demokratik legitimlik baxımından problemlidir. Nikol hakimiyyətin balanslaşdırılması və məhkəmə sisteminin dəyişməsi üçün düzəlişlərə ehtiyacın olduğunu vurğulamışdı.

Amma 2018-ci ildə Ermənistanda rəsmi islahat mexanizmi yaradılmadı. Yəni Paşinyanın dilə gətirdiyi tezislər siyasi bəyanat statusundan çıxmadı. 2019-cu ildə isə konstitusiya dəyişikliklərinin zəruriliyinə dair fikirlər yenidən səslənməyə başladı. Amma bu dəfə məsələyə əməli fəaliyyət prizmasından yanaşıldı və erməni hökuməti ilkin işçi qrupları formalaşdırılmaq kursu yeritdi. Seçki sistemini, referendum mexanizmini, məhkəmə hakimiyyətini və hibrid parlament elementlərinin dəyişdirilməsi hədəfi müəyyənləşdirildi.

N.Paşinyan 2020-ci ildə bir qədər də irəli gedərək, Konstitusiya İslahatları üzrə Peşəkar Komissiya adlı qurum formalaşdırdı ki, onun məqsədi əsas qanunun təhlilinin həyata keçirilməsi və dəyişiklik paketinin hazırlanması idi. Həmin ilin martında Nikol ölkədəki QHT-lərin iştirakı ilə genişlənmiş islahat formatı məsələsini gündəmə gətirdi ki, bu da daha çox siyasi gediş xarakteri daşıdı. Belə ki, əsas tezislər qismində idarəetmədə şəffaflıq, hakimiyyət bölgüsünün dəqiqləşdirilməsi kimi məsələlər gündəmdə oldu. Lakin Paşinyan gözlənilmədən özünün yaratdığı islahat komissiyasını ləğv etdi. O bildirdi ki, yeni format lazımdır və cəmiyyətlə daha fərqli birbaşa dialoqun qurulmasına ehtiyac var. Həmin il "COVID 19" pandemiyası və 44 günlük müharibə nəzərdə tutulanların icrasını yarımçıq qoydu.

N.Paşinyan konstitusiya ilə bağlı islahat məsələsini 2021-ci ilin yazında yenidən gündəmə gətirdi. O, 2015-ci il əsas qanununun ölkəyə funksional problemlər yaratdığını, habelə siyasi sabitlik naminə dəyişikliklərin qaçılmaz olduğunu bildirdi və başlıca olaraq üç məqama fokuslandı. Bunlar parlament sisteminin səmərəli(sizli)liyi, prezident institutunun səlahiyyətlərinin dəqiqləşdirilməsi və Konstitusiya Məhkəməsinin yenilənməsi zərurəti idi. Amma həmin dövrdə "tam yeni konstitusiya" məsələsi gündəmdə deyildi.



N.Paşinyan 2022-ci ilin yanvarında haqqında söz açdığımız Konstitusiya İslahatları Şurası adlanan qurum formalaşdırdı. Yeni təsisat əvvəlkindən daha geniş görüntülü və onun tərkibində hüquqşünaslar, ictimai təşkilatların, dövlət orqanlarının və parlament fraksiyalarının nümayəndələri təmsil olundular. Yeri gəlmişkən, Ermənistan Milli Assambleyasının müxalif fraksiyaları formata qoşulmaqdan imtina etdilər.

Beləliklə, Konstitusiya İslahatları Şurası qarşısına konstitusiyaya düzəlişlər layihəsi hazırlamağı və ehtiyac yaranarsa, tam yeni konstitusiya variantını da araşdırmaq vəzifəsini qoydu. Başlıca müzakirə mövzusu güc balansına, icra və parlament münasibətlərinə, həmçinin istintaq orqanlarının roluna dair məsələlər oldu. Ümumən, 2023-cü ildə konstitusiya ilə əlaqədar geniş ictimai müzakirələr keçirilmədi və Paşinyan tədrici islahat xəttini davam etdirdi. Müxalifət isə bildirdi ki, islahatlar Nikolun öz hakimiyyətini möhkəmləndirməsi üçündür. Sonuncu məqama qayıdacağıq.

Əlqərəz, N.Paşinyan 2024-cü ilin əvvəlindən başlayaraq, tam yeni konstitusiya təşəbbüsünü irəli sürdü. Durumu əsaslandıran başlıca tezislərə gəldikdə, bir çox ekspertlər mövcud xüsusda daxili siyasi motivləri, regional dəyişiklikləri, yenə də əvvəldə barəsində söz açdığımız 2015-ci il əsas qanununun qeyri-legitimlik paradiqmasını, hakimiyyət balansı məsələlərini, ən başlıcası isə Azərbaycanla münasibətlər kontekstini vurğulayırlar.

Reallıq isə ondadır ki, 2020-ci il müharibəsindən və ondan sonrakı mərhələdə Ermənistanın təhlükəsizlik arxitekturası dağıldı, ölkənin üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və əsas müttəfiqi Rusiya ilə münasibətlərində etimad böhranı yaşandı, həmçinin Ermənistan yeni geosiyasi xəttə keçid edərək, Qərbyönümlü modernləşmə kursunu (Avropa İttifaqı ilə genişləndirilmiş tərəfdaşlıq xətti, 2024-2025-ci illərdə Aİ müşahidə missiyasının möhkəmləndirilməsi) götürdü. Bütün bunları arqumentləşdirən Paşinyanın sözlərindən gəlinən qənaət belə oldu ki, keçmiş təhlükəsizlik modelinə uyğun yazılmış konstitusiya artıq işlək deyil, əsas qanun müdafiə və təhlükəsizlik mexanizmlərinin yenilənməsini, suverenlik və xarici siyasət kursunda dəyişikliklərı, habelə qonşularla, xüsusən Azərbaycan və Türkiyə ilə uzunmüddətli sülhə uyğun hüquqi çərçivə müəyyənləşdirməlidir.

Əlbəttə, erməni iqtidarının təmsilçiləri, o cümlədən Paşinyan nə qədər desə ki, konstitusiya ilə bağlı məsələ Azərbaycanın tələbindən irəli gəlmir, buna inanan yoxdur və ya azdır. Çünki ölkəmizin rəsmiləri qətiyyətli şəkildə Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasının mövcudluğu ritorikasını diri tuturlar. Əslində, Nikolun özü də açıqlamalarının birində bildirmişdi ki, erməni əsas qanununun 1990-cı ilin İstiqlaliyyət Bəyannaməsinə istinadı sülh üçün problemlər yaradır. Daha doğrusu, o, bəyannamədəki "Dağlıq Qarabağ Muxtar Vilayəti" ifadəsinin problematik mahiyyət daşıdığını önə çəkmişdi. Görünür, Paşinyanın konstitusiyanın "sülhə uyğunlaşdırılması" tezisi bundan qaynaqlanır. Hərçənd, baş nazir təzadlı ritorikaya da üstünlük verir. Məsələn, o çox tez-tez bildirir ki, erməni əsas qanunu heç bir dövlətə qarşı ərazi iddiası ruhunda deyil. Hər halda, bu deyim başadüşüləndir. Çünki Paşinyan ağ yalanı ört-basdır etməlidir. Həm də ona gərə ört-basdır etməlidir ki, diqqətlər yeni konstitusiyanın Azərbaycanın tələbinin yerinə yetirilməsi olduğuna dair müxalif baxışlardan yayınsın.

Bəli, Paşinyan məhz həmin müxalif baxışları sıradan çıxarmaq üçün pafosa da üstünlük verir və müəyyən mənada böyük səslənən "xalqla dövlət arasında yeni sosial kontrakt" ideyasını ortaya atır. Əslində, o, 2018-ci ildə səsləndirdiyi "2015-ci il konstitusiyası demokratik legitimlik baxımından problemlidir" fikrinə qayıdır və hazırkı əsas qanunun xalq tərəfindən özününküləşdirilmədiyini vurğulayır. Hərçənd, indi Nikol daha konkretdir və deyir ki, əvvəlki konstitusiya sabiq prezident Serj Sarkisyanın hakimiyyətini uzatmaq üçün yazılmışdı.

Əlbəttə, Nikol haqlıdır. Lakin haqqın başqa tərəfi var. Məsələ ondadır ki, 2015-ci ilin əsas qanunu mahiyyət etibarilə 2018-ci il "məxməri inqilabı"nın legitimliyini təsdiqləmir. Nəticədə Paşinyanın hakimiyyətdə olması qeyri-qanuni hal kimi görünür. Ona görə baş nazir deyir ki, Ermənistan ictimaiyyəti "məxməri inqilab"dan sonra yeni siyasi sistem gözləyirdi. Axı 2015-ci il konstitusiyası ölkəni parlamentli respublika elan etsə də, praktikada durum fərqlidir. Yəni idarəçilikdə məsuliyyət bölgüsü qeyri-müəyyəndir və bu, gələcəkdə prezident və parlament sistemləri arasında gərginlik doğura bilər. Deməli, mərkəzləşmə və parlament balansı məsələsi aktualdır. Yaqin elə buna görədir ki, tənqidçiləri yeni konstitusiyanı Paşinyanın öz hakimiyyətini möhkəmləndirmək istəyi kimi görürlər. Onlar baş nazirin səlahiyyətlərinin genişləndiriləcəyi, müxalifətin institusional təsir imkanlarının məhdudlaşdırılacağı və prezident institutunun rolunun daha da zəifləndiriləcəyi qənaətini bölüşürlər. Əlbəttə, bu arqumentlər Nikolun "daha funksional dövlət qurmaq" pafosu qarşısında zəifdir.

Sonra onu da deyək ki, Ermənistanın ədliyyə naziri S.Qalyan gələn ilin martında yeni konstitusiya layihəsinin ərsəyə gələcəyini bildirsə də, sənədin konkret olaraq hansı müddəalardan ibarət olacağı müəmmalıdır. Çox güman, belə bir vacib layihədən əvvəl onun ətrafında ictimai müzakirələr təşkil olunacaq və təfərrüatlar açıqlanacaq. Əlbəttə, qonşu və regionda lider ölkə olaraq Azərbaycan üçün erməni əsas qanununun məzmunu maraq doğurmaqdadır və bunun səbəbini açıqladıq. Paşinyanın yeni konstitusiya baxımından arqument kimi gətirdiyi bir çox məsələlər də tərəfimizdən müsbət qiymətləndirilə bilər.

Bəli, Ermənistan konstitusiyası ilə bağlı marağımızı şərtləndirən ən başlıca məqam ölkənin işğalçılıq üçün heç bir hüquqi əsasının qalmamasıdır. Həqiqətənmi belə olacaq, yoxsa hay iqtidarı yalnız sırf özünə sərfəli cəhətlər üzərində dayanacaq, gedişatı zaman göstərəcək. Hələlik isə Paşinyanın bir fikri üzərində də dayanaq. O, bu günlərdə demişdi ki, Ermənistanda yeni konstitusiya referendumu 2026-cı ilin parlament seçkilərindən sonra keçiriləcək. Nikolun sözlərindən həm də bu qənaət hasil olmuşdu ki, nəzərdə tutulan fəaliyyət 2027-ci ilə saxlanılmayacaq.

Necə deyərlər, yaşayarıq, görərik. Eyni zamanda, Azərbaycan-Ermənistan yekun sülh müqaviləsinin imzalanmasını görməyi də arzulayırıq. Nəzərə alaq ki, prosesin gerçəkləşməsi yeni erməni əsas qanunundan, daha doğrusu, sənədin gözlədiyimiz pozitiv mahiyyətli strukturundan asılıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Paşinyan–Qaregin qarşıdurması "kim–kimi" mərhələsində

## *Kilsə daxilindəki qaragüruhun sonuna çox qalmayıb*

**Ermənistanın Baş naziri Nikol Paşinyan noyabrın 27-də Erməni Apostol Kilsəsinin bir qrup yepiskopunu qəbul edib. Bununla bağlı "Facebook" səhifəsində video paylaşan Paşinyan bunu "vacib görüş" adlandırıb.**

Baş nazir onunla görüşdə iştirak edən yüksək vəzifəli din xadimlərinə müraciətində bildirib: "Bu gün açıq şəkildə ifadə etdiyiniz prinsipial mövqeyə görə sizə təşəkkür etmək istəyirəm. Düşünürəm ki, şəxsi nümayəndəniz vasitəsilə bəyanatınızda qaldırdığınız mövzu çox vacib ümumi gündəmə aiddir. Mən bu barədə uzun müddətdir düşünürəm və aşağıdakı nəticəyə gəlirəm: biz dəyərlərə əsaslanan dövlət və cəmiyyət haqqında çox danışırıq. Bu, bizim məqsədimiz və vəzifəmizdir. İstənilən dövlət hüquqi məntiqə və bu da öz növbəsində müəyyən bir dəyərlər sisteminə əsaslanır. Dəyərlər sistemi olmayan dövlət ola bilməz. Mənəvi dəyərlərin rolu, əslində, dövlətin dəyərlərə əsaslanan təbiətini əsasən müəyyən edir. Bu, dövlətimizin gələcək inkişafı və taleyi üçün böyük əhəmiyyət kəsb edən bir məsələdir, mövqeyin ifadəsidir. Mən sizin bəyanatınızla bu nöqteyi-nəzərdən tanış oldum və belə bir narahatlığın ifadəsini gördüm. Dəvəti qəbul etdiyiniz və belə bir söhbətə və müzakirəyə hazır olduğunuz üçün təşəkkür edirəm".

Qeyd edək ki, elə həmin gün N.Paşinyanın ailəsinə məxsus media orqanı yepiskopların katolikosdan müqəddəs Eçmiədzin ana taxt-tacının dəftərxanasının rəhbəri, arxiyepiskop Arşak Xaçatryanı Eçmiədzindən uzaqlaşdırmasını və səlahiyyətlərini dondurmasını tələb etdiyi bəyanat yayımlanıb. Paşinyan da məhz bu bəyanatı nəzərdə tutur.

Nikol bütün ermənilərin katolikosunun vəzifədən getməsi ilə bağlı tələbini dünən jurnalistlərə açıqlamasında bir daha təkrarlayıb: "Ktriç Nersisyan (katolikos II Qareginin dünyəvi adı–S.H.) islahat prosesində iştirak etmək üçün bütün imkanları tükətmişdir, o, sadəcə müqəddəs Eçmiədzinin ana taxtını azad etməlidir". Onun sözlərinə görə, Erməni Apostol Kilsəsinin istənilən davamçısı ana taxtın azad edilməsi prosesində iştirak edə bilər. Paşinyan izah edib ki, bu, bütün vətəndaşlara aiddir. "Biz mütləq islahat yolu ilə getməliyik, bu yol olmadan heç bir məsələ həll oluna bilməz. Mən hər kəsin bu yolu tutmaq istəyini alqışlayıram". Paşinyan katolikosun dürüstlük yoxlamasından və ya etibarlılıq testindən keçməli olduğunu bəyan edib.

Kilsə ilə hakimiyyət arasındakı gərginlik Ermənistan media orqanlarının da ən çox diqqət yetirdikləri mövzulardan biridir. Yazılarda Paşinyanın kilsəni parçalamağa nail olduğu, katolikosun devrilməsi prosesinin yekun mərhələyə qədəm qoyduğu bildirilir.

"ArmLur.am" saytında yerləşdirilən "Katolikosun devrilməsi ssenarisi işə salınıb, yeparxiyalar təzyiq altındadır, ana taxt susur" sərlövhəli məqalədə deyilir: "Bu gün və ya sabah bütün ermənilərin katolikosu II Qareginin taleyi məsələsi Ermənistanın siyasi rəhbərliyi üçün həlledici ola bilər. Paşinyanın hakimiyyəti onun hazırladığı ssenarini həyata keçirməyə, katolikos II Qaregini Eçmiədzin ana taxtından birdəfəlik kənarlaşdırmağa hazırlaşır".





Saytın məlumatına görə, hüquq-mühafizə orqanlarının əməkdaşları artıq bütün yeparxiya rəhbərləri, o cümlədən yepiskopların noyabrın 27-də keçirilmiş toplantısının nəticəsi olaraq dərc edilmiş səs-küyə səbəb olan bəyanatı imzalayanlarla fərdi görüşlərə başlayıblar: "Hətta onların evlərinə də gedirlər. Həmin sənəddə imzalarının olmadığını ictimai şəkildə bəyan edənlər isə hüquq-mühafizə əməkdaşları ilə yenidən uzun söhbətlər aparmağa və izahat verməyə məcbur olurlar. Hamıya izah edilib ki, baş nazir Nikol Paşinyanla görüşmələri və problemin həlli üçün çıxış yolu tapmaları zəruridir.

"ArmLur.am"ın mənbələri iddia edir ki, bu görüşlər zamanı yeparxiya rəhbərlərinə "katolikos dövrünün başa çatdığı" bildirilir: "Hakimiyyətin ssenarisi isə aşağıdakı kimidir. Katolikos II Qaregin ev dustaqlığına alınır, yaxud hansısa formada xarici aləmdən tam təcrid edilir. Bəzi yepiskopların təzyiqinə məruz qalmış arxiyepiskop Arşakın da həbs ediləcəyi ehtimal olunur. Bundan bir neçə saat və ya bir neçə gün sonra isə internetdə II Qareginin katolikos taxtından istefa verdiyini açıqlayan məktubun yayılması gözlənilir. Yepiskoplar artıq Paşinyanla görüşüblər. Bu ssenari həqiqətən həyata keçirilərsə, son onilliklərdə kilsə ilə dövlət arasındakı münasibətlərdə həm siyasi, həm də sosial baxımdan ən dərin böhranlardan birinə çevrilə bilər.

Ən maraqlısı isə odur ki, bütün bu müddət ərzində müqəddəs Eçmiədzin tam sükut içindədir: yeni təzyiqlərə dair məlumatları nə təkzib, nə də təsdiq edən bir nəfər belə tapılmayıb. Yalnız o aydındır ki, qarşıdakı günlər təkcə II Qareginin taleyi üçün deyil, bütün Erməni Apostol Kilsəsi üçün həlledici ola bilər. Paşinyan kilsəni din xadimlərinin əli ilə daxildən çökdürdü".

Situasiyanı şərh edən siyasi analitik Arqişti Kiviryan "Nyus.am"a açıqlamasında bildirib ki, Ermənistan milli təhlükəsizlik xidməti aktiv fazaya keçib: "Arxiyepiskopların bəyanatı o deməkdir ki, MTX Nikol Paşinyanın göstərişi ilə aktiv fəaliyyətə keçib. Bəyanatı imzalayan ruhani şəxslərin adları illərdir ki, hazırda arxiyepiskop Arşak Xaçatryana qarşı səsləndirdikləri eyni ittihamlarla bağlı mediada mütəmadi hallanır. Bu, daha ağır günahdır, çünki onlar özləri yol verdikləri əməllə görə bir başqasını ittiham edirlər. Bu, Erməni Apostol Kilsəsinə qarşı açıq hörmətsizlikdir. Paşinyanın məqsədi kilsəni təmizləmək deyil, onu müxtəlif məqsədlərlə özünə tabe etməkdir. Hətta bu institutun zəifləndilməsi və ya tamamilə dağıdılması da hədəflənə bilər".

Onun fikrincə, arxiyepiskop Arşaka qarşı aparılan kampaniya onun Paşinyana tabe olmaması, bütün ermənilərin katolikosuna qarşı çıxmaması və onu "satmaması" ilə bağlı ola bilər. "Əgər arxiyepiskoplar həmin bəyanatın altına imza atmasaydılar, onların iştiraki ilə kompromat xarakterli videolar yayımlanacaqdı", – deyə Kiviryan vurğulayıb.

*

Diqqəti cəlb edən hadisələrdən biri Eçmiədzin ana taxtının noyabrın 28-nə təyin olunan Ali Ruhani Şuranın iclasının baş tutmamasıdır. Kilsənin yaydığı bəyanatda bildirilib ki, arxiyepiskop Navasard Kçoyan, arxiyepiskop Abram Mkrtçyan, arxiyepiskop Vazgen Mirzəxanyan, yepiskop Vrtanes Abramyan və yepiskop Gevork Saroyanın iştirak etməməsi səbəbindən iclası çağırmaq mümkün olmayıb. Bəyanatda daha sonra deyilir: "Bununla belə, toplantıda iştirak edən üzvlər 27 noyabr tarixində 9 yepiskop tərəfindən imzalanmış bəyanata şəxsi qaydada münasibət bildiriblər. Qeyd olunub ki, həmin bəyanat arxiyepiskop Arşak Xaçatryana bağlı yaradılmış komissiyanın fəaliyyətini tam şəkildə təhrif edir. Komissiya, əslində, heç bir iclas çağırmayıb və hətta arxiyepiskop Arşaka görüş imkanı da təqdim etməyib. Komissiya üzvlərinin bütün ermənilərin katolikosuna təqdim etdikləri rəy isə lazımi qaydada rəsmiləşdirilməyib".

Həmçinin vurğulanıb ki, komissiya videoyazıya dair ekspertizanın aparılması üçün İstintaq Komitəsinə rəsmi müraciət etməyib: "Komissiyanın ayrı-ayrı üzvlərindən biri tərəfindən əldə edilmiş rəy isə qanunun açıq şəkildə pozulması yolu ilə əldə olunub, həbelə və tam deyil, etibarlı əsas kimi qəbul edilə bilməz və buna görə də Ermənistan patriarxı tərəfindən qəbul olunması mümkün deyil".

*

Bu arada "Joxovurd" qəzeti öz mənbələrinə istinadən N.Paşinyanın bütün ermənilərin katolikosunun mümkün varisi postuna üstünlük verdiyi iki namizədi müəyyənləşdirdiyini yazıb. Nəşrin məlumatına görə, əsas namizədlər kimi ABŞ-da yaşayan Qərb yeparxiyasının rəhbəri, baş yepiskop Ovnan Terteryan və Kilikya Böyük Evinin Katolikosu I Aram nəzərdən keçirilir. Hakimiyyət hesab edir ki, onlar vəziyyətin necə inkişaf edəcəyinin aydın olacağı vaxta qədər ona qarşı loyallıqlarını qoruyub saxlayacaqlar. Məqalədə qeyd olunur ki, "mövcud hakimiyyət II Qareginin səlahiyyətləri başa çatdıqdan sonra Erməni Apostol Kilsəsində yeni "azad meydan" və yenidən bölüşdürülmüş təsir imkanları yarada bilər". Qəzetin mənbələri bildirir ki, güc strukturları artıq yeparxiya rəhbərlərinə, o cümlədən katolikosu gözdən salan və yepiskoplar toplantısından sonra yayılmış bəyanatı imzalayan və ya imzalamayanlara fərdi reydlər etməyə başlayıb.

Kilsə ilə bağlı proseslərin bundan sonra necə inkişaf edəcəyi barədə XQ-yə şərh verən **politoloq Zaur Məmmədov** bildirdi ki, Erməni Apostol Kilsəsində son proseslər bəzi din xadimlərinin daxildən dağıdıcı fəaliyyətlə məşğul olduqlarını göstərir. Onun sözlərinə görə, arxiyepiskop Arşaka qarşı kampaniya və bəyanatlar, eləcə də komissiyanın qanunsuz və formalist yanaşmaları kilsə institutlarının etibarlılığını ciddi şəkildə sarsıdır, kilsənin ictimai nüfuzunu zəiflədir: "Bu təzyiqlər yalnız şəxsi məqsədlərə xidmət etmir, eyni zamanda, kilsənin müstəqil idarəçilik mexanizmlərini də pozur. Paşinyanın rəhbərliyi altında həyata keçirilən tədbirlər isə tam əksinə, kilsənin müstəqilliyini qorumaq, ictimai ədaləti təmin etmək və daxili intriqaların yaratdığı böhrandan çıxmaq məqsədini güdür. Baş nazirin müdaxiləsi olmadan kilsə daxilindəki pozucu təsirlər daha da güclənər, dini institutların legitimliyi sarsılar, cəmiyyətin etimadı itərdi".



Z.Məmmədov qeyd etdi ki, bu günlər həm II Qareginin taleyi, həm də Erməni Apostol Kilsəsinin gələcəyi üçün həlledici mərhələdir: "Paşinyanın fəaliyyəti olmadan, daxildən dağıdıcı qüvvələr kilsəni tamamilə zəiflədə və ictimai mövqeyini itirə bilərdi. Qarşıdakı günlərdə görüləcək tədbirlər yalnız konkret dini liderlər üçün deyil, bütün dini institutların mövqeyini və gələcək nüfuzunu müəyyən edəcək".

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycanın iqlim savadlılığı təşəbbüsünün geosiyasi çəkisi

**COP30-un dinamizmi bu dəfə emissiya hədəfləri və maliyyə mexanizmləri ilə məhdudlaşmadı; qlobal diqqət təhsil sistemlərinin yaşıl dönüşünə yönəldi. Əvvəllər iqlim müzakirələrinin periferiyasına sıxışdırılan təhsil indi strateji sahəyə çevrilir. Çünki dünya qəbul edir ki, enerjidə və sənayedə aparılan islahatlar yeni nəsil ekoloji düşüncə tərzi ilə tamamlanarsa, real təsir göstərə bilər. Məhz bu kontekstdə Azərbaycandan gələn təşəbbüs – iqlim savadlılığının qlobal təhsil gündəminə inteqrasiyası və Beynəlxalq Şagird Qiymətləndirmə Proqramı (PISA) vasitəsilə ölçülməsi – Belemin ən aktual siyasi mesajlarından biri oldu.**

Qeyd etməliyik ki, təşəbbüs mahiyyət etibarilə siyasi təklifdir. Nəzəri baxımdan, təşəbbüs "yumşaq güc" konsepsiyası çərçivəsində dövlətin təsir vasitəsi rolunu nümayiş etdirir: Azərbaycan qlobal təhsil standartlarının formalaşdırılmasında normayaradıcı aktor kimi öz mövqeyini möhkəmləndirməyə çalışır. Belə bir yanaşma beynəlxalq münasibətlər nəzəriyyəsində "strateji normativ aktor" anlayışını əks etdirir; yəni dövlət təkcə güc balansına əsaslanmadan, bilik, təcrübə və standartlar vasitəsilə qlobal gündəmin müəyyənləşdirilməsinə təsir edə bilər. Azərbaycan COP29 zamanı başladığı xətti COP30-da davam etdirərək qlobal normayaratma prosesinə daxil olmaq istədiyini açıq göstərdi. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ilə tərəfdaşlıq bu iradəni daha da gücləndirir: çünki PISA dünya üzrə təhsil keyfiyyətini ölçən ən etibarlı mexanizmdir və hər hansı indikatorun bu sistemə daxil edilməsi qlobal miqyasda davranış standartı formalaşdırmaq deməkdir. Azərbaycan ilk dəfə bu səviyyədə təhsil siyasətinin arxitekturasına təsir edən aktora çevrilir.




Belemdə keçirilən "Təhsilin yaşıllaşdırılması" adlı yüksək səviyyəli dəyirmi masa prosesin yeni mərhələsi oldu. Müzakirələr göstərdi ki, artıq təhsil sistemlərinin yaşıl transformasiyası siyasi tələbə çevrilir və bu tələbin arxasında həm qlobal miqyasda iqlim böhranının dərinləşməsi, həm də ölkələrin sosial-iqtisadi adaptasiya strategiyaları dayanır. Azərbaycan nümayəndə heyətinin təqdimatı burada üç əsas istiqamətdə rezonans doğurdu: ölkənin qlobal təhsil meyarlarının müəyyən edilməsində iştirak iddiası; OECD ilə institusional əməkdaşlığın dərinləşdirilməsi; və ən əsası, COP29-un irsinin konkret mexanizmlərlə davam etdirilməsi.

Elə bu məqamda geniş geosiyasi sual ortaya çıxır: Azərbaycan təhsil diplomatiyasını iqlim diplomatiyasının yeni sütununa çevirə bilərmi? Belem müzakirələri göstərdi ki, bu istiqamətdə ciddi əsaslar mövcuddur. Çünki iqlim savadlılığı artıq gələcək iqtisadi modelin, texnoloji inkişafın, sosial davranışların formalaşdığı strateji çərçivədir. Həmin çərçivəyə təsir göstərmək isə dövlətlərə yeni yumşaq güc resursu qazandırır.

Azərbaycanın təşəbbüsünün əsl əhəmiyyəti də burada üzə çıxır: ölkə yeni normativ məkan yaradır və bu məkan qlobal təhsil siyasətinin gələcək strukturuna təsir etmək potensialı daşıyır. COP30-un Belem müzakirələri bunu bir daha təsdiqlədi – iqlim savadlılığının qlobal standartlara çevrilməsi məsələsi real siyasi gündəmdir və Azərbaycan bu gündəmin aktiv müəlliflərindən biridir.

İndi əsas məsələ odur ki, bu təşəbbüs hansı mərhələdə institusional çərçivəyə çevriləcək və dövlətlərarası konsensus nə dərəcədə genişlənəcək? Sual həm COP30 sonrası dövrün prioritetlərini müəyyən edəcək, həm də Azərbaycanın qlobal təhsil siyasətindəki rolunu daha aydın göstərəcək.

COP29-dan COP30-a uzanan birillik yol Azərbaycanın qlobal iqlim siyasətində yeni mövqelənməsinin formalaşdığı mərhələ oldu. OECD ilə birlikdə iqlim savadlılığı indikatorlarının ilkin çərçivəsinin hazırlanması, əslində, təhsil sahəsində gələcək qlobal standartların konturlarının çəkilməsi deməkdir. Həmin çərçivə PISA-nın metodologiyasına uyğunlaşdırılmış pilot konseptlərlə dəstəkləndikcə, təşəbbüs artıq ideyadan qlobal ölçmə mexanizminə inteqrasiya potensialı olan bir siyasi layihəyə çevrilir.

Eyni zamanda, regional ekspert qruplarının formalaşdırılması və müxtəlif ölkələr üzrə ehtiyacların xəritələşdirilməsi təşəbbüsün beynəlxalq legitimliyini gücləndirən ən vacib komponentlərdən biridir. Azərbaycan bu çərçivədə xüsusən inkişaf etməkdə olan ölkələrə yönəlmiş ikitərəfli məsləhətləşmələrlə özünü həm bilik daşıyıcısı, həm də tərəfdaş kimi təqdim edir. Deməli, Bakı iqlim-təhsil kəsişməsində ortaya çıxan yeni geosiyasi boşluğu dolduran aktor statusu qazanır.

Təşəbbüslərin siyasi çəkisi ondan ibarətdir ki, iqlim savadlılığı artıq inkişaf etmiş ölkələrin müzakirə etdiyi mövzudur və bu sahədə liderlik edən inkişaf etməkdə olan ölkələrin sayı çox deyil. Azərbaycan məhz bu nadir mövqedə dayanaraq özünə strateji üstünlük əldə edir: həm reputasiya artırır, həm də qlobal normayaratım prosesinə real təsir imkanları qazanır.

Belemdə keçirilən yüksək səviyyəli dəyirmi masa iqlim savadlılığının təhsil sistemində necə və hansı siyasi çərçivədə yer almalı olduğu ilə bağlı yeni konsensusun formalaşdığını göstərdi. Müzakirələrin məntiqi aydın idi: təhsilin yaşıl transformasiyası ölkələrin gələcək inkişaf modelini müəyyən edən strateji qərardır.

Azərbaycan nümayəndə heyətinin çıxışı da məhz bu kontekstdə böyük diqqət topladı. Təşəbbüs universallıq iddiası ilə irəli sürülür: iqlim savadlılığı bütün ölkələr üçün minimum bilik standartı kimi təqdim olunur. Müəllim hazırlığının vahid meyarlarla çərçivələndirilməsi isə diqqətdən qaçmayan başqa bir strateji xəttdir. Çünki istənilən kurikulum dəyişikliyinin dayanıqlılığını təmin edən əsas qüvvə məhz müəllimdir. Qeyd etməliyik ki, bu məqam uzun illərdir dünya üzrə ən böyük boşluq kimi qalır və Azərbaycanın bunu prioritet kimi təqdim etməsi təşəbbüsün reallığa əsaslanan tərəfini gücləndirir.

Nəhayət, PISA çərçivəsində ölçülə bilən indikatorların vurğulanması təşəbbüsün sağlam siyasi arxitekturasını göstərir. Ölçülə bilməyən heç bir qlobal standart davamlı ola bilməz. Azərbaycan isə məhz ölçüləbilənlik mexanizmini önə çəkərək böyük dövlətlərin dəstəyi üçün zəruri olan texniki-siyasi ciddiyyəti nümayiş etdirir.

COP30-un Belem səhnəsi göstərdi ki, iqlim savadlılığı təşəbbüsü qlobal konsensusun formalaşması üçün potensial mexanizmə çevrilir. Gözlənilən üç istiqamət bu prosesin siyasi nəticələrini müəyyən edə bilər. Birincisi, PISA qiymətləndirmələrinə iqlim indikatorlarının daxil edilməsi, dünya təhsil xəritəsini kökündən dəyişəcək qərar ola bilər. Bu halda Azərbaycan təşəbbüsün mərkəzində dayanaraq, qlobal təhsil standartlarını formalaşdıran aktorlardan birinə çevriləcək. İkincisi, inkişaf etməkdə olan ölkələr üçün yaşıl təhsil fondunun yaradılması perspektivi var; burada Azərbaycan tərəfdaş – mərkəz rolunu oynayaraq, yalnız təşəbbüsün icraçısı deyil, həm də qlobal resursların koordinatoru kimi görünəcək. Üçüncüsü, COP29–COP30 xəttinin institusional irsə çevrilməsi ehtimalı var; COP qlobal təhsil siyasətinin dönüş nöqtəsi kimi yadda qala bilər.

Maraqlı, eyni zamanda kritik sual yaranır: Azərbaycan iqlim diplomatiyasında "enerji ölkəsi" imicini "yenilənən normativ aktor" imicinə çevirə biləcəkmi? Cavab yalnız COP-dan COP-a qədər görüləcək işlərin davamlılığı və beynəlxalq təsirin ölçülə bilməsi ilə müəyyən olunacaq. Davamlılıq növbəti illərin təhsil siyasətinin strukturlandırılmasında əsas indikator rolunu oynayacaq. Xatırlatmaq yerinə düşər ki, 2025-ci ilin oktyabrında ADA Universitetində "İqlim Dəyişikliyi üzrə Azərbaycan Universitetləri Şəbəkəsi"nin yaradılması ölkəmizin iqlim diplomatiyası üçün strateji dönüş nöqtəsi oldu. Təşəbbüs ali təhsil müəssisələrini, dövlət qurumları və beynəlxalq tərəfdaşları da birləşdirərək bilik və siyasət inteqrasiyasını təmin etdi.



Akademik institutların bu cür birləşməsi elmi potensialı artırmaqla yanaşı, siyasi qərarların sübut-dəlilli hazırlanmasına və uzunmüddətli təhsil və iqlim siyasətinin effektiv şəkildə qurulmasına imkan yaradır.

Son olaraq qeyd etməliyik ki, əgər təşəbbüs qəbul olunarsa, gələcək nəsillərin təhsil modeli Bakının COP29 masasından başlayacaq və ölkəmiz həm regionda, həm də qlobal miqyasda təhsil diplomatiyasının nümunəvi aktoru kimi tanınacaq.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

---

# Transatlantik gərginlik yenidən artır

## *"Qoca qitə"nin Ukrayna üçün uzunmüddətli təhlükəsizlik tələbi*



**Avropa siyasəti son illər heç vaxt olmadığı qədər sürətlə dəyişir. Ukraynada davam edən müharibə regional təhlükəsizlik dinamikaları ilə yanaşı, qitənin strateji düşüncə strukturunun da kökündən silkələnməsinə səbəb olub. Əslində, Rusiya-Ukrayna müharibəsi fonunda Avropa İttifaqının praktiki gücsüzlüyü, iqtisadi üstünlüyü hərbi üstünlüyə çevirə bilməməsi bir daha tədiqlədi ki, siyasi birlik görüntüsü zaman-zaman çökə bilər. Belə bir mürəkkəb fonda Fransa Prezidenti Emmanuel Makronun açıqlamaları beynəlxalq səviyyədə əks-səda doğurur. Onun Ukraynanın maliyyələşdirilməsi üçün dondurulmuş Rusiya aktivlərindən istifadə ideyasını yenidən gündəmə gətirməsi Avropanın qorxularını özündə ehtiva edir.**

Şübhəsiz, Fransa lideri bu çıxışı ilə daha çox öz strateji vizyonunu Avropanın çəkilməyə çalışdığı geopolitik xəritənin mərkəzinə yerləşdirmək niyyəti güdür. Nəzərə alsaq ki, dondurulmuş rus aktivləri illərdir müzakirə olunur, onların Ukrayna üçün sabit maliyyə mənbəyinə çevrilməsi ideyası hələ də tərəddüdlərlə qarşılanır. Fransa lideri isə bu tərəddüdlərin qarşısını almağa çalışır.

Əslində, Makron öz resurslarına sahib çıxmasını, müharibənin yükünü ABŞ-dan uzaq tutmağı, Vaşinqtona daha az bağlı olan qərar mexanizmi yaratmağı hədəfləyir. Görünür, o, fransızsayağı siyasətindən əl çəkə bilir. Yəni məsələnin sadəcə maliyyə ilə bitmədiyinin fərqində deyil. Axı prosesdə siyasi iradə hər şeydən öncə gəlir. Çünki bir dövlətin aktivlərindən icazəsiz istifadənin hüquqi presedentini yaratmaq Avropa üçün tarixi addım ola bilər. Halbuki, Brüssel illərdir hüquqi legitimlik çərçivəsindən kənara çıxmamağa çalışıb. Düşünək ki, artıq Moskvanın yaratdığı reallıq bu çərçivələri daraltmağa başlayıb?

Avropa Rusiyanın iqtisadi üstünlüyünə qarşı daha sərt mexanizmlər axtarır və Makron bunun önünə çıxaraq, təşəbbüsü öz adına yazdırmaq istəyir. Proses bir daha göstərir ki, Fransa başqa ölkələrin taleyinin həll olunduğu məqamlarda belə kor-koranə addımlar atmaqdan çəkinmir. Kimlərsə məsələnin mahiyyətini Ukrayna ilə bağlaya bilər, amma Parisin münaqişədən istifadə edərək söz sahibinə çevrilmək arzusu gözardı edilməməlidir.

Əlbəttə, durum rəsmi Vaşinqtonun "sülh planı" layihəsini gündəmə gətirməsindən sonra alovlandı. Trampın Ukrayna müharibəsi ilə bağlı tez-tez səsləndirdiyi "24 saatda sülh" şüarı Avropa paytaxtlarında daha çox təlaş doğurdu. Çünki bu cür sürətli barışın, heç bir halda, Ukraynanın maraqlarını əks etdirməyəcəyi, əksinə, Kiyevin ciddi ərazi güzəştlərinə məcbur qalacağı düşünülür. Bir çox xarici analitiklər hesab edirlər ki, Trampın yanaşması müharibəni dayandırmaqdan çox, yükü Amerika büdcəsindən mümkün qədər tez kənarlaşdırmağa xidmət edir. Avropa isə bu məntiqin öz təhlükəsizlik mühitini necə dağıda biləcəyinin fərqindədir. Ona görə Aİ Birləşmiş Ştatlar liderinin hələ formalaşdırmadığı, lakin istiqamətini artıq bəlli etdiyi sülh planına qarşı öz alternativ layihəsini irəli sürməyə başlayıb. "European alternative" adlandırılan layihə Ukraynanın müdafiəsi ilə bağlı texniki sənəd təsiri bağışlasa da, əslində, Avropanın öz geopolitik gələcəyini yenidən inşa etmək cəhdidir.

Avropa anlayır ki, Ukraynada gedən müharibə bütün qitənin sərhədlərini, dəyərlərini, siyasi modelini müəyyənləşdirən sınaq meydanıdır. Yeri gəlmişkən, ABŞ-ın 28 maddəlik layihəsini baza götürən alternativ planda hər maddə yenidən gözdən keçirilir, bəziləri silinir, müəyyən dəyişikliklər təklif edilir. Yeni variantın mətnində NATO-nun genişlənməməsi yönündə qoyulmuş məhdudiyyətlər aradan qaldırılır. Qoyulan sərhədlər əvvəlcədən "de-fakto" Rusiya nəzarətində sayılan ərazilər kimi qəbul edilməyəcək. Ərazi məsələlərinin müzakirəsinə atəşkəs razılaşmasından sonra mövcud döyüş xəttindən başlanılması təklif olunur.

Bundan başqa, Ukraynanın silahlı qüvvələrinin sülh dövründə sayına ABŞ planından fərqli olaraq, 600 min yox, 800 min nəfərlik limit nəzərdə tutulur. Eyni zamanda, Ukrayna üçün təhlükəsizlik zəmanətləri NATO stilində, yəni ABŞ tərəfindən verilə bilər. Bərpa və yenidənqurma prosesi də planın əsas komponentidir. Bu məqsədlə Ukraynanın iqtisadi, infrastruktur və sosial bərpası üçün geniş paket nəzərdə tutulur, enerji infrastrukturu, şəhər və yaşayış massivlərinin yenidən qurulması, investisiyalar, təbii resursların işlənməsi və s. uzunmüddətli inkişaf planının bir hissəsidir.

Aİ-nin alternativ sülh layihəsinin ikinci bəndinə daha dəqiq nəzər yetirək. Ukraynanın müharibədən sonra tam təhlükəsizlik təminatından bəhs edən bənddə Fransa və Britaniyanın rəhbərlik etdiyi koalisiyanın Kiyevin gələcəyini hərbi, diplomatik və institusional çərçivədə qorumağın yollarını hazırladığı aydın olur. Bu model NATO-nun genişlənmə prosesinin ləngiməsindən meydana çıxmış boşluğu doldurmağı hədəfləyir. Avropa bununla Rusiya ilə sərhəddə "boş zona" saxlamaq istəmir. Məsələdə Ukraynanın mövqeyi də maraqlıdır. Rəsmi Kiyev xəbərdardır ki, ABŞ-ın siyasəti dəyişkəndir və hələ öz təhlükəsizliyini belə tam təmin edə bilməyən Avropanın nə dərəcədə uğurlu olacağı da sual altındadır.

İki planın mahiyyətini də düzgün təhlil etmək lazımdır. Trampın planında Ukrayna sülhə barter predmeti kimi görünür, Aİ-nin planında isə ölkə dəyişdirilməz geosiyasi dəyər olaraq. Rəsmi Vaşinqtonun tezisləri Amerika təhlükəsizliyi üçün ağıllı hesablamalara əsaslanırsa, Aİ-nin alternativi Avropanın varlığını qorumaq üzərində qurulub. Bu iki fərqli baxış dünya siyasətində dərin ideoloji uçurum yaradır. Bəzilərinə elə gəlir ki, Avropa Trampın planını rədd etməklə ABŞ-a qarşı çıxır, amma sadəcə, gələcək mövcudluğunu təmin etmək istəyir. Ona görə də "qoca qitə" bu gün özünün ən kritik anları ilə üz-üzədir. Avropa başa düşür ki, əgər rəsmi Kiyev məğlub olsa, formalaşdırılan "təhlükəsizlik arxitekturası" arzuları puç olacaq. Trampın sülh planı məhz bu arxitekturanın çökməsi təhlükəsini artırır. Aİ-nin alternativ layihəsi isə çökmənin qarşısını almaq üçün tələsik addımların kombinasiya olunmuş paketidir.

Deməli, Ukrayna müharibəsi Avropanın bəlkə də yeni güc mərkəzinə çevrilmək iddiasının başlanğıcı ola bilər. Mübarizənin qalibi kim olacaq hələlik bəlli deyil. Yaxın perspektivdə isə proseslə bağlı yeni fikir ayrılıqlarının yaranacağı görünür.

***Nəzrin ELDARQIZI***
***XQ***

# İlham Əliyev: liderin tarixi-siyasi missiyası



## II MƏQALƏ

### Azərbaycanda yeni liderlik

Şübhəsiz ki, Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanın uğurlu lider nümunəsini hazırlaması və onu eksklüziv həyata keçirməsi çox qiymətli tarixi-siyasi töhfədir. Bir tərəfdən, həmin liderlik nümunəsi ilə Azərbaycan davamlı inkişaf xəttinə çıxan müstəqil güclü dövlət kimi formalaşmağa başladı. Digər tərəfdən isə bu prosesin keşməkeşli XXI əsrdə davam etməsi üçün lazımi hüquqi, siyasi və ideya bazası yaradıldı. Prezident İlham Əliyevin yeni lider kimi yüksək keyfiyyətlərinə bu prizmada baxmaq daha doğru olardı. Lakin bütövlükdə Azərbaycan rəhbərinin tarixi-siyasi missiyasının tam anlamının vurğulanan miqyasla məhdudlaşdığını da demək bütöv mənzərəni ifadə etmir. Çünki İlham Əliyevin siyasi lider kimi fəaliyyəti milli və regional miqyasla məhdudlaşmır – onun nüfuzetmə dairəsi qlobal səviyyədədir.

Buna görə də İlham Əliyev liderliyinin tarixi-siyasi dərki üçün əhatəli konseptual yanaşma gərəkdir. Elə liderlər var ki, onların missiyası ilə fəaliyyət miqyası arasında əlaqəni adi yanaşma ilə müəyyən etmək imkansızdır.

### Blondel yanaşması

Həmin məqamı nəzərə alaraq keçən əsrin 80-ci illərində məşhur fransız politoloqu Jan Blondel yazırdı ki, liderliyi "çoxölçülü yanaşma" əsasında adekvat dərk etmək olar. Bu sırada o, liderin təsirini "liderliyin prinsipial əsası" hesab edirdi. Buradan J.Blondel liderin şəxsi keyfiyyətləri ilə ölkənin və dövrün siyasi institutlaşma özəllikləri arasında dərin politoloji bağlantıların təhlilinə baş vururdu. Fransız politoloq yazırdı: "struktur məhdudiyyətləri mövcud olur ki, onlar, məsələn, ölkənin iqtisadi bazasından qaynaqlanır". Və davam edir: "ölkənin verilən anda mövcud olduğu Zamanə özəlliyi də konkret məhdudiyyət yaradır".

Deməli, J.Blondel liderin missiyası və miqyası üçün aşağıdakı faktorlar və keyfiyyətlərin əhəmiyyətli rol oynadığını vurğulayır: liderin şəxsi keyfiyyətləri – ölkənin daxili vəziyyətinin müəyyən etdiyi şərtlər – dövrün fərqli xüsusiyyətləri (müxtəlif xarakterli).

### Kissincer yanaşması

Bu mövqeni Henri Kiccincer daha da inkişaf etdirərək konkret konseptual müstəviyə gətirmişdir. 2022-ci ildə yazdığı əsərdə XX əsrdə dünya miqyasında liderlik strategiyası kimi qiymətləndirilə bilən 6 nümunəyə eyni bucaq altında baxır. Onun baza tezisini "liderlik oxu"nun, yəni xüsusi "liderlik kanalı", "liderlik sahəsi", "liderlik zolağı"nın mövcudluğu təşkil edir. Həmin "liderlik sahəsi"ni H.Kissincer siyasi sistemdən asılı olmayaraq daim kollektiv yaddaşı formalaşdıran keçmişlə onun təkamülünü istiqamətləndirən "gələcəyin mənzərəsi" arasındakı dinamika müəyyən edir. Bu proses lidersiz mümkün deyildir. Deməli, H.Kissincerə görə, lider cəmiyyətin, ölkənin və dövlətin mövcudluğunun ontolojisi ilə bağlıdır. Ayrıca, dövlətdə liderlik insanlara indi durduqları "punkt"dan "heç zaman olmadıqları" və "həmin punkta keçməyi belə düşünməyə qorxan" insanlara yardım etmək üçündür. Lidersiz ölkənin sonu fəlakətdir.

### 2 yanaşmanın 1 nəticəsi

Jan Blondel liderliyə yerli şərtlərlə dünya miqyasında mövcud olan faktorların qarşılıqlı münasibətlərində baxaraq, belə qənaətə gəlir ki, liderin tarixi-siyasi missiyası şəxsi keyfiyyətlər – milli miqyas-qlobal miqyas qarşılıqlı münasibətlərinin vəhdətində formalaşır. H.Kissincer isə bunun XX əsrə aid konkret nümunəsini verir. Məsələn, Riçard Nikson ABŞ üçün "tarazlıq strategiyası"nı müəyyən etməsəydi, Amerikanın sonunun fəlakət ola biləcəyini ifadə edir və yaxud Ənvər Sadat Misir üçün "transendentlik strategiyası"nı seçməsəydi, həmin ölkənin mövcudluğu sual altına düşə bilərdi.

Bu müqayisələrdən bir nəticə alınır: liderin seçimi ölkənin taleyini hər bir prinsipial tarixi-siyasi mərhələdə həll edir! Buna görə də liderin tarixi-siyasi missiyası bu gerçək proses fonunda müəyyən edilə bilər. H.Kissincerin vurğuladığı 6 dünya strategiyasının təməli liderin həmin dövrdə ölkəsinin tarixi-siyasi missiyasını adekvat dərk etməsi ilə sıx başlıdır.

Ancaq bu, kifayət deyildir. Çünki lider bu dərketmə əsasında praktiki faydalı nəticə verə biləcək fəaliyyət göstərməlidir. Bu da dolayısı ilə liderin şəxsi keyfiyyətlərinin onun tarixi-siyasi missiyasında xüsusi yer tutduğunu göstərir.

Bu ümumi konseptual qeydlərin fonunda Azərbaycan Prezidenti İlham Əliyevin tarixi-siyasi missiyasını düzgün xarakterizə edə bilən strategiya nədən ibarətdir? Bunun üçün öncə bir sıra məqamlara nəzər salaq.

### Enerji strategiyası

İlham Əliyev Prezidentlik və liderlik fəaliyyətinə çox mürəkkəb geosiyasi şərtlər altında başlamışdır. Həmin illər dünya üçün şok yaradan məlum 11 sentyabr terror hadisəsindən silkələnirdi. Bütün dünyada hüquqla ədalətin balansı pozulmuşdu. Onsuz da güc tərəfdarı olan böyük dövlətlər daha çox aqressiya nümayiş etdirir, az qala hər epizodda beynəlxalq hüququ pozurdular. Belə bir şəraitdə Cənubi Qafqaz daha dolaşıq və ədalətsiz münasibətlərlə üz-üzə idi. Onun əsas ağırlığı isə Azərbaycanın üzərinə düşürdü.

Belə bir dönəmdə Azərbaycan Prezidenti həm də uğurlu lider olmalı idi. Yəni müstəqil dövləti məharətlə idarə etməklə yanaşı, bütövlükdə cəmiyyəti toparlayıb irəli apara biləcək aparıcılıq vəzifəsini yerinə yetirməli idi. Bu, fərqli bir məzmunda Prezidentliklə liderliyin vəhdətinə nail olmağı tələb edirdi.

2003-cü ildən başlayaraq həmin vəhdət enerji strategiyasının yeni mərhələdə həyata keçirilməsini tələb edirdi. Prezident İlham Əliyev bu vəzifənin öhdəsindən cari şərtlərlə yanaşı, strateji tələblər kontekstində gəldi. Onu liderliyin tarixi-siyasi missiyasının əsas xarakteristikalarından biri hesab etmək olar. Çünki enerji strategiyası çərçivəsində Azərbaycan Prezidenti milli, regional və qlobal maraqları optimal şəkildə sintez də bildi. Bunun reallaşması süjeti də liderlik kontekstində olduqca maraqlıdır.

İlham Əliyev müxtəlif güclü dairələrin fərqli əngəllərinə baxmayaraq, Bakı-Ceyhan neft boru kəmərini işə saldı. Bunun üçün Gürcüstana bir neçə dəfə səfər etdi, Tbilisiyə lazım olan yardımları göstərdi. Gürcüstanı enerji cəhətdən miskin duruma salan Rusiyanın iradəsinin əksinə olaraq, qonşu dövlətə bütün dəstəyini verdi. 2008-ci ildə Rusiyanın Gürcüstanın iki bölgəsini işğal etməsi də Azərbaycanı dayandırmadı. Bakı etibarlı dəstəyini inkişaf etdirdi.

Postsovet məkanında bu dərəcədə sistemli və davamlı enerji strategiyası həyata keçirən ikinci bir dövlət yoxdur. Bu o mənada tarixi missiyadır ki, bütövlükdə Cənubi Qafqazın geosiyasi mənzərəsini yeniləşdirdi. Əgər Azərbaycanın enerji strategiyası olmasa idi, nə Gürcüstan, nə də Ermənistan ayrıca dövlət kimi mövcud olmayacaqdı. Deməli, həmin strategiya ümumi halda bütövlükdə Cənubi Qafqazın region kimi varlığını təmin etməsi baxımından tarixi olaydır. Buradan liderin tarixi-siyasi aspektdə missiyasının çox önəmli bir aspektinə keçid edirik.

### Yeni geosiyasi dönəm

Olduqca mürəkkəb və ziddiyyətli geosiyasi tarixə malik Cənubi Qafqazda liderin tamamilə yeni məzmun və istiqamət verməsinin tarixiliyi və siyasiliyi gün kimi aydındır. Çünki faktiki olaraq, zamanca eyni anda həm müstəqil dövlət kimi inkişaf etmək, həm də regionun bütövlüyünü saxlamaq çətin məsələdir.

Gürcüstan və Ermənistanın bu aspektdə fəaliyyətindən danışmaq mümkün deyildir. Onlar daim kənardan dəstəklə ayaqda qalmağa çalışmışlar. Bütöv region miqyasında hər hansı praktiki nəticəsi ola biləcək təşəbbüsləri və ya proqramları olmamışdır.

Onlar XXI əsrin başlanğıcından Azərbaycanın layihələri, əməkdaşlıq platformaları və enerji strategiyasının mahiyyətindən asılı vəziyyətdə qalmışlar. Müəyyən mənada onları Rusiyanın aqressiyasından da Azərbaycanın davranışları qorumuşdur. Bu bağlılıqda Ermənistan məsələsi bir qədər qaranlıq ola bilər. Lakin Azərbaycanın qətiyyətli müstəqil mövqeyi olmasa idi, Moskva bütün regionu geosiyasi və siyasi olaraq "udardı". Yalnız Azərbaycanın mövqeyi bu planın tam reallaşmasını əngəllədi və bu mənada Ermənistanın ayrıca ölkə kimi qalması da dolayısı ilə Azərbaycanın fəaliyyəti ilə bağlıdır.

Əhəmiyyətlidir ki, İkinci Qarabağ müharibəsində Ermənistanın məğlubiyyəti də Azərbaycanın sayəsində birbaşa regionun mövcudluğuna müsbət təsir etmişdir. Çünki hərb meydanında Ermənistanın uduzması bütövlükdə regionun sülh qazanmasına imkan yaratmışdır.

Tarixilik baxımından burada əsas olan faktor Azərbaycanın artıq Cənubi Qafqazda heç bir təcavüzkarlığa imkan verməyəcəyinə əminliyin yaranması idi. İndi Ermənistanın özünü Rusiyaya qarşı cəsarətli göstərməsinin səbəblərindən biri Azərbaycanın regionun bütövlüyü naminə davamlı fəaliyyəti ilə bağlıdır.

Bununla yanaşı, Azərbaycan liderinin fəaliyyəti vurğulanan aspektlə məhdudlaşmır. Əksinə, onu daha dərin qatlarda olan başqa bir siyasətin nəticəsi hesab edə bilərik. Biz Azərbaycan Prezidentinin müxtəlif layihələrlə qarşılıqlı faydalı əməkdaşlıq platformaları arasında maksimum uyğunluğu təmin edən siyasət həyata keçirməsini nəzərdə tuturuq.

### Əməkdaşlıq platformaları

Layihələrin həyata keçməsi və bütövlükdə əməkdaşlıq platformalarının bir-birinə uyğunluğunun regional infrastrukturun yaradılması ilə bağlı olması liderin kreativliyinin başlıca göstəricilərindən biri kimi əhəmiyyəti vardır. Burada nəzərə almaq lazımdır ki, İlham Əliyevin təşəbbüs etdiyi ikitərəfli, üçtərəfli və dördtərəfli əməkdaşlıq formatları müxtəlif layihələrin həyata keçməsi üçün son dərəcə vacib hadisədir. Azərbaycan Prezidentinin irəli sürdüyü elə bir əməkdaşlıq formatı yoxdur ki, vurğulanan şərt ödənməsin. Nümunələrə baxaq.

Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlıq platforması "Yeni İpək Yolu" layihəsinin reallaşması kontekstində ciddi olaraq yeni infrastrukturun yaradılmasında rol oynamışdır. Çoxlu sayda nəqliyyat-loqistika obyektləri tikilmiş, tranzit üçün maksimum faydalı punktlar yaradılmış və bunlar bütövlükdə regiona xidmət etmək səviyyəsində olmuşdur. Bunun konkret təsdiqi aspektində faktlar çoxdur. Son olaraq dünya Azərbaycanın Qazaxıstan taxılını Ermənistana buraxmasının əhəmiyyətindən daha çox danışır. Doğurdan da məhz Azərbaycan-Gürcüstan-Türkiyə və Qazaxıstan-Azərbaycan-Türkiyə əməkdaşlıq formatları çərçivəsində yaradılan infrastruktur sayəsində optimal zaman daxilində Ermənistana yük çatdırılmışdır. Əgər Azərbaycan Prezidentinin davamlı siyasəti olmasaydı, buna nail olmaq qeyri-mümkün idi. O cümlədən, İlham Əliyev öncədən hər bir təşəbbüsündə regional maraqları əsaslı surətdə nəzərə almışdır.

Beləliklə, Azərbaycan liderinin tarixi-siyasi missiyasının mühüm cəhətlərindən birini əməkdaşlıq platformaları və layihələrin reallaşmasını regional infrastrukturun yaradılmasıyla əlaqələndirməsi təşkil edir. Nəticədə enerji strategiyası, əməkdaşlıq platformaları, layihələr və regional infrastruktur kompleks halında Cənubi Qafqazda yeni geosiyasi dönəmin mühüm bir aspektini formalaşdırdı.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Gürcüstan hakimiyyəti seçki qanunvericiliyini dəyişdirir

**Son vaxtlar Gürcüstanda yaşanan siyasi dəyişikliklər ölkənin həm daxili, həm də xarici siyasətində ciddi dönüş nöqtəsidir. Hakim "Gürcü Arzusu" partiyası seçki qanunvericiliyində və dövlət idarəçiliyində əsaslı dəyişikliklər həyata keçirir. Bu addımların məqsədi seçki prosesinə daha güclü nəzarət etmək, dövlət institutlarını xarici təsirlərdən qorumaq və siyasi sabitliyi təmin etməkdir. Lakin yeni təşəbbüslər həm ölkə daxilində, həm də beynəlxalq aləmdə geniş müzakirələrə səbəb olub.**

Ən əsas dəyişikliklərdən biri xaricdə yaşayan gürcü vətəndaşlarının seçki məntəqələrində səsvermə hüququnun ləğv edilməsidir. İndiyə qədər belə vətəndaşlar yalnız parlament seçkilərində xarici məntəqələrdə səs verə bilirdilər. İndi isə hər bir seçici yalnız ölkə ərazisində, yaşadığı ünvan üzrə səs verəcək. Parlament sədri Şalva Papuaşvili hesab edir ki, əgər vətəndaş siyasi həyatda iştirak etməyə həqiqətən maraqlıdırsa, ölkəyə qayıdıb səs verməsi çətinlik yaratmamalıdır. Onun sözlərinə görə, bu, həm vətəndaşın məsuliyyətini artırır, həm də seçki prosesini xarici təsirlərdən qoruyur.

Qeyd edək ki, xaricdə yaşayan gürcülərin sayı kifayət qədər böyükdür. Məlumata görə, Rusiyada təxminən 160 min, Avropa ölkələrində, xüsusilə Yunanıstan, İtaliya, İspaniya, Fransa və Almaniyada 350 min, ABŞ-da isə 100 min Gürcüstan vətəndaşı yaşayır. Ölkənin özü isə, təxminən, 3,9 milyon əhaliyə malikdir. Onların da əksəriyyəti seçkilərdə iştirak etmək yaşındadır. Bu, həm normal, həm də vətənpərvərlik nümunəsidir. Bu dəyişikliklər Gürcüstanın demokratik institutlarını gücləndirmək, xarici təsirlərdən qorunmaq və seçki prosesində şəffaflığı təmin etmək baxımından önəmli addımdır. Gürcüstanın gələcək siyasi trayektoriyası və seçki sisteminin şəffaflığı üçün həlledici məsələlərdən biridir".

Yada salaq ki, Gürcüstan Parlamenti birinci oxunuşda parlament seçkiləri zamanı xaricdə səs verməyi qadağan edən yeni Seçki Məcəlləsini qəbul edib. Sənədin yekun təsdiqindən sonra xaricdə yaşayan vətəndaşlar yalnız ölkəyə qayıtdıqdan sonra yaşadıqları yerlərdə səs verə biləcəklər. 76 millət vəkili bu dəyişiklikləri dəstəkləyib, 9 nəfər əleyhinə səs verib.

Hökumət yalnız seçki qanunvericiliyində dəyişikliklərlə kifayətlənməyib, dövlət idarəçiliyində də ciddi struktur islahatlarına başlayıb. 2022-ci ildə Avropa İttifaqının tövsiyəsi ilə yaradılmış Antikorrupsiya Bürosu 2026-cı ildən etibarən ləğv ediləcək. Bu qurum vəzifəli şəxslərin və



Əvvəlki qanunvericiliyə görə, parlament seçkilərindən əvvəl xarici ölkələrdə seçki dairələri yaradılırdı və bu dairələr əksər hallarda səfirlik və konsulluqlarda yerləşirdi.

Son parlament seçkilərində xaricdə açılan 60-dan çox məntəqədə müxalifət üstünlük qazanmışdı. Səs verənlərin yalnız 13,49 faizi "Gürcü Arzusu"nu dəstəkləmişdi. Qalan səsləri isə müxalifət toplamışdı. Ona görə də bu fakt hakimiyyətin nəzərində seçki prosesinə xarici müdaxilə risklərini artıran amil kimi qiymətləndirilib. Bildirilib ki, xarici ölkələrdə yaşayan vətəndaşlar kənar siyasi mühitin təsiri altındadır və dövlət bu təsirin qarşısını tam şəkildə ala bilmir. Bu, seçkilərin sabitliyinə potensial təhlükə yaradır. Ona görə də, seçki prosesinin yalnız ölkə daxilində keçirilməsi həm xarici təsirləri azaldacaq, həm də seçicilərə daha şüurlu seçim imkanı yaradacaq. "Gürcü Arzusu"nun fkrincə, bu addım həm seçki prosesini etibarlı edər, həm də vətəndaşın siyasi məsuliyyətini gücləndirər.

Müxalifətçilər isə məsələyə fərqli baxırlar. Onlar hesab edirlər ki, xaricdə yaşayan seçicilər ölkədəki təzyiq və nəzarətdən azad şəkildə öz səsini verir. Yeni dəyişiklik isə minlərlə insan üçün praktiki çətinlik yaradacaq və xaricdə yaşayan seçicilərin siyasi prosesdə iştirak imkanlarını məhdudlaşdıracaq. **Gürcüstan parlamentinin sabiq deputatı İsak Novruzov** isə



bildirir ki, Seçki Məcəlləsindəki dəyişikliklər ölkənin siyasi və institusional təhlükəsizliyini gücləndirməyə, seçki azadlığını qorumağa və dövlət suverenliyini xarici təsirlərdən müdafiə etməyə xidmət edir. O vurğulayır ki, xarici məntəqələrdə səsvermə zamanı şəffaflıq və tam nəzarət təmin edilmir və bu, seçki prosesinə manipulyasiya üçün imkan yaradır: "Bu, hakimiyyət tərəfindən atılmış məntiqi və zəruri addımlardı. Ölkənin həm seçki sistemində, həm də idarəçilik modelində uzun illər davam edən boşluqlar xarici müdaxilə, təzyiq və manipulyasiya üçün əlverişli şərait yaradıb və bu risklər son illər daha da artıb".

Novruzov əlavə edir ki, xaricdə yaşayan seçicilərin çoxu real siyasi prosesdən uzaqdır, informasiya mənbələri qeyri-sabitdir və səsvermə davranışları asanlıqla təsirə açıqdır: "Buna görə də dövlət yalnız öz sərhədləri daxilində, institusional nəzarət altında keçirilən seçkiləri daha etibarlı hesab edir. Əgər vətəndaş həqiqətən siyasi həyatda iştirak etmək istəyirsə, 4 ildən bir ölkəyə qayıdıb səs verməsi həm

siyasi təşkilatların maliyyə bəyannamələrinə nəzarət edirdi, lakin hakimiyyət onun funksiyalarını Dövlət Audit Xidmətinə qaytarmağın daha məqsədəuyğun olduğunu bildirir. Rəsmi açıqlamada vurğulanır ki, bu addım dövlət institutlarını konstitusiya çərçivəsinə qaytarmaq və xarici təsirləri azaltmaq məqsədi daşıyır. Korrupsiyaya qarşı mübarizə isə zəifləməyəcək, əksinə, daha səmərəli mexanizmlərlə davam etdiriləcək.

Buna baxmayaraq, müxalifət iddia edir ki, guya, büronun səlahiyyətlərinin icra hakimiyyəti ilə sıx bağlı olan quruma verilməsini elita üzərində nəzarətin zəifləməsi və antikorrupsiya orqanının hakimiyyətlə birləşməsi təhlükəsini doğurur.

Sabiq deputat İsak Novruzov isə tamamamilə başqa fikirdədir. O qeyd edir ki, Gürcüstanın Avropa İttifaqı ilə münasibətlərinin son aylarda soyuması fonunda ölkə daha müstəqil siyasi kursa keçmək niyyətindədir: "Ukraynadakı nümunələr göstərir ki, bu cür qurumlar Aİ tərəfindən ciddi nəzarət alətinə çevrilir və bu, Gürcüstanda narahatlıq yaradıb. Ləğv prosesi həm dövlət institutlarının konstitusiya çərçivəsinə qaytarılması, həm də paralel strukturların aradan qaldırılması məqsədini daşıyır. Son illərdə bir sıra dövlət qurumları xarici donorların təsiri ilə yaradılmış, lakin klassik dövlət idarəçiliyi sisteminə inteqrasiya olunmamışdır. Dövlət Audit Xidməti isə daha müstəqil, professional və dövlətə hesabatlı qurumdur. Məqsəd korrupsiyaya qarşı mübarizəni zəiflətmək deyil, əksinə, bu sahəni daha effektiv və sabit dövlət institutu vasitəsilə idarə etməkdir".

O sonda bildirdi ki, bu addımlar Gürcüstan hökumətinin xarici təsirlərdən azad, daha suveren idarəçilik modelinə yönəldiyini göstərir: "Antikorrupsiya Bürosunun ləğvi yalnız bürokratik struktur dəyişiklik deyil, həm də ölkənin siyasi müstəqilliyini gücləndirmə niyyətidir. Onun uğuru birbaşa olaraq Dövlət Audit Xidmətinin real səmərəliliyi və şəffaflığı ilə bağlı olacaq. Gürcüstan üçün əsas məsələ, korrupsiyaya qarşı mübarizənin dayanıqlı və effektiv mexanizmlərlə davam etməsini təmin etməkdir. Belə ki, struktur dəyişiklikləri yalnız formal xarakter daşımamalıdır".

Beləliklə, hakimiyyət bu islahatları Gürcüstanın dövlətçilik modelinin modernləşdirilməsi, demokratik institutların gücləndirilməsi, xarici təsirlərin neytrallaşdırılması və milli maraqların qorunması istiqamətində atılmış zəruri addımlar kimi təqdim edir. Rəsmi mövqeyə görə, ölkənin uzunmüddətli təhlükəsizliyi və siyasi sabitliyi üçün qısamüddətli narazılıqlar qaçılmaz olsa da, nəticədə bu islahatlar Gürcüstanı daha güclü, daha müstəqil və daha funksional dövlətə çevirəcək. O da maraqlıdır ki, Gürcüstanın həm seçki, həm institusional sahədə bu cür radikal dəyişikliklərə getməsi ölkənin Aİ ilə münasibətlərinin kəskin soyuduğu dövrə təsadüf edir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan–Ermənistan dövlət sərhədinin delimitasiyası üzrə növbəti görüş



**Noyabrın 28-də Azərbaycan Respublikasının Qəbələ şəhərində Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 12-ci görüşü keçirilib.**

Məmnunluqla qeyd olunub ki, komissiyaların 12-ci görüşü tərəflərdən birinin ərazisində – Azərbaycanın Qəbələ şəhərində keçirilir.

Görüş zamanı tərəflər 2025-ci il yanvarın 16-da keçirilmiş 11-ci görüşün yekunları üzrə əldə olunmuş, delimitasiya üzrə kompleks işlərin dövlət sərhədinin şimal sahəsindən başlayaraq Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Gürcüstanın sərhədlərinin qovuşma nöqtəsi ərazisindən cənub istiqamətində, şimaldan cənuba, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının İran İslam Respublikası ilə sərhədinə qədər başlanması barədə razılaşmanı qeyd ediblər.

Tərəflər delimitasiya tədbirləri ilə bağlı təşkilati və texniki məsələlər üzrə ətraflı fikir mübadiləsi aparıblar.

Həmçinin delimitasiya işlərinin həyata keçirilməsi qaydasına dair müvafiq təlimat layihələri müzakirə olunub.

Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryan qarşılıqlı maraq doğuran məsələlər üzrə ayrıca fikir mübadiləsi aparıblar.

Tərəflər növbəti görüşün tarixini iş qaydasında, Ermənistan Respublikasının şəhərlərindən birində müəyyən etmək barədə razılığa gəliblər.

***XQ***

# TDT-nin media və informasiya toplantısı

**Noyabrın 28-də Bakıda Türk Dövlətləri Təşkilatının media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin 7-ci toplantısı keçirilib.**




Toplantıda çıxış edən Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini Ömer Kocaman son illərdə media sahəsində əməkdaşlığın getdikcə daha sistemli və institusional çərçivədə inkişafını qeyd edərək üzv dövlətlərin media qurumları arasında məzmun mübadiləsinin genişləndirilməsi, strateji kommunikasiya sahəsində koordinasiyalı fəaliyyətin gücləndirilməsi və dezinformasiyaya qarşı çevik müdafiə mexanizmlərinin formalaşdırılmasının Türk dünyası üçün əsas prioritetlərdən birinə çevrildiyini vurğulayıb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, TDT-nin media və informasiya sahəsində əməkdaşlığı üzv ölkələri ortaq tarix, mədəni və dil birliyi ətrafında birləşdirən strateji platforma kimi xüsusi əhəmiyyət daşıyır. O, informasiya mübadiləsinin genişləndirilməsi, saxta xəbərlər və hibrid təhdidlərə qarşı birgə mübarizə, eləcə də ümumtürk informasiya məkanının daha dayanıqlı və koordinasiyalı şəkildə qurulmasının bu əməkdaşlığın əsas hədəflərindən olduğunu vurğulayıb.

Qazaxıstanın mədəniyyət və informasiya nazirinin müavini Kanat İskakov bildirib ki, Türk dünyası ortaq tarixi, mədəniyyəti və digər sahələrdə irsi olan coğrafiyadır. Biz bu gün müştərək kontent və layihələrimizi həyata keçiririk. Ortaq proqramlarımız var ki, bu da bizim üçün konkret nəticələrin əldə edilməsi baxımından böyük fürsətdir.

Qırğız Respublikasının Azərbaycandakı səfiri Maksat Mamıtkanov diqqətə çatdırıb ki, bu gün TDT-yə üzv ölkələr müxtəlif sahələrdə geniş əməkdaşlıq edirlər. O deyib: "Bu əməkdaşlığın əsas aparıcı sütunlarından biri də informasiya və media sahəsidir. Çünki düzgün məlumatın vaxtında və etibarlı şəkildə təmin edilməsi, qarşılıqlı faydaya əsaslanan sağlam informasiya axınlarının yaradılması bizim üçün böyük əhəmiyyət kəsb edir".

Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbərinin müavini Ferhat Pirinççi isə bu toplantının yalnız bir iş platforması deyil, eyni zamanda, ortaq coğrafiyamızın kommunikasiya, media və informasiya sahəsində daha güclü birlik yaratması üçün strateji addım olduğunu deyib.

Özbəkistan Prezidentinin Administrasiyası yanında Kütləvi İnformasiya Vasitələri üçün Məzmunun İstehsalı Mərkəzinin direktoru Kobuljon Axmedov nəzərə çatdırıb ki, biz artıq media sahəsində gələcək əməkdaşlıq istiqamətlərini formalaşdırırıq. Hazırladığımız tədbirlər planının həyata keçirilməsi ilə bağlı müzakirələr davam edir və bu prosesdə üzv dövlətlərin fəal iştirakı böyük əhəmiyyət daşıyır.

Tədbirdə, həmçinin TDT-nin müşahidəçi üzvü Şimali Kipr Türk Respublikasının xarici işlər naziri Tahsin Ertuğruloğlu çıxış edərək bildirib ki, media və informasiya məsələləri abstrakt sahələr deyil. Media həm yaddaşımızı, həm kimliyimizi, həm də mübarizəmizi özündə ehtiva edən strateji bir alətdir. Ortaq media əməkdaşlığının gücləndirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini qeyd edən nazir bildirib: "Şimali Kipr TDT çərçivəsində yaradılan mexanizmlərə, eləcə də media sahəsində əməkdaşlığa hazırdır. Düşünürəm ki, bu addım Türk dünyasının həmrəyliyini gücləndirir və informasiya sahəsində daha balanslı, obyektiv mühitin formalaşmasına töhfə verir".

Toplantı çərçivəsində üzv dövlətlərin qarşıdakı dövr üçün prioritet fəaliyyət istiqamətləri nəzərdən keçirilib. Türk Dövlətləri Təşkilatının media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin 8-ci toplantısının və Media və informasiya üzrə işçi qrupunun 13-cü iclasının Qazaxıstanda keçirilməsi qərara alınıb.

Türk Dövlətləri Təşkilatının media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin 7-ci toplantısının sonunda Kommünike qəbul edilib.

# Bakıda Gələcəyin Peşələri Sammiti





**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə keçirilən "Gələcəyin Peşələri Sammiti: Bakı-2025" bu dəfə paytaxtda baş tutub.**

Sammitdə dövlət və özəl sektordan rəhbər şəxslər, yerli və xarici karyera məsləhətçiləri, insan resursları üzrə mütəxəssislər, təhsil ekspertləri, inkişaf mentorları iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev açılış nitqində sammitin əmək bazarında yeni peşə və bacarıqlara dair tələblərin peşəkar müzakirəsi baxımından xüsusi əhəmiyyətini, əmək bazarındakı sürətli dəyişikliklərə çevik adaptasiya imkanlarının qiymətləndirilməsinin prioritet istiqamətlərindən olduğunu qeyd edib. Nazir bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin mərkəzində insan kapitalının inkişafı dayanır. Bu isə bir daha sübut edir ki, Azərbaycan artıq insan kapitalı əsaslı iqtisadi inkişaf modelini dövlət strategiyasının prioritet istiqaməti kimi müəyyən edib.

Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov yeni texnologiyaların və xüsusilə də süni intellektin təsiri altında yaranan yeni peşə bacarıqlarının mənimsənilməsi üçün gənc nəslin təşviq olunmasının vacibliyini vurğulayıb və bu istiqamətdə Gələcəyin Peşələri Sammiti kimi platformalara hər zaman ehtiyac olduğunu bildirib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov kadr potensialının gücləndirilməsinin gələcəyin rəqabətqabiliyyətli biznesləri üçün əsas şərtlərdən olduğunu vurğulayıb. O, əmək bazarının yeni çağırışları, peşə bacarıqlarının inkişafı, KOB-ların təlim ehtiyacları və KOBİA-nın bu istiqamətdə fəaliyyəti barədə fikirlərini bölüşüb.

Gələcəyin Peşələri Sammiti işəgötürənlər, dövlət qurumları, təhsil müəssisələri və peşəkarlar arasında sağlam fikir mübadiləsi üçün vahid platforma kimi nəzərdə tutulub. Sammitin hədəfləri gələcəyin peşə və bacarıqlarının müəyyənləşdirilməsi və tanıdılması, iş dünyasının yeni tendensiyalarının paylaşılması, hədəf qrup olan peşəkarların daha çevik, innovativ, rəqabətədavamlı karyera həlləri ilə təminatına şərait yaradılmasıdır.

Tədbir çərçivəsində "Peşələrin gələcəyi bizdən nə tələb edir?", "Gələcəyin bacarıqları" və "Gələcəyin iş mühiti" adlı üç panel müzakirəsi təşkil olunub.

Qeyd edək ki, Gələcəyin Peşələri Sammiti çərçivəsində ilk tədbir bu ilin oktyabr ayının 30-da Naxçıvan şəhərində keçirilib.

***XQ***

**Bakı–Roma münasibətlərinin bu gün malik olduğu siyasi çəkini anlamaq üçün sadəcə son səfərlərə baxmaq kifayət etmir. Bu xətt uzun illər boyu ardıcıl şəkildə qurulub. İtaliyanın Cənubi Qafqazda Azərbaycanı əsas tərəfdaş kimi seçməsi də mərhələlərlə formalaşmış strateji düşüncənin nəticəsidir. 2018-ci ildə İtaliya Prezidentinin Bakıya dövlət səfəri, ardınca 2020-ci ilin fevralında Prezident İlham Əliyevin Romaya səfəri iki paytaxt arasında münasibətləri sırf etik-protokol müstəvisindən çıxarıb, dayanıqlı siyasi konstruksiyaya çevirdi. Həmin səfər çərçivəsində imzalanan "Çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsi üzrə Birgə Bəyannamə" sonrakı beş ilin siyasi gündəliyini müəyyən edən baza sənəd rolunu oynadı, iki ölkənin xarici siyasət institutları üçün praktiki "yol xəritəsi"nə çevrildi.**

# Bakı–Roma dialoqu genişlənir



2020-ci il bəyanatının əhəmiyyəti təkcə siyasi ritorikada qalmadı, onun üstündə konkret mexanizmlər quruldu. Sənəd iki ölkənin XİN-ləri arasında Strateji Dialoq formatının yaradılmasını nəzərdə tutdu və bu mexanizm artıq praktik iş rejiminə keçib. Diplomatik müstəvidə paralel olaraq iqtisadi sahədə də struktur dəyişiklikləri baş verdi. Azərbaycanın ən böyük ticarət tərəfdaşına çevrilən İtaliya ilə dövriyyə illər üzrə artan dinamika göstərdi.

2024–2025-ci illərin statistikasına görə, Azərbaycanın xarici ticarət dövriyyəsinin təxminən dörddə biri İtaliyanın payına düşür, ölkənin xam neft ixracında isə İtaliyanın xüsusi çəkisi 40–45 faiz diapazonunda dəyişir. Bu rəqəmlər iki paytaxt arasında siyasi bəyannamələrin real iqtisadi dayaqlarının formalaşdığını göstərən əsas indikatorlardan biridir. Bu fonda xarici işlər naziri Ceyhun Bayramovun Romaya son səfəri artıq yeni mərhələnin konturlarını cızır.

C.Bayramov Baş nazir müavini və Xarici işlər naziri Antonio Tajani, eləcə də parlament rəhbərliyi – Senat sədri İqnasio La Russa və Deputatlar Palatasının sədri Lorenzo Fontana ilə keçirdiyi görüşlərdə formatı Avropa İttifaqının Cənubi Qafqaz siyasətinin müzakirə olunduğu platformaya çevirdi. Həmçinin XİN başçısının Vatikana rəsmi səfəri çərçivəsində Roma Papası XIV Leo ilə görüşü də önəmli yer tutur. Bugünkü şəraitdə İtaliyanın Cənubi Qafqazla bağlı mövqeyi, xüsusən Fransa xətti fonunda ayrıca diqqət tələb edir.

Paris son illərdə Ermənistanı geosiyasi alət kimi önə çıxarmağa, regionu emosional təsir meydanına çevirməyə çalışdığı halda, Roma daha sakit, hüquq və real balans məntiqinə söykənən xətt seçib. İtaliya nə münaqişənin süni şəkildə uzadılmasında maraqlıdır, nə də status-kvonu donmuş vəziyyətdə saxlamaq istəyir. Əksinə, nəticə verən sülh mexanizmlərini dəstəkləyən, sınanmış və işlək formatları önə çəkir. Bu baxımdan Roma həm də Fransanın avantürist addımlarının yaratdığı mənfi fonu yumşaldan yeganə Aİ paytaxtlarından biridir.

Bu siyasətin arxasında konkret strateji hesablamalar dayanır. İtaliya üçün Aralıq dənizi–Qara dəniz–Cənubi Qafqaz xətti enerji təhlükəsizliyinin, nəqliyyat marşrutlarının şaxələndirilməsinin və Avropa bazarının dayanıqlılığının əsas dayaqlarından biridir. Cənub Qaz Dəhlizi və onun İtaliya seqmenti sayılan TAP boru kəmərinin məhz Azərbaycan qazını Apennin yarımadasına çıxarması Roma üçün strateji dəyişiklik yaradıb. İtaliya həm enerji tədarükçüləri arasında balansı yenidən qurur, həm də Rusiya qazından asılılığı azaltmaq üçün real alternativ qazanıb. Bu layihələrin fonunda Azərbaycan, faktiki olaraq, İtaliyanın ən böyük enerji tərəfdaşlarından birinə çevrilib. TAP-ın kommersiya fəaliyyətinə başlamasından sonra bu rol daha da möhkəmlənib və Avropanın qaz xəritəsi Qafqaz istiqamətinə doğru yenidən çəkilib.

Ceyhun Bayramovun Romadakı danışıqlarında regional təhlükəsizlik mövzuları da sırf deklarativ səviyyədə qalmadı. Ermənistanın daxili siyasətində radikallaşma meyilləri, Fransanın İrəvanı həddən artıq şişirdilmiş "qurban narrativi" ilə Qərb auditoriyasına təqdim etməsi, İranın bölgədə etimad boşluğu yaradan addımları Avropa üçün risk sahələrinin genişləndiyini göstərir. Mövcud mənzərədə Azərbaycan sabitlik faktorudur və İtaliyanın regiona baxışı da məhz bu reallığa söykənir.

Digər tərəfdən, Roma Ermənistanın emosional arqumentlərini bölüşmür, Cənubi Qafqazda yeni qarşıdurma ocaqlarının açılmasının nə enerji bazarına, nə də Avropa təhlükəsizliyinə xidmət etmədiyini anlayır. Ona görə də İtaliya üçün əsas prioritet İrəvanın reallıqlarla barışması, sülh müqaviləsinin imzalanması və kommunikasiya layihələrinin siyasi şərtlərdən azad edilməsi xəttinin güclənməsidir.

Burada Aİ-nin daxilində gedən proseslər də ayrıca qeyd olunmalıdır. Brüssel son illərdə enerji gündəmində yaşıl keçid, fosil layihələrinə maliyyə məhdudiyyəti, qısamüddətli müqavilələrə üstünlük kimi qərarlar verir, amma eyni zamanda, Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan qazına tələbatını artırır. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, Brüsselin uzunmüddətli kredit və zəmanət mexanizmlərindən imtinası TAP və bütövlükdə Cənub Qaz Dəhlizinin genişləndirilməsi planlarını ləngidə bilər. Bu müzakirələr fonunda İtaliyanın rolu xüsusi əhəmiyyət kəsb edir. Roma bir tərəfdən Aİ qərarlarının iştirakçısıdır, digər tərəfdən isə bu layihələrin birbaşa faydaçısı kimi Brüsselin ehtiyatlı siyasəti ilə öz enerji təhlükəsizliyi maraqları arasında balans axtarır. Bu axtarış onu Bakının arqumentlərinə daha açıq edir.

Roma–Bakı xəttinin siyasi etimad komponenti isə ayrı bir mövzudur. İkinci Qarabağ müharibəsi və 2023-cü ilin antiterror tədbirlərindən sonra Fransanın birtərəfli çıxışları Aİ–Azərbaycan münasibətlərini gərginləşdirdiyi halda, İtaliya bu prosesə daha soyuqqanlı yanaşdı. Roma nə "himayədar dövlət" rolu oynamağa çalışdı, nə də regionu özünün geosiyasi eksperiment meydanına çevirdi. Əksinə, beynəlxalq hüququ, suverenliyi, sərhədlərin toxunulmazlığını əsas referans nöqtəsi kimi saxladı və ritorikanı bu prinsipial çərçivədən kənara çıxarmadı. Bu, Bakının Cənubi Qafqaz üçün nəzərdə tutduğu yeni təhlükəsizlik memarlığı ilə səsləşir: konkret sərhədlər, real razılaşmalar, icra olunan öhdəliklər və nəticəyönümlü mexanizmlər.

Roma Cənubi Qafqazda dominantlığın dalınca qaçmır, amma Parisin yaratdığı miflərə qoşulmaq da fikrində deyil. Bu, Azərbaycan üçün əlverişli modeldir. Bakı bölgədə nəticə verən qərar qəbul etmək iqtidarında olan, emosional bəyanatlarla deyil, siyasi məsuliyyətlə hərəkət edən tərəfdaşları seçir. İtaliya məhz bu kateqoriyaya aid ölkədir. Onun praqmatik siyasi mədəniyyəti, iqtisadi tərəfdaşlıqda ardıcıllığı, enerji və nəqliyyat layihələrinə uzunmüddətli baxışı Roma–Bakı xəttini Aİ–Azərbaycan münasibətlərində ayrıca qütbə çevirir.

Nəhayət, bu münasibətlərin humanitar və mədəni ölçüsü də diqqətdən kənarda qalmamalıdır. 2020-ci ilin "İtaliyada Azərbaycan ili" çərçivəsində keçirilən tədbirlər mədəni əməkdaşlığı yeni səviyyəyə qaldırdı, universitetlərarası proqramlar, tələbə və akademik mübadilə layihələri bu siyasi və iqtisadi gündəmin arxa fonunu dolduran "yumşaq güc" elementləri kimi fəaliyyət göstərməyə başladı. Bu xətt Romada Azərbaycan haqqında təsəvvürləri tədricən stereotiplərdən çıxarıb, real iqtisadi və siyasi çəkiyə malik ortaqlıq modelinə yönəldir.

Beləliklə, Ceyhun Bayramovun Roma səfəri bir neçə paralel xətti eyni anda gücləndirən mərhələ kimi görünür: siyasi etimad, enerji və iqtisadi inteqrasiya, Aİ daxilində Azərbaycanla bağlı qərarlarda Paris monopoliyasının yumşaldılması, regionda sülh gündəliyinin texniki və siyasi mexanizmlərinin dəstəklənməsi. Mövcud düzəndə İtaliya artıq sadəcə, Azərbaycanın Avropadakı əsas ticarət tərəfdaşı yox, eyni zamanda, Cənubi Qafqazda yeni regional konfiqurasiyanın formalaşmasında Bakının yanında dayanan əsas Avropa paytaxtına çevrilir.

***Tacir SADIQOV***
***XQ***

# Qeyri-neft-qaz ixracı artır

## *Potensial isə daha böyükdür*

**Qeyri-neft sektoru ölkə iqtisadiyyatının neft və qaz gəlirlərindən asılılığını azaltmaq baxımından mühüm sahə hesab olunur. Bu sahəyə kənd təsərrüfatı, sənaye, emal və xidmət sektoru kimi sahələr daxildir. Qeyri-neft məhsullarının istehsalının artırılması, yeni sənaye və emal müəssisələrinin yaradılması, həmçinin ixrac imkanlarının genişləndirilməsi ölkənin iqtisadi dayanıqlılığını gücləndirə və müxtəlif sahələrdə balanslı inkişafın təmin olunmasına xidmət edə bilər.**



Son illərdə Azərbaycanın dövlət büdcəsi ardıcıl olaraq genişlənib. 2020-ci ildə büdcə gəlirləri 24,7 milyard manat təşkil edirdisə, 2024-cü ildə bu rəqəm 37,2 milyard manata yüksəlib. Bu artım təkcə neft amili ilə bağlı olmayıb. 2020-ci ildə 10,7 milyard manat olan qeyri-neft gəlirləri 2024-cü ildə 19,2 milyard manata çataraq təxminən 80 faiz artıb ki, bu da büdcənin strukturunda vacib dəyişikliklərin baş verdiyini göstərir. Əgər 2020-ci ildə dövlət büdcəsinin təxminən 43 faizi qeyri-neft gəlirlərinə düşürdüsə, 2024-cü ildə bu göstərici 52 faizə yaxınlaşıb.

Qeyd edək ki, bu ilin yanvar-oktyabr aylarında Azərbaycanın 10 dövlət şirkəti tərəfindən ixrac olunan qeyri-neft-qaz məhsullarının ümumi dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 123,85 milyon ABŞ dolları və ya 14,75 faiz artaraq 963,7 milyon ABŞ dollarına çatıb. 2024-cü ilin analoji dövründə bu göstərici 839,8 milyon dollar olub. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına əsasən, qeyri-neft sektorunda ixrac əməliyyatlarında iştirak edən dövlət şirkətləri arasında 35,7 faiz payla SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi liderlik edib.

Hesabat dövründə SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi 344,1 milyon dollarlıq ixrac həyata keçirib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 0,12 faiz azdır. "SOCAR Polymer" MMC-nin ixracı 223,3 milyon dollar təşkil edib və bu, 2,06 faiz artım deməkdir. "AzerGold" QSC-nin ixrac göstəricisi isə kəskin yüksələrək 110 milyon dollardan 196,3 milyon dollara çatıb və 78,45 faiz artım qeydə alınıb. "Azəralüminium" MMC-nin ixracı 118,7 milyon dollardan 103,8 milyon dollara düşüb və 12,55 faiz azalma müşahidə olunub. SOCAR-ın Qaz İxrac İdarəsi bu dövrdə 57,2 milyon dollarlıq ixrac həyata keçirib, halbuki ötən ilin eyni dövründə bu göstərici sıfır olub. "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC-nin ixracı 46,7 milyon dollardan 33,3 milyon dollara enərək 28,69 faiz azalıb. "SOCAR-Dalğıc" MMC və "İstisu Mineral Su Zavodu" MMC bu dövrdə müvafiq olaraq 1,9 milyon və 1,6 milyon dollarlıq ixracla siyahıda ilk dəfə yer alıblar. "Azərbaycan Dəmir Yolları" QSC-nin ixracı 0,266 milyon dollardan 1,5 milyon dollara yüksələrək 463,91 faiz artıb. Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidmətinin ixracı isə 0,867 milyon dollardan 0,68 milyon dollara düşərək 21,57 faiz azalıb. Ümumilikdə, Azərbaycanın qeyri-neft ixracı hesabat dövründə 6,6 faiz artaraq 3 milyard ABŞ dollarına çatıb.

Yuxarıda qeyd olunduğu kimi, yanvar-oktyabr aylarında ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (276,8 milyon dollar) birinci olub. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın noyabr sayında bildirilir ki, bu siyahıda pomidor (tomat) (159,8 milyon dollar) ikinci, karbamid (153 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.

Bu ilin oktyabr ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (38,9 milyon dollar) birinci olub. Bu siyahıda xurma (32,7 milyon dollar) ikinci, meşə fındığı (23,9 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb. Cari ilin on ayında Rusiya Federasiyasına 968,9 milyon dollar, Türkiyəyə 486,3 milyon dollar, İsveçrəyə 288,3 milyon dollar, Gürcüstana 273,6 milyon dollar, Ukraynaya isə 171,4 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. 2025-ci ilin oktyabr ayında Rusiya Federasiyasına 90 milyon dollar, Türkiyəyə 50,6 milyon dollar, İsveçrə 40,6 milyon dollar, Gürcüstan 28,8 milyon dollar, Ukrayna isə 24,1 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.

Məlum olduğu kimi, qeyri-neft-qaz sektorunun inkişafı üçün dövlət tərəfindən sənaye zonaları, parklar və aqroparklar yaradılıb. Bu zonalarda fəaliyyət göstərən müəssisələr vergi və gömrük güzəştlərindən yararlanaraq məhsullarını xarici bazarlara çıxarır. Kənd təsərrüfatında ixracın artırılması üçün yeni əkin sahələri və emal müəssisələri yaradılır, istehsalçılara subsidiyalar, güzəştli kreditlər və texniki dəstək təqdim olunur.

Yeri gəlmişkən, logistika infrastrukturunun yenilənməsi də ixracı sürətləndirir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, yük terminal və anbar sistemləri məhsulları bazarlara çatdırır. Xarici bazarlara çıxış üçün ixrac missiyaları, beynəlxalq sərgilər, ticarət nümayəndəlikləri və AZPROMO, "Azexport.az" kimi qurumlar sahibkarlara dəstək göstərir. Həmçinin emal sənayesində, xüsusilə qida, kimya və metallurgiya sahələrində layihələr həyata keçirilir. "Digital Trade Hub" platforması isə ixrac əməliyyatlarının rəqəmsal və sürətli icrasına imkan yaradır.

Bununla belə, bir sıra ekspertlər qeyri-neft-qaz sektorunun bugünkü vəziyyətinin heç də ürəkaçan olmadığını deyir. Mövzu ilə bağlı **iqtisadçı ekspert Xalid Kərimli** XQ-yə bildirib ki, arzuolunan odur ki, artım daha çox və sürətli olsun.

– Amma reallıq var, mövcud vəziyyət var. Burada əsas məqam nədir? Rəqəmi 3 milyard dollar olsa da, amma bu hələ də çox azdır. Azərbaycanda qeyri-neft ixracının ölkənin ümumi ixrac gəlirlərindəki payı 12-13 faiz, maksimum 15 faiz civarını keçmir. Niyə? Bu 15 faizə ona görə yüksəlir ki, neft ixracı azalır. Problem də bundadır. Neft ixracı azaldığı üçün qeyri-neft ixracının payı nisbətən daha yaxşı görünür. Əvvəllər bu göstərici 10 faiz ətrafında idi. Yəni rəqəmlər üç milyard dollar səviyyəsində olsa da, artım müşahidə olunsa da, hələ də ümumi həcmdə çox kiçikdir və Azərbaycanın real potensialından, imkanlarından xeyli aşağıdır.

Ətrafımızdakı bəzi ölkələr bu rəqəmdən daha çox ixrac edir. Onlarda enerji resursları yoxdur, yəni söhbət məhz qeyri-enerji resurslarının – qeyri-neft ixracının həcmlərindən gedir. Bizim isə onlardan üç dəfə böyük potensialımız, daha geniş resurslarımız və iqtisadiyyatı dəstəkləmək imkanlarımız olduğu halda, hələ də onlardan az ixrac edirik. İxracın strukturuna baxanda görürük ki, ümumi artım 6-10 faiz civarındadır. Amma dövlət şirkətlərinin ixrac artımı 15 faiz təşkil edir. Bu isə onu göstərir ki, ixracın əsas hissəsi yenə də dövlət müəssisələrinin payına düşür. Özəl sektorun bu artımda rolu o qədər də əhəmiyyətli deyil. Halbuki, qeyri-dövlət, yəni özəl sektorun göstəriciləri və aktiv iştirakı bizim üçün çox vacibdir. Yəni işlər görülür, artım var, pozitiv dinamika mövcuddur, amma bu artım hələ də potensialımızdan aşağıdır və daha böyük artım imkanları qalmaqdadır.

***Musa BAĞIRLI***
***XQ***

# Bank + Sığorta = Yeni imkanlar

## *Azərbaycanın "Bancassurance" hədəfləri*

**Son illər Azərbaycanda bank və sığorta sektorlarının bir-birinə inteqrasiyası ictimaiyyət arasında gündəmə gəlir. Ölkəmizdə sığorta inklüzivliyinin genişləndirilməsi vacib prioritetlərdən birinə çevrilib. Azərbaycan Mərkəzi Bankı (AMB) da bu istiqamətdə açıq addımlar atır.**




Yeri gəlmişkən, Amerika Ticarət Palatasının ("AmCham") təşkilatçılığı ilə Bakıda keçirilən "Bank və sığorta sektorlarının inteqrasiyası" mövzusunda tədbir keçirildi. Əsas mövzulardan biri də Azərbaycanda bank sektorunun imkanlarından istifadə edərək sığorta inklüzivliyinin artırılmasının əsas hədəflərdən biri olması idi.

2023-cü ildə dünyada "Bancassurance" (bankdan asılı sığorta) bazarının ümumi məbləği 1,4 trilyon ABŞ dolları olub, 2030-cu ilə qədər isə 2 trilyon ABŞ dollarını ötəcəyi gözlənilir: "Bir sıra ölkələrdə "Bancassurance" daha sürətlə inkişaf edən seqmentdir. Bu seqmentin potensialından istifadə edilməsi bizim strateji hədəfimizdir. Nəzərə alaq ki, ölkəmizdə bank əsaslı maliyyə sistemi mövcuddur. Banklar dominant oyunçulardır. Maliyyə sektorunun 94 faizi bank sektorundan ibarətdir.

Məlumdur ki, banklar artıq geniş müştəri bazasına sahibdirlər, onların filial şəbəkəsi, ödəniş və kredit infrastrukturu var, banklarla sığorta şirkətləri arasındakı əməkdaşlıq sığortanın yayılması, daha əlverişli şərtlərlə təklif edilməsi və geniş ictimai təmsillik baxımından "qrup effekti" yarada bilər.

Başqa sözlə, sığorta xidmətlərini "sadə bank əməliyyatlarının" bir hissəsinə çevirmək – sığorta inklüzivliyini, yəni insanların asanlıqla sığortaya çıxışını əhəmiyyətli dərəcədə artırma potensialı daşıyır. Azərbaycanda bu yanaşma getdikcə daha ciddi müzakirə olunur. Bank sektorunun imkanlarından istifadə edərək sığorta inklüzivliyini artırmaq əsas hədəflərdən biridir.

Buna paralel olaraq, ölkənin sığorta bazarı da inkişaf tempini sürətləndirib. Məsələn, son illərdə sığorta xidmətləri penetrasiyasında artım qeydə alınıb – 2021-ci ildə 16 faiz, 2022-də 18 faiz, 2023-də isə 26 faiz artım olmuşdur. Bu da göstərir ki, ictimai tələbat və maliyyə savadlılığı üzrə boşluq azalır – və bank-sığorta inteqrasiyası bu boşluğu doldurmaq üçün münbit zəmin təmin edə bilər. AMB-nin 2024-2026-cı illər üçün təsdiq olunmuş "Maliyyə sektorunun inkişaf strategiyası"nda da bu istiqamət – sığorta, bank və digər maliyyə xidmətlərinin daha sıx inteqrasiyası – prioritetlərdəndir.

"Bancassurance" Azərbaycanda həm də çağırış deməkdir. Sığorta şirkətləri və banklar arasında texniki, inzibatçı və əməliyyat koordinasiyası tələb olunur. Ənənəvi sığorta vasitəçilərindən fərqli olaraq, "bancassurance "modelində banka daxil olmuş müştəriyə sığorta satışı edilməlidir. Bu, həm bank filiallarının, həm də sığorta şirkətlərinin müştəri ilə münasibətləri yenidən qurmasını tələb edir.

Digər tərəfdən, bir sıra vətəndaşlar üçün sığorta hələ lüks və ya "gözlənilməz hadisələrə hazırlaşmaq" kimi görünür. "Bancassurance" bu mifik görünüşü azalda bilər – amma bunun üçün bank filiallarında, kommunikasiya kampaniyalarında, maarifləndirmədə ciddi iş lazımdır. Hüquqi və normativ baza da bu işdən əsas prinsiplərdən hesab olunur. AMB-nin strateji planı çərçivəsində "açıq sığortaçılıq" kimi modelləri üçün normativ baza hazırlanması nəzərdə tutulur.

Azərbaycanda sığorta inklüzivliyinin artması bir neçə baxımdan əhəmiyyət kəsb edir. Risklərin yumşaldılması, maliyyə dayanıqlılığı. Yəni insanlar və bizneslər kredit götürərkən, əmlak aldıqda və ya investisiya edərkən sığorta sistemi vasitəsilə özlərini gözlənilməz zərərlərdən qoruyacaq. Bu, makroiqtisadi sabitliyə töhfə verə bilər. Ümumiyyətlə, "Bancassurance" bank xidmətləri ilə birlikdə sığorta məhsullarını gündəlik maliyyə portfelinə daxil edəcək. Bu da vətəndaşların maliyyəni planlaşdırma vərdişini və məsuliyyət hissini gücləndirə bilər. Sığorta bazarının böyüməsi, investisiya cəlbi və dayanıqlı maliyyə sistemi sığorta sektoru böyüdükcə kapital bazarı, risk idarəçiliyi və investisiya imkanları da genişlənə bilər. Bu da bankların və sığorta şirkətlərinin daha dayanıqlı olmasına kömək edər.

"Açıq sığortaçılıq" və "sığorta xidməti kimi" modellərinin qanunvericiliklə dəstəklənməsi və AMB-nin 2024-2026-cı illər strategiyası bu istiqamətdədir. Bügünkü Azərbaycanda "bank + sığorta" inteqrasiyası sadəcə yeni bir kommersiya modelindən daha çox, maliyyə inklüzivliyi və sosial rifah üçün mühüm şansdır. Qlobal təcrübə göstərir ki, "Bancassurance" uğurlu olduqda, milyonlarla insan üçün sığorta "elit xidmət" yox, gündəlik maliyyə planının bir hissəsinə çevrilir.

AMB-nin və sığorta assosiasiyaları 3-cü sektorun nümayəndələrinin bu istiqamətdə açıqlamaları, eyni zamanda, rəqəmlərdə sığorta bazarının artım tempi – hamısı onu göstərir ki, Azərbaycanda sığorta inklüzivliyini artırmaq üçün "Bancassurance" modelinin genişləndirilməsi real fürsətdir. Əgər bu model uğurla qurularsa, bank sektorunun gücü, sığorta şirkətlərinin peşəkarlığı və vətəndaşların maliyyə savadlılığı birlikdə ölkədə sığorta mədəniyyətini dərinləşdirə bilər, risklər daha adekvat bölüşdürülə, maliyyə stabilliyi güclənə bilər.

***Nurlа ABDALOV***
***XQ***

**Azərbaycan–Çin münasibətləri son illərdə enerji, nəqliyyat, ticarət və investisiya xəttində genişlənməklə yanaşı, artıq maliyyə sahəsinin ən strateji istiqamətlərindən biri olan kapital bazarlarında da yeni əməkdaşlıq mərhələsinə qədəm qoyur. Bu, qlobal miqyasda kapitalın daha rahat hərəkət etdiyi, rəqəmsal maliyyə alətlərinin sürətlə yayıldığı və investor davranışlarının dəyişdiyi bir dövrdə xüsusilə əhəmiyyətlidir.**

# Azərbaycan–Çin yatırım əməkdaşlığı genişlənir

Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımovun Çin Xalq Respublikasına işgüzar səfəri çərçivəsində bu ölkənin Kapital Bazarlarının Tənzimlənməsi Komissiyasının sədri Vu Qinq ilə keçirilən görüş də məhz bu istiqamətdə atılan vacib addımlar sırasında yer alır. Taleh Kazımov sosial şəbəkədə paylaşdığı məlumatda qeyd edib ki, tərəflər kapital bazarlarının hazırkı vəziyyəti, normativ dəyişikliklər, tətbiq olunan innovativ alətlər, investorların müdafiəsi və texnoloji tendensiyalar barədə geniş fikir mübadiləsi aparıblar. Bu görüş, iki ölkənin maliyyə sektorlarının yaxın illərdə daha sıx əməkdaşlığa başlayacağına dair ciddi mesajlar verir.



Çin dünyanın ən sürətlə böyüyən kapital bazarlarından birinə malikdir. Təkcə Şanxay və Şençjen birjalarının birgə bazar dəyəri trilyonlarla dollarla ölçülür, "STAR Market" kimi texnoloji səhm platformaları isə Çinin innovasiya ekosistemində əsas lokomotivi formalaşdırır. Müasir tənzimləmə mexanizmləri, fərdi investorların aktiv iştirakı və dövlət tərəfindən investorların müdafiəsi sahəsində həyata keçirilən sistematik islahatlar Çin modelini digər ölkələr üçün cəlbedici edir.

Azərbaycan isə son illərdə kapital bazarlarının inkişafını maliyyə sisteminin əsas prioritetlərindən birinə çevirib. Tənzimləyici çərçivənin yenilənməsi, korporativ istiqrazlar bazarında artım, rəqəmsal birja mexanizmlərinin genişlənməsi, investorların maarifləndirilməsi və yeni maliyyə alətlərinin tətbiqi sahəsində ardıcıl işlər görülür. Bu kontekstdə Çinin təcrübəsi Azərbaycan üçün həm texnoloji, həm də institusional baxımdan mühüm əhəmiyyət daşıyır.

Məlumdur ki, Azərbaycan–Çin ticarət dövriyyəsi dinamik artım nümayiş etdirir. 2024-cü ildə iki ölkə arasında xarici ticarət dövriyyəsi 20,7 faiz artaraq 3.7 milyard ABŞ dolları təşkil edib. Habelə 2024-cü ilin yanvar-sentyabr aylarının rəsmi statistikasına əsasən, Azərbaycan ilə Çin arasında xarici birbaşa investisiya dövriyyəsi 85,9 faiz artaraq 14 milyon ABŞ dolları səviyyəsinə çatıb. Çin investorları tərəfindən qeyd edilən dövrdə Azərbaycana yönəldilən birbaşa xarici investisiyanın həcmi ötən ilə nəzərən 92,8 faiz artaraq 11,4 milyon ABŞ dolları təşkil edib. Bütün bu göstəricilər Azərbaycan ilə Çin arasında investisiya və ticari əlaqələrin yüksəlməsinin göstəricisidir. 2025-ci ilin yanvar–iyul aylarında iki ölkə arasında ticarət dövriyyəsi 2,5 milyard ABŞ dollarına çatıb. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 26 faiz artım deməkdir. Çin şirkətləri artıq sənaye, yaşıl enerji, rəqəmsal iqtisadiyyat, nəqliyyat və yüksək texnologiyalar kimi sahələrdə birgə layihələr həyata keçirirlər.

Son illərdə Azərbaycanla Çin arasında investisiya əməkdaşlığı nəzərəçarpacaq nəticələr verir. 2024-cü ilin yanvarına olan göstəricilərə əsasən, Çinin 1995-ci ildən bəri ölkəmizə yatırdığı birbaşa investisiyaların həcmi 920 milyon dollara yüksəlib. Diqqətçəkən məqamlardan biri də Azərbaycanın Çinə qoyduğu sərmayələrin bu rəqəmdən təxminən iki dəfə çox olmasıdır.

İki ölkə arasında iqtisadi əməkdaşlıq artıq uzun müddətdir ki, yüksələn xətt üzrə inkişaf edir. Çin Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir, "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində ölkəmiz Orta Dəhlizin əsas qovşaqlarından birinə çevrilir. Ələt Azad İqtisadi Zonasına Çin şirkətlərinin yatırdığı maraq, bərpaolunan enerji sahəsində Datang, CNPC və digər iri korporasiyalarla əməkdaşlıq, kənd təsərrüfatı və texnologiya sektorlarında genişlənən əlaqələr qarşıdakı illərdə maliyyə platformalarının da inteqrasiyasını zəruri edir.

Kapital bazarlarında əməkdaşlıq isə bu iqtisadi xəttin maliyyə dayağını formalaşdırmaq üçün ideal vasitədir. Azərbaycan şirkətlərinin Çin bazarlarında investor cəlb etməsi, Çin korporasiyalarının Azərbaycan istiqraz bazarında iştirak etməsi, birgə fondların yaradılması və texnoloji platformaların inteqrasiyası münasibətləri tamamilə yeni mərhələyə daşıya bilər.

Görüş zamanı müzakirə olunan əsas mövzulardan biri də fərdi investorların kapital bazarlarına daha geniş cəlb olunması və onların sığortalanması idi. Bu istiqamətdə Çin kifayət qədər geniş sistemə malikdir – risklərin bölüşdürülməsi, investorların hüquqlarının müdafiəsi, məlumatlılığın artırılması və rəqəmsal əməliyyatların təhlükəsizliyi sahəsində əldə etdiyi təcrübə Azərbaycanda tətbiq edilə bilər.

Digər mühüm məqam isə rəqəmsal maliyyə alətləridir. Çin dünyanın ən inkişaf etmiş fintech ekosistemlərindən birinə sahibdir: süni intellektlə təchiz edilmiş investisiya platformaları, blokçeyn əsaslı aktiv dövriyyəsi və mobil maliyyə xidmətləri burada geniş yayılıb. Azərbaycanın "rəqəmsal maliyyə" kursu da məhz bu innovativ alətlərin yerli bazara gətirilməsi üçün böyük imkanlar açır.

AMB rəhbərinin Çinə səfəri Kapital bazarlarında əməkdaşlıq, qarşılıqlı investisiyalara, maliyyə texnologiyalarının transferinə və ölkələrin iqtisadi potensialına yeni nəfəs gətirə bilər. Bu isə həm qlobal dəyişikliklərə adaptasiya, həm də Azərbaycan iqtisadiyyatının dayanıqlığının gücləndirilməsi baxımından mühüm addımdır.

***XQ***

# "Azərpambıq" dünya bazarında

**Bu ilin yanvar-oktyabr aylarında "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC 33,3 milyon ABŞ dolları dəyərində məhsul ixrac edib.**

Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın noyabr sayında bildirilir. Məlumata görə, bu, ötən ilin 10 ayı ilə müqayisədə 28,7 faiz azdır.

Xatırladaq ki, 10 ay ərzində Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz artaraq 3 milyard ABŞ dolları təşkil edib.

Qeyd edək ki, "Azərpambıq" 2018-ci ildə yaradılıb. Cəmiyyət pambıq istehsalı, tədarükü, emalı və emaldan alınan məhsulların (pambıq mahlıcı, texniki çiyid, pambıq yağı, köməkçi məhsullar, çiyid cecəsi və s.) satışı ilə məşğul olur. Cəmiyyətin tərkibində 6 pambıq emalı zavodu (Şirvan, Saatlı, Ağcabədi, Beyləqan, Bərdə, Biləsuvar), 7 pambıq istehsalı və tədarükü məntəqəsi (Sabirabad, İmişli, Salyan, Ağdam, Tərtər, Goranboy və Ucar), Biləsuvar rayonunda yerləşən Təcrübə-Sınaq Təsərrüfatı fəaliyyət göstərir. Şirvan Pambıq Emalı Zavodunda texniki çiyiddən yağ emal edən sex mövcuddur.

***XQ***

# Köhnə Bakı necə yeniləşir, müasirləşir?

## *Bu ağrılı problemin görünən və görünməyən tərəfləri*



**Azərbaycanda əhalinin məskunlaşma dinamikasının dəyişməsi və urbanizasiya prosesinin daha da intensivləşməsi şəhərsalma siyasətini dövlətin strateji prioritetlərindən birinə çevirib. Bu, XX əsrin ikinci yarısında inşa edilən, hazırda isə fiziki və mənəvi cəhətdən köhnələn çoxmərtəbəli yaşayış binalarının sökülərək yeniləri ilə əvəzlənməsini şərtləndirib.**

Nazirlər Kabinetinin 2024-cü il dekabr ayının 30-da təsdiqlədiyi "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nda köhnə binaların sökülərək yerində yenilərinin tikilməsi qarşıya əsas vəzifələrdən biri kimi qoyulub və bu dövrdə paytaxtdakı köhnəlmiş mənzil fondunun ümumi sahəsinin iki dəfədən çox azaldılması nəzərdə tutulub.

Xatırladaq ki, bu gün Bakıda və ölkəmizin digər iri şəhərlərində sovet dövründə ucaldılan yüzlərlə çoxmərtəbəli bina ya istismar müddətini başa vurub, ya da təhlükəsizlik standartlarına uyğun gəlmir. Bu tikililər həm inşaat texnologiyası, həm mühəndis-kommunikasiya infrastrukturu, həm də enerji səmərəliliyi baxımından müasir tələblərdən geri qalır.

Mövcud yaşayış fondunda qeydə alınan yüzlərlə köhnə bina texniki cəhətdən narahatlıq doğurmaqla yanaşı, həm də hüquqi normalar, şəhər planlaması, iqtisadi səmərəlilik və sakinlərin sosial şəraiti kimi bir-birinə bağlı çoxsaylı amilləri əhatə edir. Ona görə də bu məsələ təkcə söküntü və tikinti baxımından yox, eyni zamanda, kompleks inkişaf modelinin reallaşdırılması yönündə diqqət çəkir.

Paytaxtın, eləcə də respublikamızın digər şəhərlərinin mənzil fondu, əsasən, 1960-1990-cı illərdə inşa edilən "xruşovka", "leninqradka", "mexanika", "eksperimental", "9 mərtəbə", "12 mərtəbə" və digər tipli binalardan ibarətdir. Bu tikililərin istismar müddəti orta hesabla 40-60 il arasında müəyyənləşdirildiyindən onların çoxunun resursları artıq tükənmiş vəziyyətdədir.

Mütəxəssislərin fikrincə, hazırda həmin binalarda çox sayda problemlər üst-üstə yığılıb. Bu tikililərdə beton və armaturlar korroziyaya uğrayıb. Daşıyıcı konstruksiyalar zəifləyib. Fasadlar təhlükəsizliyini itirib. Su və kanalizasiya xətləri köhnəlib. Liftlər yararsız hala düşüb. Damların çoxunda sızmanın qarşısını almaq çətinləşib. Bu problemlər isə müxtəlif vaxtlarda bəzi binalarda baş verən lokal çökmələr, uçqun halları və qəzalar zamanı birbaşa həyat təhlükəsizliyinə yönələn hadisələrlə özünü göstərib.

Onu da qeyd edək ki, Bakı şəhərində bu cür binaların söküntü və tikinti prosesləri zamanı bəzən lənglik nəzərə çarpır. Yaranmış vəziyyətin səbəbləri barədə danışan ekspertlər qeyd edirlər ki, bu məsələdə hüquqi mexanizmlərin qeyri-mükəmməlliyi, sakinlərin razılıq mexanizminin, kompensasiya və ya yeni mənzillərin təqdim olunması qaydalarının tam sistemləşdirilməməsi daha çox narahatlıq doğurur. Bəzi hallarda isə binaların sökülməsi üçün 100 faiz razılıq tələb edilməsi söküntü və tikinti proseslərini illərlə uzadır.

Ekspertlər müşahidələrə əsaslanıb bildirirlər ki, prosesdə ən ciddi institusional boşluqlardan biri məhz dövlət qurumlarının kommunikasiya rolunun zəif olmasıdır. Əslində, binanın qəzalı hesab edilməsi, söküntü ilə bağlı sərəncamın verilməsi, layihənin təsdiqlənməsi kimi bütün mərhələlər məhz dövlət strukturları tərəfindən həyata keçirilir. Lakin sakinlərlə danışıqları tikinti şirkətləri aparır. Bu da vətəndaşın düşüncəsində prosesin legitimliyini azaldır. Səmərəli model isə belə olmalıdır: aidiyyəti dövlət qurumunun nümayəndəsi sakinlərlə bilavasitə görüşməli, binanın sökülməsi ilə bağlı qərarın dövlət səviyyəsində qəbul edildiyini rəsmi şəkildə bildirməli və ən önəmlisi, yeni binanın təhvil tarixi ilə bağlı dövlət zəmanəti verməlidir. Belə bir mexanizm həm sosial narazılıqları minimuma endirər, həm də söküntü-tikinti prosesini sürətləndirər.

Digər tərəfdən, köhnə binaların sökülməsi zamanı ortaya çıxan problemlərdən biri də binadakı sakinlərin yalnız bir hissəsinin köçməyə razılıq verməsi, digərinin isə imtina etməsidir. Bu hal tikinti şirkətlərini çətin vəziyyətdə qoyur: bir tərəfdən artıq razılıq verib kirayəyə köçən sakinlərə ödəniş edilir, digər tərəfdən isə söküntü mümkün olmadığından şirkət öz öhdəliklərini vaxtında yerinə yetirə bilmir. Beləliklə, illərlə davam edən gecikmələr yaranır və vətəndaşlar faktiki olaraq sosial-psixoloji təzyiq altında qalır.

Beləliklə, çıxış yolu söküntü prosesinin institusional əsaslarının gücləndirilməsi, hüquqi mexanizmlərin aydınlaşdırılması və dövlətin bu məsələdə daha fəal rol almasıdır. Əgər köhnə və qəzalı binaların yenilənməsi dövlət siyasətinin prioritet istiqamətidirsə, bu zaman proses təkcə bazar mexanizmləri ilə həyata keçirilə bilməz. Dövlət həm prosesi koordinasiya etməli, həm də sakinlərə hüquqi-sosial təminat verməlidir. Bununla yanaşı, köhnə mənzilin əvəzində hansı ölçüdə yenisinin veriləcəyi ilə bağlı vahid meyarların müəyyənləşdirilməsi də zəruridir. Şəffaf və sabit meyarlar həm vətəndaş-məmur, həm də vətəndaş-şirkət münasibətlərində inamı artırar.

Ekspertlərin sözlərinə görə, bu sahədə investor üçün iqtisadi cəlbedicilik də mühüm şərtlərdən biridir. Lakin sökülən köhnə binanın yerində yenisini ucaltmaq bəzən tikinti şirkəti üçün sərfəli hesab edilmir. Çünki torpaq sahəsi kiçik olur, hündürlük məhdudiyyətinin mövcudluğu qarşıya əsas şərtlərdən biri kimi qoyulur, əlavə sosial obyektlər üçün isə ərazi ayrılmır, sakinlərə yeni mənzillərin verilməsi də əlavə xərclər yaradır. Nəticədə bu layihələrdə dövlət-özəl tərəfdaşlığı tələb olunur.

Başqa bir çətinlik də şəhərsalma məhdudiyyətləri ilə bağlıdır. Belə ki, fiziki-mənəvi ömrünü başa vuran çoxmərtəbəli binaların yerləşdiyi köhnə yaşayış massivlərində küçələr dar, dayanacaq yerləri az, mühəndis-kommunikasiya infrastrukturu yararsız halda olur. Təzə tikililər üçün bu infrastrukturun yenidən qurulmasına isə böyük maliyyə tələb edilir. Bir çox sakin isə köhnə binanın strateji məkanda yerləşməsi səbəbindən mümkün yeni mənzillərin eyni coğrafiyada olmayacağı düşüncəsi ilə narahatlıq keçirir. Söküntü zamanı müvəqqəti köçürülmə məsələləri də bir sıra hallarda narazılıq doğurur.

Burada bir məqama da diqqət yetirmək istərdik. Bu, köhnə hündürmərtəbəli binaların yerində yenilərinin Azərbaycana daha uyğun hansı model əsasında inşası ilə bağlıdır. Yeri gəlmişkən, dünyada köhnə yaşayış fondunun təzələnməsi üçün bir neçə model mövcuddur:

*– binanın yerində yenisinin tikilməsi, sakinlərin ya kompensasiya, ya da yeni mənzil alması (Türkiyə təcrübəsi);*

*– məhəllənin kompleks yenilənməsi, yəni təkcə bina deyil, bütün mikrorayon vahid layihə üzrə tikilir (Cənubi Koreya modeli);*

*– dövlət-özəl tərəfdaşlığı – infrastrukturun qurulmasını dövlət, tikintini isə özəl şirkət həyata keçirir (Avropa modeli);*

*– nəhayət, sosial adaptasiya paketi ilə yenilənmə – söküntü zamanı sakinlərə kirayə haqqı subsidiyası, müvəqqəti mənzillər, sosial xidmət dəstəyi təqdim olunur (Yaponiya modeli).*

Azərbaycan üçün ən real yanaşma kompleks yenilənmə + dövlət – özəl tərəfdaşlığı modelinin hibrid variantı hesab olunur.

### Sakinlərin hüquqları və əsas narahatlıqlar

Köhnə binaların sökülərək yenilənməsi prosesi zamanı ən çox müzakirəyə çevrilən məsələ sakinlərin hüquqlarının qorunması, eyni zamanda, onları narahat edən əsas sualların cavabsız qalması ilə bağlıdır. Məsələn, bu prosesə cəlb edilən hər bir vətəndaş yeni mənzilin sahəsinin köhnəsinə uyğun olub-olmaması, eyni ünvanda, yoxsa başqa ərazidə məskunlaşması, müvəqqəti kirayə haqlarının kim tərəfindən ödənilməsi, evə sahiblik hüquqlarının tam şəkildə qorunması, layihə bitmədiyi təqdirdə, onların taleyinin qaranlıq qalması kimi narahatlıqlar yaşayır. Əslində, bu narahatlıqlar tamamilə əsaslıdır və məhz buna görə dövlət tərəfindən daha aydın, hüquqi cəhətdən mükəmməl çərçivənin yaradılması zəruridir.

İstismar müddətini başa vuran çoxmərtəbəli binaların sökülməsi ilə paytaxtın mühəndis-kommunikasiya şəbəkəsinin yüklənməsi azalır, təhlükəsizlik riski minimuma enir, arxitekturası modernləşir, estetik görünüşü yaxşılaşır, nəqliyyat və dayanacaq məsələləri tənzimlənir. Eyni zamanda, sakinlərin yeni, daha geniş və rahat mənzil təminatı reallaşır, enerji xərcləri azalır, təhlükəsiz yaşayış mühiti formalaşır.

Müəyyən çətinliklərə baxmayaraq, ölkəmizdə şəhərsalma siyasətinin uğurla həyata keçirilməsi nəticəsində köhnə yaşayış fondunun yenilənməsi artıq yeni mərhələsini yaşayır. Şəhərlər daha təhlükəsiz müasir məkanlara çevrilir, bu proses ardıcıl və kompleks şəkildə gerçəkləşdirilir. Bu isə təkcə tikinti sektorunun inkişafı deyil, həm də sosial rifahın yüksəldilməsi, əhalinin təhlükəsizliyinin təmin edilməsi və şəhər mühitinin modernləşdirilməsi deməkdir.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Elnur FƏRZƏLİYEV,**
**əmlak məsələləri üzrə ekspert**

**İstismar müddəti başa çatan, xüsusilə qəzalı vəziyyətdə olan köhnə çoxmənzilli yaşayış binaları və fərdi həyat evlərindən ibarət yaşayış massivləri 2016-cı ildən başlayaraq mərhələli şəkildə sökülərək, yeniləri ilə əvəzlənir, yaxud həmin ərazilərdə park tipli komplekslər salınır.**

Sökülən binaların böyük əksəriyyətinin yaşı 70-80 ili ötür. Onların istismar müddəti maksimum 70 il qədərdir. Köhnə alman layihəli, "xruşşovka", eləcə də 2 mərtəbədən ibarət olan yaşayış binalarında yaşamaq insan sağlamlığı üçün təhlükəlidir. Hazırda paytaxt ərazisində 11 minə yaxın istismar müddətini bitirmiş qəzalı bina var ki, onlar ən qısa müddətdə sökülməlidir.

Çoxmərtəbəli binaların sökülməsi isə şirkətlərə sərf etmir. Köhnə çoxmənzilli binalara 10 mərtəbəyə qədər olanlar aiddir. 1980-cı illərdən sonra inşa edilən binalar isə 10 mərtəbəli binalardır. Onların istismar müddətinin bitməsinə hələ var. Fikrimcə, həmin binaların sökülməsi daha uzun müddət tələb edir. Ona görə ki, bu proses özəl şirkətlər tərəfindən icra edildiyi üçün daha çox azmərtəbəli binalara üstünlük verilir. Səbəb isə orada yaşayan sakinləri tikdikləri evlərlə təmin etmək və çəkdikləri xərcləri satdıqları mənzillərdən çıxarmaqdır.

Bütün köhnə yaşayış binalarında müayinələr aparılmalı, qəzalı vəziyyətdə olanlar müəyyənləşdirilməli, onların sökülməsinə start verilməlidir. Əgər bu, qısa müddətdə reallaşdırmaq mümkün deyilsə, həmin tikililərdə gələcəkdə hansısa qəza nəticəsində dağıntı, insan təlafatı baş verməməsi üçün onlarda bərpa-yenidənqurma işləri aparılmalıdır.

Qeyd edim ki, Bakıda istismar müddətini başa vurmuş binaların sökülməsi və onların yerində müasir yaşayış komplekslərinin inşası uzun illərdir ki, paytaxtın yenilənmə siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib. 2016-cı ildə Nazirlər Kabinetinin 86 saylı sərəncamı ilə start verilən bu proqram çərçivəsində onlarla köhnə bina yeniləri ilə əvəzlənib, minlərlə sakin yeni mənzillərə köçürülüb. Bununla belə, proses zamanla özünü doğrultsa da, son illər söküntü və tikinti şirkətləri ilə vətəndaşlar arasında yaranan narazılıqların artması sistemli problemləri üzə çıxarıb.

Ən böyük çətinliklərdən biri Bakıdakı köhnə tikililərin böyük hissəsinin artıq qəzalı kateqoriyaya yaxınlaşmasıdır. Şəhərin mərkəzi bölgələrində, xüsusilə Yasamal və "Papanin" kimi tanınan qədim yaşayış massivlərində istismar müddəti bitən həyət evləri təkcə təhlükəsizlik baxımından deyil, həm də paytaxtın ümumi estetik görünüşü üçün ciddi problemlər yaradır. Bununla belə, söküntünün dayanmasının əsas səbəbi bu binaların yerləşdiyi ərazilərin çox hissəsində geniş həyətlərin olmamasıdır. Tikinti şirkətləri iqtisadi baxımdan yalnız həyətyanı sahəsi geniş olan yerlərdə yenidənqurma işlərini sərfəli hesab etdiklərindən, digər köhnə yaşayış massivləri uzun müddət diqqətdən kənarda qalıb.

Yeri gəlmişkən, köhnə, istismar müddəti başa çatan binaların sökülməsi zamanı üzləşilən problemlər təkcə hüquqi məhdudiyyətlərlə bağlı deyil. Prosesin ən zəif həlqəsi tikinti şirkətləri ilə sakinlər arasında yaranan etimad boşluğudur. Vətəndaşların böyük qismi şirkətlərin verdiyi vədlərə inanmadığı üçün köçməyə hazır olmur və proses, necə deyərlər, dalana dirənir. Burada sakinlərin narahatlığı qismən əsaslıdır, çünki bir çox hallarda tikinti şirkətləri özlərinin topladıqları sənədləri, Fövqəladə Hallar Nazirliyinin rəylərini və tikintiyə icazələri sakinlərlə bölüşmürlər. Nəticədə vətəndaş tikinti prosesinin, necə deyərlər, hüquqi sağlamlığına əmin olmur və bu məsələdə risk görür.

# Binəqədidəki "elektrik faciəsi" Xırdalanda da təkrarlana bilər

## *İsi Məlikzadə küçəsinin başqa problemləri də var*

**Bu küçə uzun müddət ulu şairimiz Nizami Gəncəvinin adını daşıyıb. Sonra görüblər ki, bu işıqlandırılmayan (bir kilometrdən də uzun olan küçədə bircə dənə də olsun küçə işığı yoxdur), yayda suyu, qışda qazı tez-tez kəsilən, elektrik enerjisindəki fasilələrin sayı-hesabı bilinməyən, hər il beş-altı yerdə – asfaltın altında su xətləri partlayan küçə dahi Nizaminin adına layiq deyil. Ona görə də beş-altı il əvvəl böyük şairin adını görkəmli yazıçımızın adı ilə dəyişiblər. İndi küçə İsi Məlikzadənin adını daşıyır.**



Beş-altı il qabaq burada rahat yol var idi. İndi küçənin 14–15 yerində asfalt parça–parça edilib. Daha doğrusu, yeraltı su kəmərlərində dövri olaraq yaranan problemləri aradan qaldırmaq üçün (sakinlərin həftələrlə davam edən müraciətlərindən sonra) traktorla asfaltı qazır, metal boruya taxta "çüy" – paz vuraraq çıxıb gedirlər. İndi küçəmizdə yüngül maşınların hərəkəti ağır problem olub.

Güman edirik ki, bütün bunlara dözmək olar. Hər necə olsa da, faciəyə, insan ölümünə səbəb ola biləcək problemlər deyil. Ancaq küçənin yarıdan çoxunu, üstəlik, çoxsaylı qeyri-yaşayış obyektlərini elektrik enerjisi ilə təmin edən yüksəkgərginlikli xətlərin hələ ötən əsrin əlli-altmışıncı illərində əkilmiş qocaman şam ağaclarının budaqları arasından keçməsi potensial təhlükə mənbəyidir. Sakinlər nə zamansa həmin ağacları budayaraq elektrik xətlərini "azad etmək" istəyiblər. Ekologiya və Təbii Sərvətlər Nazirliyi icazə verməyib. Ancaq beş-on il əvvəl həmin ağacların biri güclü qar yağması nəticəsində aşıb küçənin ortasına düşəndə heç bir nazirlikdən "icazə istəməmişdi". Yeri gəlmişkən, mütəxəssislər ölkəmizdə güclü qar yağacağı barədə xəbərdarlıq edirlər. Odur ki, bir müddət əvvəl Binəqədidə baş vermiş elektrik faciəsi nəticəsində dörd nəfər gənc soydaşımızın həyatını itirməsi İsi Məlikzadə küçəsinin sakinlərinin həyəcanını birə–beş qat artırıb.



Kənd Təsərrüfatı Nazirliyinin nəzdində olan DAİM (Dövlət Aqrar İnkişaf Mərkəzi) adlı müəssisə də bizim küçədədir. Həmin idarənin əməkdaşları da bizimlə eyni problemləri yaşayırlar. Üstəlik, övladımı 11 nömrəli məktəbə avtomobillə gətirən valideynlər yolu elə bağlayırlar ki, körpəsini "kolyaska" ilə gəzdirmək istəyən ana yolu keçə bilmir. Əli zənbilli dükan-bazardan qayıdanlar da həmçinin. Hətta bəzi valideynlər avtomobili "saxlama, durma qadağandır" işarəsinin altında belə saatlarla saxlayırlar.

Bir də görürsən "ərköyün ağsaqqal"-lardan biri maşını məktəbin darvazasına dirəşdirib saxlayır. Nəinki böyüklər, hətta birincilər də həmin aradan güc-bəla ilə keçirlər. Bundan başqa, Xırdalanın əsas nəqliyyat xətlərindən olan Məmməd Əmin Rəsulzadə küçəsindəki hərəkət də tez-tez övladını məktəbə gətirən özündənrazı valideynlərin avtomobili həmin küçədə saxladığına görə iflic olur. Əlavə edək ki, indi sürücülərin çoxu xanımlardır və onlar parkovka məsələsini lazımınca yerinə yetirə bilmədiklərinə görə daha çox problem yaradırlar.

Nə isə, İsi Məlikzadə küçəsinin problemləri nəinki həll edilmir, hətta gündən-günə çoxalır.

***İ.QAÇAYOĞLU,***
***Əməkdar jurnalist***

*Fikrət Sadıxov – 80*

# Diplomatiya, jurnalistika və siyasi analitika

## *Onun ömür yolunda bunların hər birinin öz yeri və izi var*

**Bir zamanlar ölkənin ən prestijli ali məktəbi – Azərbaycan Dövlət Universitetinin (indi Bakı Dövlət Universiteti) nüfuzlu fakültəsi sayılan şərqşünaslığı bitirən, Yaxın Şərq ölkələrində, Azərbaycanın Xarici İşlər Nazirliyində müxtəlif vəzifələrdə diplomat kimi fəaliyyət göstərən Fikrət Sadıxov heç vaxt özünü ərkəsöyün aparmadığını, həyatda qazandıqlarına böyük zəhmət və səbir hesabına nail olduğunu deyir. Hazırda Qərbi Kaspi Universitetinin professoru kimi pedaqoji sahədə çalışan bu sadə və təvazökar insanla 80 illik yubileyi ərəfəsində söhbətimiz onun maraqlı hadisələrlə zəngin diplomat keçmişini, ölkədə və xaricdə üzləşdiyi, yaşadığı olayları yenidən dəyərləndirməsi, dövrə, şəxsiyyətlərə və missiyaya fərqli baxış bucağından yanaşması, eləcə də etiraflar barədədir.**

***– Fikrət müəllim, söhbətimizə Sizi qarşıdan gələn yubileyiniz münasibətilə təbriklə və "maşallah" deməklə başlamaq istəyirik. Xeyli vaxtdır qəzetimizlə əməkdaşlıq edirsiniz. Danışığınız, mühakiməniz, yaddaşınız heç səksən yaşı göstərmir. Bəlkə cavan qalmağınızın sirrini oxucularla bölüşəsiniz?***

– Təbrikə görə sizə və kollektivinizə minnətdarlığımı bildirirəm. Düşünürəm ki, xalqın qəzeti ("Xalq qəzeti" – red.) ilə əməkdaşlığımız bundan sonra da davam edəcək. Cavan qalmağım barədə sualınıza gəldikdə isə, onu deyim ki, bu məsələnin iki tərəfi var: daxili və xarici. İnsanın xarici görkəmi heç də həmişə onun daxilini olduğu kimi əks etdirmir. Hətta deyərdim ki, bir çox hallarda bu tərəflər bir-birinə tərs mütənasib olurlar. Yubileyim ərəfəsində problemdən danışmaq istəməzdim, amma hər halda, deməliyəm ki, yaşla bağlı çoxdan formalaşmış müəyyən kriteriyalar var. Əgər diplomatiyanı özünə məslək seçmisənsə, daim oxumalı, analiz etməli, özünü inkişaf etdirməlisən. Xüsusilə də siyasi analitika ilə məşğulsansa, həmişə formada olmalısan. Ölkədə, bölgədə, dünyada baş verənləri diqqətlə izləyərək, təhlil edərək düzgün nəticə çıxarmağı bacarmalısan. Bir sözlə, beynin daim işləməli, hərəkətdə olmalıdır. Məncə sağlam və dinamik düşüncə tərzi elə cavan qalmağın sütunlarından biridir.

***– Maraqlı cavab oldu. Yetmiş illiyinizdə verdiyiniz müsahibədə deyirdiniz ki, diplomatiya elitar və cəlbedici sahədir, həmişə müəmma və romantizmlə əhatə olunur. Bu peşənin müəmması, romantikası nədən ibarətdir?***

– Ola bilsin ki, bir çoxlarının, ələlxüsus da gənc nəslin təsəvvüründə diplomat peşəsi yalnız maraqlı görüşlər və qəbullar, dəbdəbəli mərasimlər, xaricə səfərlərlə assosiasiya olunur. Əlbəttə, bütün bunların hamısı mümkündür, amma bu, peşənin romantik tərəfidir. Diplomatiya kənardan maraqlı göründüyü qədər də mürəkkəb bir sahədir. Bu sahənin beynəlxalq miqyasda, ən mötəbər müstəvilərdə baş verənlərlə birbaşa bağlılıq amili var. Diplomat peşəkar biliklərindən savayı, geniş dünyagörüşünə, mədəniyyətə və erudisiyaya malik olmalıdır ki, ölkəsini xaricdə layiqincə təmsil etməyi bacarsın. Gənc diplomat karyerasının başlanğıcında dediyimiz bilik və vərdişlərdən bir qədər uzaq məsafədə yerləşə bilər. Fəqət bir müddət sonra həmin gənc bu peşədə romantikadan başqa, quru və acı reallıqların olmasından da xəbər tutur. Məhz reallıqla üzləşəndən sonra o, diplomatiyanın əsl missiyasını, mahiyyətini anlamış olur. Diplomatik fəaliyyətimin başlanğıcı Yaxın Şərq ölkələrində müharibələrin getdiyi dövrə təsadüf edirdi. Əslində, orada vəziyyət Bakıdan göründüyündən qat-qat ağır və mürəkkəb idi. Vətəndaş müharibələri, qanlı toqquşmalar, dövlət çevrilişləri, hakimiyyət dəyişiklikləri... Romantikanın astar üzü sayılacaq belə fors-major hadisələrə hazır olmaq, zamanla öyrəşmək elə də asan deyildi.

Bütün bunlarla yanaşı, bəli, diplomatiya nüfuzlu və prestijli sahədir. Bu peşəni seçən adam hadisələrin gedişindən asılı olaraq, sonradan böyük siyasi proseslərin şahidinə və iştirakçısına, yəni vacib şəxsə çevrilir. Bundan sonra onun atdığı hər bir addım, dediyi istənilən söz ölkəsinin mövqeyi və maraqları kontekstində qəbul olunur. Ona görə diplomatın əsas missiyası təmsilçisi olduğu ölkənin maraqlarını müdafiə etmək, onun reallığını dünyaya çatdırmaqdır. O, bu missiyanı diplomatiyada məqbul sayılan bütün üsullardan yararlanmaqla yerinə yetirməlidir. Təbii ki, iyirmi birinci yüzilliyin diplomatiyası on doqquzuncu əsrin diplomatiyası deyil. Doğrudur, təməli yerindədir, ümumi anlayış və prinsipləri bu gün də qəbul edilir.



**Fikrət Yaqub oğlu Sadıxov 2 dekabr 1945-ci ildə Bakı şəhərində anadan olub. 1963-1968-ci illərdə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsində təhsil alıb. 1966-1968-ci illərdə Azərbaycan Dillər Universitetinin ingilis dili fakültəsində magistr təhsili alıb. 1995-ci ildə the British Council Training Centre - Course, 1998-ci ildə isə Budapeştdə Mərkəzi Avropa Universitetində təhsilini davam etdirib. 1968-1969-cu illərdə Yəmən Ərəb Respublikasında, 1972-1975-ci illərdə Yəmən Xalq Demokratik Respublikasının Adən şəhərində diplomat, 1975- 1985-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində idarə rəisi kimi çalışıb. 1985-1992-ci illərdə Azərbaycan Dövlət İnformasiya Agentliyində baş direktor, 1993-1996-cı illərdə Sosial İdarəetmə və Politologiya İnstitutunda Beynəlxalq münasibətlər fakültəsinin, 1996-1999-cu illərdə Ali Diplomatiya Kollecinin professoru olub. 1996-cı ildən bu günədək Qərbi Kaspi Universitetinin Siyasi elmlər və Beynəlxalq münasibətlər kafedrasında çalışır.**

**Azərbaycan Prezidentinin 2016-cı il 7 noyabr tarixli Sərəncamı ilə "3-cü dərəcəli Vətənə xidmətə görə" ordeni, "Azərbaycan diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)" yubiley medalı ilə təltif edilib. Dövlət başçısının 27 fevral 2021-ci il tarixli Sərəncamı ilə Fikrət Yaqub oğlu Sadıxova Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xidmətlərinə görə Prezidentin fərdi təqaüdü verilib.**



Amma diplomatiya artıq inkişaf etmiş və şaxələnmiş bir sahədir. Bu gün ölkələrarası danışıqlarda diplomatlarla yanaşı, digər sahələrin mütəxəssisləri də iştirak edirlər. Dövlət başçısının xüsusi nümayəndəsini, diplomatik qabiliyyətə malik biznes adamlarını buraya aid etmək olar. Yəni diplomatiya çağdaş dövrün tələblərinə cavab verən əlahiddə sahəyə, peşəyə çevrilib.

***– Azərbaycanın da tərkibində olduğu SSRİ adlı "qırmızı imperiya"nın xarici ölkədəki nümayəndəliyində diplomatik işə cəlb olunmağınız Sizdə hansı hissləri doğurdu?***

– Dünyanın ən böyük dövlətlərindən birinin diplomatik orbitinə cəlb edilməyin nə demək olduğunu yaxşı başa düşürdüm. Amma, eyni zamanda, getdiyim xarici ölkədə öz xalqımı təmsil edəcəyimi də unutmurdum. Ortada heç bir ziddiyyət yoxdur. Sovet diplomatları olan azərbaycanlı kadrlar yeri gələndə, təbii olaraq, öz millətinin mənafeyini də müdafiə edirdi. Xüsusilə, 80-ci illərin yumşalma dövrü buna münbit imkanlar yaradırdı. Xarici ölkələrin siyasi elitaları ilə birgə çalışan zaman həm də Azərbaycanı təbliğ etməyi özümüzə borc bilirdik. Yeri gəlmişkən, onu da deyim ki, həmin dövrdə mərkəzi hakimiyyətdə çalışan, xaricdəki səfirliklərdə, konsulluqlarda işləyən azərbaycanlı diplomatlar az deyildi. Misal üçün, Vəfa Quluzadə uzun müddət SSRİ Xarici İşlər Nazirliyində, sonralar Yaxın Şərqdə, Misirdə, Əlcəzairdə işləmişdi. Müstəqil Azərbaycanın ilk xarici işlər naziri Hüseynağa Sadıqovun adını çəkərdim. Ramiz Abutalıbov UNESCO-nun Parisdəki nümayəndəliyində fəaliyyət göstərirdi. O, ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları barədə Fransa arxivlərində əldə etdiyi məlumatları vətənə göndərmişdi. Məhz həmin materiallar əsasında Bakıda bir neçə kitab çap olundu. Tofiq Ağayevlə SSRİ dönəmində Azərbaycan SSR XİN-də bir yerdə çalışmışıq.

Hələ sovetlər dönəmində diplomatik missiyada bərabər çalışdığımız ermənilərlə mübahisələrimizi də xatırlayıram. Mövzu, əsasən, yalançı "erməni soyqırımı" və Qarabağ olurdu. Onlara təkcə Azərbaycanın deyil, qardaş Türkiyənin də siyasi kursunu, həqiqətləri çatdırmağa çalışır, yalan, saxta tarixləri ilə bağlı mülahizələrini ifşa edirdik.

Azərbaycan SSR XİN-də çalışdığım (1974-1985) illər dünya müstəvisində olduğu kimi, respublikada da mühüm hadisələr baş verirdi. Ötən əsrin 70-80-ci illərini Azərbaycanın yüksəliş dövrü kimi xarakterizə edə bilərik. Yüksəliş və inkişaf bütün sahələri əhatə etmişdi. O zaman respublikaya rəhbərlik edən Heydər Əliyevin siyasi fenomeni Azərbaycanı xarici ölkələr üçün də cəlbedici etmişdi. Azərbaycanda istehsal olunan yüzlərlə məhsul dünya miqyasında onlarla ölkəyə ixrac edilirdi. Bakı mühüm beynəlxalq görüş və konfransların keçirildiyi mərkəzə çevrilmişdi. Respublikaya bir çox ölkələrin dövlət, hökumət başçıları, xarici siyasət idarələrinin rəhbərləri, səfirlər və jurnalistlər səfər etməyə başladılar. Həmin illərdə respublika XİN-in iş həcmi artdı, əməkdaşlar analitik və informasiya xarakterli sənədlərin hazırlanmasına, hökumət nümayəndələri ilə görüşlərin təşkilinə, onları Azərbaycanın regionlarında müşayiət edilməsinə, eləcə də Bakıda keçirilən genişmiqyaslı tədbirlərdə iştiraka aktiv şəkildə cəlb edirdilər. XİN aparatının bir çox əməkdaşları xaricə diplomatik vəzifələrə, qısamüddətli ezamiyyətə göndərildi və hamımıza müvafiq diplomatik rütbələr verildi.

***– Yəməndə işlədiyiniz dövrdə – ötən əsrin 60-cı illərin sonlarında SSRİ Yaxın Şərqdə sosializmi yaymaq siyasəti yürüdürdü. Gəlin açıq danışaq. O zaman xaricə işləməyə, xüsusilə diplomatik missiyaya göndərilənlərin KQB-nin "süzgəc"indən keçmələri şərt idi...***

– Əgər söhbət xüsusi xidmət orqanlarından gedirsə, əlbəttə, hər bir qurumun özünəməxsus funksiya və vəzifələri vardı. Xarici ölkələrdə çalışan diplomatlar da müəyyən fəaliyyətlə məşğul olurdular. Sadəcə olaraq, xüsusi xidmət orqanlarının əməkdaşları aldıqları müvafiq təlimatlar, tapşırıqlar əsasında öz missiyalarını həyata keçirirdilər. Hər qurumun özünə aid fəaliyyət istiqamətləri vardı və bu praktika indi də qüvvədədir. Yəni bu, beynəlxalq təcrübədə qəbul edilmiş normalara uyğun sayılan fəaliyyət növüdür.

***– Xaricdə diplomatik fəaliyyətiniz zamanı maraqlı, yaddaqalan hadisə, yaxud həyatınız və karyeranız üçün risklə üzləşdiyiniz anlar olubmu?***

– İlk dəfə ezam olunduğum Yəmən Ərəb Respublikası vətəndaş müharibəsi atəşində yanırdı. Vəziyyət olduqca gərgin və gözlənilməz idi. Aparıcı dövlətlər, həmişəki kimi, öz aralarındakı münasibətləri digər regionda aydınlaşdırırdılar. Bu dəfə geosiyasi maraqlar Ərəbistan yarımadasının cənubuna yönəlmişdi. Hər an fors-major halla üzləşə bilərdik. Yəmən Xalq Demokratik Respublikasında (YXDR) helikopterdə Səudiyyə Ərəbistanı və Omanla sərhədə getməli olurduq. Bu ərazilərdə hərbi əməliyyatlar müşahidə olunur, qanlı münaqişə gedirdi. Sovet mütəxəssisləri və diplomatları, eləcə də YXDR-in ozamankı başçısı Əli Nasir Məhəmmədin rəhbərliyi ilə münaqişə tərəfləri arasında danışıqlarda iştirak etmək üçün dəfələrlə sərhəd zonasına gedirdik. Avtomat silahlardan açılan atəş səslərinə artıq qulağımız alışmışdı. Yəqin həm də cavanlığımız təhlükənin nə qədər real olduğunu hiss etməyə qoymurdu.

Əsl təhlükə ilə SSRİ-nin Baş Konsulluğununm yerləşdiyi Hodeyda şəhərində qarşılaşdım. Ölkədə gərgin vətəndaş müharibəsi gedirdi. Bizim konsulluğun binasını tutmağa cəhd ediləcəyi ilə bağlı məlumat Yəmən Silahlı Qüvvələrin Baş Qərargahındakı vəzifəli şəxslərdən birindən gəlmişdi. Binanın dəhlizində mümkün basqından müdafiə üçün nəzərdə tutulmuş "Kalaşnikov" avtomatları yerləşdirilmişdi. Gözlənilməz vəziyyət yaranarsa necə hərəkət edəcəyik? – sualıma baş konsulun müavini belə cavab verdi: "Vəziyyətə uyğun hərəkət edəcəksən". Ona dedim ki, avtomat silahından istifadə təcrübəm yoxdur. Aldığım cavabı heç vaxt unutmaram: "Təhlükə yaranarsa, snayper kimi atəş açacaqsan".

Xoşbəxtlikdən binaya hücum olmadı, amma Baş Konsulluğun binasının ətrafında iki-üç saat ərzində müxtəlif şüarlar səsləndirən böyük kütlə toplaşmışdı. Həmin radikallar hər şeyə hazır idilər. Sonralar anladım ki, bu cür hadisələr üçün davranış resepti, standart qərar yoxdur. Fors-major durumda vəziyyətdən çıxış ekspromt qərarla tapılır. İllər keçdi, iki Yəmən birləşdi, amma Ərəbistan yarımadasının cənubunda alovlanan, minlərlə insanın həlak olduğu müharibə alovu, təəssüflər olsun ki, hələ də sönməyib.

***– Cəmiyyətdə, xüsusilə sovet dövrünü görmüş yaşlı nəsildə belə bir rəy formalaşıb ki, o illərdə Azərbaycan Xarici İşlər Nazirliyi amorf bir qurum olub. Yəni fəaliyyəti nəzərə çarpmayıb, "yuxuya dalıb". Bu fikirlə razısınızmı?***

– Aydın məsələdir ki, SSRİ-nin tərkibində olan Azərbaycan müstəqil şəkildə xarici siyasət məsələləri ilə məşğul ola bilməzdi. Çünki bütün məsələlər vahid mərkəzdən idarə olunurdu. Amma başqa bir reallıq da ondan ibarətdir ki, sovetlər dönəmində bizim xarici siyasət idarəmiz Azərbaycan üçün əhəmiyyət daşıyan bəzi məsələlər ətrafında fəaliyyət göstərirdi. Respublikanın elmi, iqtisadi, humanitar, idman və başqa sahələr üzrə xarici ölkələrlə geniş əlaqələri mövcud idi. Bu əlaqələrin koordinasiya edilməsi Azərbaycan Respublikası Nazirlər Şurasının sərəncamı ilə XİN-ə həvalə olunmuşdu. Yaxşı xatırlayıram, biz hər ilin sonunda mövcud xarici əlaqələr barədə bütün məlumatları müvafiq nazirlik və idarələrdən toplayaraq ümumi hesabat sənədi hazırlayır və onu rəhbərliyə çatdırırdıq. Azərbaycanın hansı istiqamətlərdə güclü olduğunu mərkəzdə də yaxşı bilirdilər. Onlara hansı ölkələrlə daha sıx əlaqələrin qurulduğu da məlum idi. Hər həftənin sonunda beynəlxalq analitik bülletenin buraxılması da işimizin bir hissəsi sayılırdı. Həmin bülletenlərdə bölgədə və dünyada baş verən son hadisələr hərtərəfli analiz edilirdi. Bizim bu yöndə fəaliyyətimiz daim diqqət mərkəzində saxlanılırdı. Bundan başqa, Azərbaycana gələn əcnəbi jurnalistlərlə işləmək də bizə tapşırılmışdı. Onlarla həm fərdi, həm də qrup şəklində təmaslar qururduq. Yeri gələndə, onlara Azərbaycan haqqında əsl həqiqətləri çatdırır, məlumatlandırır, hətta bəzi sənədləri ötürürdük. Azərbaycana xarici ölkələrdən gələn diplomatlar, səfirlər üçün bölgələrə tanışlıq səfərləri təşkil edir, onlara yurdumuzun tarixi, qədim mədəniyyətimiz, xalqımızın milli adət-ənənələri barədə məlumatlar verirdik. Təkcə diplomatlar deyil, xarici ölkə başçıları, nazirlər Bakıda təşkil olunan beynəlxalq konfranslara, tədbirlərə gələn zaman bizim XİN-in əməkdaşları bu prosesə cəlb olunurdular. Onları müşayiət etmək Azərbaycan həqiqətlərini çatdırmaqdan ötrü bir fürsət idi. Nazirliyin Konsulluq şöbəsi respublikaya gələn, vətəndaşlığı olmayan şəxslərlə mütəmadi şəkildə təmasda olurdular. Digər reallıq ondan ibarət idi ki, bu təmaslar 70-ci illərin ikinci yarısında özünü daha qabarıq şəkildə göstərməyə başladı. Çünki ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi həmin dövrdə Azərbaycanın iqtisadi cəhətdən sıçrayışlı yüksəlişi xaricilərin də marağına səbəb olmuşdu. Jurnalistlər kimi, siyasətçilər də Azərbaycan fenomeni ilə yaxından tanış olmaq istəyirdilər. Həmin illərdə İraq və İranın Bakıda Baş konsulluqlarının fəaliyyət göstərməsi çox önəmli faktlardan sayılmalıdır. Müharibə vəziyyətində olan bu ölkələrin diplomatik korpuslarının nümayəndələri Bakıda keçirilən müxtəlif tədbir və qəbullara dəvət edilsələr də, bir yerdə görünmək istəmirdilər. Bu baxımdan, onlarla iş xüsusi takt və incəlik tələb edirdi. Çünki Azərbaycanın hər iki ölkə ilə münasibətləri normal məcrada idi.

***– 80 yaşlı diplomatın bu peşədə idealı kimdir?***

– Birinci yerdə Əlimərdan bəy Topçubaşovun adını çəkərdim. Ən azı, ona görə ki, o, Versal sülh konfransında Azərbaycan Xalq Cümhuriyyətinin tanınmasına nail olmağı bacaran şəxs, diplomatdır. Təbii ki, onunla yanaşı, Azərbaycanı bataqlıqdan çıxaran, XX əsrin sonlarında ölkəmizi xaos və qarşıdurmadan sabitliyə qovuşduran Heydər Əliyevin adı gəlir. Onun siyasi çevikliyini, diplomatik dühasını çox yüksək qiymətləndirirəm. Daha sonra beynəlxalq miqyasda Böyük Britaniyanın Baş naziri və xarici işlər naziri Uinston Çörçill, ABŞ-ın Dövlət katibi, 70-ci illərdə Vyetnamda sülhə nail olduğuna görə Nobel mükafatına layiq görülmüş Genri Kissincer mənim nəzərimdə ideal diplomatlar və dahi şəxsiyyətlərdir. Bu adamların tarix qarşısında xidmətləri, ölkələrinin və dünyanın taleyində oynadıqları rolları, diplomatiyada yerləri və çəkiləri olduqca böyük və ölçüyəgəlməzdir.

Müasir dünyanın ən bacarıqlı, siyasi nüfuzu böyük liderlər tərəfindən qəbul edilən, strateq-diplomatlarından biri kimi Azərbaycan Prezidenti İlham Əliyevin adını qürur hissi ilə çəkirəm. Torpaqlarımızın 30 illik işğalına son qoymaqla regionda yeni reallıq yaradan, Azərbaycana bölgənin aparıcı oyunçusu statusunu qazandıran, beynəlxalq miqyasda söz sahibinə çevirən dövlət başçımızın tarixi xidmətləri hələ bundan sonra araşdırılacaq.

***– Otuz ildən çoxdur ki, politoloq, siyasi ekspert kimi ölkənin yazılı və elektron mediası ilə sıx təmasdasınız. Yeddi il ərzində AzərTac-ın Baş direktorunun birinci müavini, Baş direktoru vəzifələrində çalışmısınız. Diplomatiya və jurnalistika. Sizcə, bu iki sahəni bir-birinə bağlayan və ayıran cəhətlər hansılardır?***

– Hesab edirəm ki, diplomat və jurnalist arasında elə də böyük fərq yoxdur. Belə demək mümkünsə, hər ikisi qələm adamıdır. Sadəcə, onların istifadə etdikləri janrlar fərqlidir. Jurnalistin silahı zarisovka, oçerk, müsahibə, korrospendensiya, operativ informasiyadır. Diplomatın "döyüş silahı" isə tamamilə başqadır. Həmişə belə düşünmüşəm ki, diplomat yaxşı yazmağı bacarmalı, jurnalist səriştəsinə malik olmalıdır. Yəni xarici ölkədə çalışan diplomat o ölkənin siyasi, iqtisadi, humanitar durumunu hərtərəfli öyrənməli və bunu yüksək peşəkarlıqla qələmə almalı və lazımi instansiyalara çatdırmalıdır. Məhz onun məruzə və hesabatları əsasında rəhbərlik zəruri tədbirləri həyata keçirir, yaxud xarici siyasət kursuna müəyyən korrektələr edir. Biz yaşlı diplomatların bu sahədə təcrübəsi kifayət qədər zəngindir. Dediyim kimi, həmişə açıq mənbələrlə işləmişik. Qəzet, televiziya, saytlar, portallar və sosial şəbəkələri izləmək, yaxud da hansısa tədbirin iştirakçısı olmaq açıq mənbə hesab olunur. Həmin mənbələr hər bir diplomatın qarşısında geniş informasiya meydanı və fəaliyyət imkanları açır. 1982-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüyəm. Hələ o dövrdə yerli qəzetlərdə Yaxın Şərqdəki vəziyyətlə bağlı analitik məqalələrim dərc olunub və bu işi həvəslə görmüşəm. Demək istəyirəm ki, jurnalistika sahəsində, azacıq da olsa, xidmətim var. Bu mənada, diplomatiya və jurnalistikanı birləşdirən oxşar cəhətlər göz qabağındadır.

***– Övladlarınızdan, nəvə-nəticələrinizdən diplomat olmaq həvəsinə düşəni varmı?***

– Var. Oğlum mənim peşəmi davam etdirir. 90-cı illərin ortalarından Azərbaycan Xarici İşlər Nazirliyi sistemində işləyir. Bir neçə dəfə xarici ölkələrdə fəaliyyət göstərib. Qız nəvəm Praqada Amerika Universitetində təhsil alıb, burada isə Qərbi Kaspi Universitetini müvəffəqiyyətlə bitirib. Politoloq kimi bir çox informasiya saytlarında, portallarda mütəmadi olaraq analitik yazılarla çıxış edir. Sizə tam səmimi şəkildə deyirəm: peşə olaraq bu sahəni özləri seçiblər, mən də etiraz etməmişəm...

*Yubilyarla söhbətləşdi:*
***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 336** **Bakı şəhəri, 17 noyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 iyun tarixli 200 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Axar-Baxar və İlisu milli parklarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 iyul tarixli 664 nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 iyun tarixli 200 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 862 (Cild I); 2024, № 9, maddə 1091; 2025, № 9, maddə 872 ) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"na aşağıdakı məzmunda 1.1.9-1-ci və 1.1.9-2-ci yarımbəndlər əlavə edilsin:

"1.1.9-1. Azərbaycan Respublikasının Axar-Baxar Milli Parkı;

1.1.9-2. Azərbaycan Respublikasının İlisu Milli Parkı;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 337** **Bakı şəhəri, 18 noyabr 2025-ci il**

**"Dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi, habelə xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi üçün dövlət büdcəsində vəsaitin nəzərdə tutulması və xərclənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 4 noyabr tarixli 254 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi, habelə xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi üçün dövlət büdcəsində vəsaitin nəzərdə tutulması və xərclənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 4 noyabr tarixli 254 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 1035 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 3.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.4-cü bənd əlavə edilsin:

"3.4. bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Qaydalarla müəyyən edilmiş xərc normaları dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, həmçinin dövlət adından yaradılan publik hüquqi şəxslər tərəfindən həyata keçirilən beynəlxalq və ölkə səviyyəli tədbirlərə də tətbiq olunur.".

2. Həmin Qərarla təsdiq edilmiş "Dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi, habelə xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi üçün dövlət büdcəsində vəsaitin nəzərdə tutulması və xərclənməsi Qaydaları"na əlavə – "Dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi, habelə xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi üçün büdcə vəsaitlərinin xərc normaları" üzrə:

2.1. cədvəl aşağıdakı redaksiyada verilsin:

| Sıra №-si | Xərclər | Xərc normalarının yuxarı həddi |
|---|---|---|
| | **1. Yemək xərcləri (1 nəfər üçün)** | |
| 1.1. | nahar yeməyi | 90 manat |
| 1.2. | şam yeməyi | 120 manat |
| 1.3. | ziyafət (tədbir ərzində 2 dəfədən artıq olmamaq şərtilə) | 180 manat |
| 1.4. | gün ərzində tədbirin təşkili ilə bağlı cəlb olunan yardımçı heyət (sürücülər, könüllülər, təhlükəsizlik işçiləri və s.) *üçün yemək xərci* | 30 manat |
| 1.5. | gün ərzində danışıqlar, mədəni tədbirlər zamanı çay, qəhvə fasiləsi və qəlyanaltı | 30 manat |
| | **2. Dəftərxana xərcləri (1 nəfər üçün)** | |
| 2.1. | nümayəndə heyətinin rəhbəri, nazirlər və onlara bərabər tutulan şəxslər, sabiq dövlət və hökumət başçıları, deputatlar, fəxri qonaqlar üçün | 80 manat |
| 2.2. | nümayəndə heyətinin üzvləri üçün | 40 manat |
| | **3. Azərbaycan Respublikasının tarixini və mədəniyyətini təcəssüm etdirən xatirə hədiyyələrinin alınması xərcləri (1 nəfər üçün)** | |
| 3.1. | nümayəndə heyətinin rəhbəri, nazirlər və onlara bərabər tutulan şəxslər, sabiq dövlət və hökumət başçıları, deputatlar, fəxri qonaqlar üçün | 200 manat |
| 3.2. | nümayəndə heyətinin üzvləri üçün | 70 manat |

2.2. "Qeydlər" üzrə:

2.2.1. 1-ci hissədə mötərizədə "1-ci və 4-cü hissələri" sözləri "3-cü hissə" sözləri ilə əvəz edilsin;

2.2.2. 2-ci hissənin birinci cümləsində "sayından" sözü "sayının 1,5 mislindən" sözləri ilə əvəz edilsin;

2.2.3. 6.1-ci bənddə "xərc normalarının 1.1-ci bəndində göstərilən şəxslər" sözləri "nümayəndə heyətinin rəhbəri, nazirlər və onlara bərabər tutulan şəxslər, sabiq dövlət və hökumət başçıları, deputatlar, fəxri qonaqlar" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 338** **Bakı şəhəri, 19 noyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 yanvar tarixli 17 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərin sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 yanvar tarixli 17 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 48 (Cild I) ilə təsdiq edilmiş "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərin sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4-cü hissədə "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin yerli qurumlarına" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası" ilə müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin və həmin hissəyə "sanatoriya-kurort yollayışları" sözlərindən sonra "(bundan sonra - yollayış)" sözləri əlavə edilsin.

**2.** 7-ci hissə aşağıdakı redaksiyada verilsin:

"7. Yollayışların uçotunun aparılması, onlara dair hesabatların təqdim edilməsi, habelə mühasibat uçotu sənədlərinin saxlanılması qanunvericiliklə müəyyən edilmiş qaydada təmin edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 340** **Bakı şəhəri, 19 noyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1530 (Cild I); 2024, № 13, maddə 314, № 5 (II kitab), maddələr 611, 617) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4.2-ci bəndə "İşləməyən əlilliyi olan şəxslər dövlət büdcəsində bu məqsəd üçün nəzərdə tutulmuş vəsait hesabına" sözlərindən sonra "Xidmətlər Agentliyinin yerli qurumları və ya Təminat Agentliyinin "DOST" mərkəzləri tərəfindən" sözləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 4.2-1-ci bənd əlavə edilsin:

"4.2-1. Təqsirkar işəgötürən yenidən təşkil edildiyi halda əlilliyi olan şəxslər onun hüquqi varisi tərəfindən sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunurlar.".

**3.** 4.3-cü bənddə "pensiya almaq hüququ olan" sözləri "əlillik səbəbindən asılı olmayaraq əlilliyə görə əmək pensiyası almaq hüququ olan ehtiyata və ya istefaya buraxılmış" sözləri ilə əvəz edilsin.

**4.** 4.6-cı bəndə "ərzində" sözündən sonra "bu barədə" sözləri əlavə edilsin.

**5.** Aşağıdakı məzmunda 4.6-1 - 4.6-3-cü bəndlər əlavə edilsin:

"4.6-1. Növbə çatdıqda Xidmətlər Agentliyinin yerli qurumu və ya Təminat Agentliyinin müvafiq "DOST" mərkəzi tərəfindən sanatoriya-kurort müəssisəsi və sanatoriya-kurort putyovkasının (yollayışının) vaxtı barədə əlilliyi olan şəxsin, əlilliyi olan uşaqlara münasibətdə onların qanuni nümayəndələrinin əlaqə vasitələrindən birinə sanatoriya-kurort müəssisəsinə getmə vaxtından ən azı 7 (yeddi) iş günü əvvəl məlumat göndərilir və həmin şəxslər ən azı 3 (üç) iş günü əvvəl sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunurlar. Əlilliyi olan şəxs (qanuni nümayəndə) məlumatı aldıqdan sonra 3 (üç) iş günü ərzində sanatoriya-kurort müəssisəsinə gedib-getməyəcəyi barədə yazılı, şifahi və ya elektron formada Xidmətlər Agentliyinin yerli qurumunu və ya Təminat Agentliyinin müvafiq "DOST" mərkəzini məlumatlandırmalıdır.

4.6-2. Əlilliyi olan şəxs (qanuni nümayəndə) sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunması təsdiq edildikdən sonra il ərzində iki dəfədən çox olmayaraq sanatoriya-kurort müəssisəsinə getməyəcəyi barədə Xidmətlər Agentliyinin yerli qurumunu və ya Təminat Agentliyinin müvafiq "DOST" mərkəzini bu Qaydanın 4.6-1-ci bəndində nəzərdə tutulan müddətdə məlumatlandırmadıqda və (və ya) təklif olunan sanatoriya-kurort putyovkasından (yollayışından) imtina etdikdə növbədən çıxarılır və əlilliyi olan şəxsin (qanuni nümayəndənin) əlaqə vasitələrindən birinə bu barədə məlumat göndərilir.

4.6-3. Bu Qaydanın 4.6-2-ci bəndinə əsasən növbədən çıxarılmış əlilliyi olan şəxs (qanuni nümayəndə) növbədən çıxarıldığı gündən 5 (beş) iş günü sonra yenidən növbəyə götürülmək üçün Xidmətlər Agentliyinin yerli qurumuna və ya Təminat Agentliyinin "DOST" mərkəzinə müraciət edə bilər.".

**6.** 4.7-ci və 4.11-ci bəndlər ləğv edilsin.

**7.** 4.8-ci bənd yeni redaksiyada verilsin və aşağıdakı məzmunda 4.8-1-ci bənd əlavə edilsin:

"4.8. Orqanizmin funksiyasının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsin, həmçinin əlilliyi olan uşağın müşayiətçiyə ehtiyacı olduqda, Fərdi Reabilitasiya Proqramının tibbi reabilitasiya bölməsində bu barədə qeyd aparılır. Orqanizmin funksiyasının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsi və ya əlilliyi olan uşağı müşayiət edən şəxslər sanatoriya-kurort putyovkası (yollayışı) ilə həmin şəxslərin sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunduqları qurum tərəfindən təmin olunurlar.

4.8-1. Əlilliyi olan uşağın müşayiətçisi qismində uşağın valideynləri, digər qanuni nümayəndələri (qəyyumları, övladlığa götürənləri, himayəçiləri) və ya valideynin icazəsi ilə etibarnamə verilmiş digər şəxslər də müəyyən oluna bilərlər. Əlilliyi olan uşağın valideyninin (digər qanuni nümayəndəsinin) və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsin Xidmətlər Agentliyinin yerli qurumları və ya Təminat Agentliyinin "DOST" mərkəzlərinə yazılı və ya elektron müraciəti əsasında müşayiətçinin sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunduğu müddət ərzində bir dəfədən çox olmayaraq dəyişdirilməsinə yol verilir.".

**8.** 4.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

"4.10. Sanatoriya-kurort müəssisələri əlilliyi olan şəxsin sanatoriya-kurort müəssisəsinə qəbul olunduğu və həmin müəssisədən buraxıldığı tarix, habelə aparılmış müalicələrin nəticələri barədə məlumatları və "Geri qayıtma" talonunu müalicə başa çatdıqdan sonra 30 (otuz) gün müddətində aidiyyəti quruma təqdim edir. Xidmətlər Agentliyinin yerli qurumu və ya Təminat Agentliyinin "DOST" mərkəzi daxil olmuş məlumatları 3 (üç) iş günü müddətində MEİS-in "Sanatoriya-kurort" altsisteminə daxil edir və həmin məlumatlar avtomatik olaraq Fərdi Reabilitasiya Proqramının yerinə yetirilməsi barədə hesabatda əks olunur və onun putyovkanın (yollayışın) istifadəsini təsdiq edən sənəd kimi saxlanılması təmin olunur. İşləyən əlilliyi olan şəxslərə münasibətdə isə "Geri qayıtma" talonunun qeydiyyatının aparılması və onun saxlanılması məsələləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin 141-ci bəndinə uyğun təmin edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 343** **Bakı şəhəri, 26 noyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli 186 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə"də dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında", "Dövlət rüsumu haqqında", "İxrac nəzarəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında", "Elektroenergetika haqqında" və "Energetika haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 121-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli 186 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 667 (Cild I); 2024, № 8, maddə 995, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə"yə aşağıdakı məzmunda 8.1-1-ci, 8.6-1-ci və 8.6-2-ci bəndlər əlavə edilsin:

"8.1-1. Sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 18.77-1-ci maddəsi ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.";

"8.6-1. İdarəedici təşkilat sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumunu ödəmək vəzifəsi barədə 2 (iki) iş günü müddətində ərizəçiyə şifahi və ya yazılı formada məlumat verir. Ərizəçi tərəfindən məlumat alındığı tarixdən 5 (beş) iş günü müddətində sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumu ödənilir və ödənişi təsdiq edən sənəd idarəedici təşkilata təqdim edilir.

8.6-2. Ərizəçi tərəfindən dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edildikdən sonra sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsi 2 (iki) iş günündən gec olmayaraq ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd bu Əsasnamənin 8.6-1-ci bəndində nəzərdə tutulan müddətdə təqdim edilmədikdə idarəedici təşkilat tərəfindən sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsi ləğv edilir və bu barədə məlumat 2 (iki) iş günü müddətində ərizəçiyə göndərilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 344** **Bakı şəhəri, 26 noyabr 2025-ci il**

**"Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan və ya bu fəaliyyətlə məşğul olmaq istəyən şəxslərin sertifikasiyası Qaydasının, o cümlədən sınaq imtahanında iştirak haqqının məbləğinin və davamlı peşəkar inkişaf üzrə minimum kreditin həcmi"nin təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası"nın təsdiq edilməsi haqqında" 2010-cu il 8 iyun tarixli 108 nömrəli və "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququnu təsdiq edən sertifikasiya şəhadətnaməsinin forması"nın təsdiq edilməsi haqqında" 2010-cu il 12 iyun tarixli 111 nömrəli qərarlarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında" və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 13 iyun tarixli 213-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 438 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan və ya bu fəaliyyətlə məşğul olmaq istəyən şəxslərin sertifikasiyası Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

**2.** Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan və ya bu fəaliyyətlə məşğul olmaq istəyən şəxslərin sertifikasiya imtahanının sınaq imtahanında iştirak haqqının məbləği tibb və ya səhiyyə ixtisasları üzrə ali təhsili olan tibb mütəxəssisləri üçün 35 (otuz beş) manat, orta ixtisas təhsili olan tibb mütəxəssisləri üçün 25 (iyirmi beş) manat təsdiq edilsin.

**3.** Davamlı peşəkar inkişaf üzrə minimum kreditin həcmi hər il orta hesabla 50 (əlli) kredit olmaqla 5 (beş) il ərzində minimum 250 (iki yüz əlli) kredit təsdiq edilsin.

**4.** Bu Qərar qüvvəyə mindiyi günədək sertifikasiya şəhadətnaməsinin qüvvədəolma müddəti başa çatmamış tibb mütəxəssisləri minimum 250 (iki yüz əlli) kreditdən hər il üzrə nəzərdə tutulmuş orta illik hesabla 50 (əlli) krediti topladıqda, sertifikasiya şəhadətnaməsinin qüvvədəolma müddətinə bir ildən az qalmış tibb mütəxəssisləri 50 (əlli) krediti topladıqda şəhadətnamə əldə etsinlər.

**5.** "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 8 iyun tarixli 108 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 553 (Cild I); 2024, № 5 (II kitab), maddə 612; 2025, № 5, maddə 507) ləğv edilsin.

**6.** "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququnu təsdiq edən sertifikasiya şəhadətnaməsinin forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 iyun tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 556 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

*Konstitusiya və Suverenlik İli – 2025*

# Hüquqi dövlət quruculuğunda prokurorluğun rolu

**Dövlətin möhkəm təməlləri yalnız iqtisadi və hərbi güclə deyil, onun hüquqi əsaslarının sabitliyi və ideoloji dayaqlarının möhkəmliyi ilə formalaşır. Azərbaycan Respublikasının Konstitusiyası bu mənada xalqın azad iradəsinin və müstəqil dövlətçiliyinin ali ifadəsi, eyni zamanda, milli suverenliyin hüquqi təminatıdır.**




Azərbaycanın yeni Konstitusiyası ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasi zəkası və dövlətçilik fəlsəfəsi nəticəsində hazırlanaraq 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul olundu. Bu sənəd müasir dövlət quruculuğunun hüquqi bünövrəsini qoydu, demokratik idarəçiliyin və vətəndaş cəmiyyətinin əsas prinsiplərini müəyyənləşdirdi. Ümummilli lider Heydər Əliyev Konstitusiyanı sadəcə hüquqi akt kimi deyil, Azərbaycan xalqının müstəqil iradəsinin və əbədi suverenliyinin manifesti kimi formalaşdırdı.

Prezident İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması, həm bu tarixi sənədin əhəmiyyətini bir daha vurğulamaq, həm də Ümummilli liderin müəyyən etdiyi dövlətçilik kursunun müasir dövrdə davam etdirilməsini simvolizə edir. Bu il, eyni zamanda, Azərbaycan Respublikasının Konstitusiyasının ruhunda yaşayan suverenlik ideyalarının XXI əsrdə tam reallığa çevrilməsini göstərən bir mərhələdir.

Azərbaycan xalqının azadlıq, müstəqillik və dövlətçilik uğrunda yüzillik arzuları 1995-ci ildə qəbul olunmuş Konstitusiyada hüquqi ifadəsini tapdı. Onun preambulasında "Azərbaycan xalqı öz suveren hüququna əsaslanaraq bu Konstitusiyanı qəbul edir" ifadəsi yer alır – bu, həm tarixi iradənin, həm də hüquqi suverenliyin rəmzidir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən bu sənəd, müstəqil Azərbaycan dövlətinin idarəetmə modelini, insan və vətəndaş hüquqlarının təminatını və qanunun aliliyini təsbit etdi.

Konstitusiya qəbul olunduğu gündən etibarən, Azərbaycanın beynəlxalq aləmdə hüquqi cəhətdən tanınmış, müstəqil və bərabərhüquqlu dövlət kimi mövqeyinin möhkəmlənməsində əsas sənəd oldu. Bu, dövlət suverenliyinin yalnız siyasi deyil, həm də hüquqi və mənəvi aspektlərini formalaşdırdı. Beləliklə, hüquqi dövlətin təməli məhz Heydər Əliyevin uzaqgörən liderliyi ilə qoyuldu.

Suverenliyin davamlılığı isə müasir mərhələdə Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni məzmun və dinamika qazandı. XXI əsrdə dövlətin daxili və xarici siyasəti Konstitusiyanın prinsiplərinə söykənərək, Azərbaycanın müstəqil qərarvermə hüququnu və milli maraqlarını qorumaq istiqamətində həyata keçirildi. Bu siyasətin ən parlaq təzahürü 2020-ci ildə baş vermiş Vətən müharibəsi oldu. Məhz Prezident İlham Əliyevin qətiyyəti və strateji iradəsi sayəsində Azərbaycan Ordusu tarixi Qələbə qazandı, dövlətin konstitusion hüququ olan ərazi bütövlüyü və suverenliyi bərpa olundu. 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində isə Azərbaycan öz torpaqları üzərində tam suveren hakimiyyətini təmin etdi. Beləliklə, 1995-ci ildə Heydər Əliyevin hüquqi əsaslarını qoyduğu suveren dövlətçilik ideyası, Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrdə tam gerçəkliyə çevrildi.

Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyətinin bütün qollarının fəaliyyətini hüquq çərçivəsində tənzimləyir və onların qarşılıqlı balansını təmin edir. Bu sistemdə prokurorluq orqanları xüsusi əhəmiyyətə malikdir. Konstitusiyanın 133-cü maddəsinə əsasən Azərbaycan Respublikasının Prokurorluğu vahid mərkəzləşdirilmiş orqandır və dövlətin hüquqi sabitliyini, qanunun aliliyini və konstitusion prinsiplərin qorunmasını təmin edir.

Prokurorluq orqanlarını yalnız ədalətin bərpası funksiyasını deyil, həm də dövlət suverenliyinin hüquqi təminatını öz üzərinə götürür. Azərbaycanın müstəqillik tarixində prokurorluq orqanları ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik modelinə sadiq qalaraq, hüquqi dövlətin qurulmasına, qanunun aliliyinin möhkəmlənməsinə mühüm töhfələr vermişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sistem müasir çağırışlara uyğun modernləşdirilmiş, fəaliyyətində peşəkarlıq, şəffaflıq və vətəndaş məmnunluğu kimi prinsipləri əsas tutmuşdur. Prokurorluq bu gün Azərbaycanın hüquqi suverenliyinin qorunmasında, dövlətin hüquqi dayaqlarının möhkəmləndirilməsində və cəmiyyətin ədalətə inamının təmin olunmasında mühüm rol oynayır. Bu fəaliyyət Konstitusiyanın aliliyinə sadiqliyin, dövlətçilik məsuliyyətinin və milli maraqlara xidmətin parlaq nümunəsidir.

Azərbaycan Respublikasının Konstitusiyası, dövlət suverenliyi və hüquqi sistem – bir-birini tamamlayan və qarşılıqlı şəkildə möhkəmləndirən üç sütundur. Bu sütunların əsasında ümummilli lider Heydər Əliyevin dövlətçilik irsi, onun müəyyən etdiyi hüquqi və ideoloji prinsiplər dayanır. Müasir mərhələdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin prinsiplər praktik reallığa çevrilmiş, Azərbaycanın tam suverenliyi bərpa olunmuş və hüquqi dövlətçilik daha da güclənmişdir.

Bu prosesdə prokurorluq orqanları qanunun aliliyinin qoruyucusu və hüquqi suverenliyin təminatçısı kimi mühüm funksiyanı yerinə yetirir. 2025-ci il "Konstitusiya və Suverenlik İli" bu tarixi ardıcıllığın, hüquqi dövlət quruculuğu ilə milli suverenliyin vəhdətinin, həm də ədalət və qanunçuluğun təntənəsinin simvoludur.

Konstitusiya – qanunun aliliyi və ədalətin səsi, Suverenlik – azad iradənin və milli ruhun əbədiyyətidir, Prokurorluq isə bu dəyərlərin hüquqi qoruyucusudur.

***Ləman DADAŞZADƏ,***
***Sumqayıt şəhər prokurorunun köməkçisi, I dərəcəli hüquqşünas***

# Kəlağayı – nənələrin gözəllik və ismət örpəyi






**Hər il noyabrın 26-da ölkəmizdə Kəlağayı Günü qeyd olunur. Məlum olduğu kimi, UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 2014-cü ilin həmin günündə keçirilən iclasında Azərbaycan qadın baş örtüyü "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.**

Ötən günlərdə Mədəniyyət Nazirliyinin dəstəyi, Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyi və "Kəlağayı ev muzeyi"nin təşkilatçılığı ilə Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında növbəti möhtəşəm "Kəlağayı bayramı" düzənlənib. Zərif baş örtüyünün Azərbaycan mədəniyyətindəki yeri, milli kimlik və zəriflik simvolu kimi əhəmiyyəti bir daha geniş ictimaiyyətə təqdim olunub.

Bayram proqramı "Kəlağayı ev muzeyi"nin direktoru Güllü Eldar Tomarlının əl işlərinin, rəssam Gülnarə Məmmədovanın rəsm əsərlərinin, keçmişdən bu günə yol gələn milli dəyər nümunələrimizin - sandıq, səhəng, cəhrə, nəhrə kimi məişət əşyalarının sərgisi ilə açılıb. Sərgidə həm ənənəvi ipəkçilik məktəbinə aid nümunələr, həm də müasir kəlağayı sənətinin yeni üslubları nümayiş etdirilib. Toxuculuq ənənəsinin canlı nümayişi – cəhrə vasitəsilə yun, pambıq və ipək liflərin burularaq ipə çevrilməsi tamaşaçılar tərəfindən böyük maraqla izlənilib. Bu təqdimat xalq sənətinin unudulmaqda olan incəliklərinin yenidən yaddaşlara qaytarılması baxımından xüsusi önəm daşıyıb.

Xatırlanıb ki, Qədim İpək yolu ab-havası ilə nəfəs alan bölgələrimizdə, xüsusilə də kəlağayının məskəni sayılan İsmayıllı rayonunun Basqal kəndində bu sənət geniş yayılıb. Əsrimizin əvvəllərində burada ayrıca fabrik də işə salınıb və yeni nəsil sənətçilərin sayəsində qədim baş örtüyü sanki 2-ci həyatını yaşamağa başlayıb. Ünlü modelyer və dizayner – Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfova dəfələrlə öz geyim kolleksiyasında kəlağayıdan istifadə edib. Bir neçə il əvvəl Avropa Azərbaycan Cəmiyyəti tərəfindən Parisdə azərbaycanlı dizayner Mənzər Hacıyevanın "Kəlağayı" butiki təşkil olunub. Şair Güllü Eldar Tomarlının "Kələyağı ev muzeyi" zənginliyi ilə seçilir.

Bu sətirlərin müəllifi də Köhnə Əhmədlidəki həmin muzeyi ziyarət edib, nadir eksponatlarla, özünəməxsus "kəlağayı ədəbiyyatı" ilə yaxından tanış olub. Güllü xanımla söhbətimizdə onun dediyi sözlər yadımdan çıxmır: "Kəlağayıya el-oba rəğbəti mənəvi amildir. Bu örtüyün simvolikası var və çətin zəhmət bahasına başa gəlir. Ustadların dediklərinə görə, kəlağayını ərsəyə gətirmək, evə təzə gələn gəlinin nazını çəkməkdən ağırdır".

"Kələyağı ev muzeyi"ndə bir saz da var. Sanki kəlağayıların gözəlliyindən hayıl-mayıl olubmuş kimi, boynunu burub baxır. Həmin saz göyçəli azman Aşıq Ələsgərin sözlərini yadıma salmışdı: "Kəlağayı əlvan, qıyqacı – üstündən basa tellərin".



Zaman-zaman sənətsevərlər "Kəlağayı əlvan qıyqacı", "Azərbaycan kəlağayısı min illərin yadigarı", "Azərbaycan kəlağayılarının təbliği", " Milli baş geyimi və ötükləri" layihələrimizin Mirvarid Dilbazi Poeziya Məclisi İB tərəfindən uğurla icra olunmasına şahidlik ediblər. Elə bu ayın 1-dən keçirilən "Kəlağayı bayramı" məclisləri də bu silsilədəndir.

Eyni zamanda, bayramda Güllü Eldar Tomarlının və Brilyant Atəşin kəlağayı dünyası haqqında kitablarının təqdimatı keçirilib. Qeyd olunub ki, bu kitablar kəlağayının sülh, barış rəmzi olduğunu bədii dillə ifadə edir. Sehirli incəliyi ilə üzüyün ortasından keçə bilən kəlağayı zərifliyin keşikçisidir, qadınların təkcə başlarını yox, həm də əxlaq dünyasını qoruyur.

Rəsmi hissədə Güllü xanım milli-mədəni irsimizin təbliğindən geniş söz açıb, ilin müxtəlif dövrlərində məclisin təşkilatçılığı ilə bir çox rayonda, eləcə də ölkə xaricində keçirilən tədbirlər, sərgilər və festivallar haqqında məlumat verib.

Mədəniyyət Nazirliyinin layihə əlaqələndiricisi Heydər Mirzəyev, Xətai Rayon İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanov çıxışlarında kəlağayının milli-mənəvi dəyərlərimizin mühüm tərkib hissəsi olduğunu vurğulayıb, onun davamlı təbliğini təqdir ediblər. Xətai Rayon Ağsaqqallar Şurasının sədri, şəhid mayor Rüfət Əsgərovun atası Mürvət Əsgərov, şəhid Rəşad Quliyevin anası Mətanət xanım, itkin şəhid İsmayıl İsmayılovun bacısı, şair Lalə İsmayıl, qazi Taleh Əliyev bildiriblər ki, milli dəyərlərimizin və mədəniyyətimizin mühüm qolunu təşkil edən ismət örpəyi kəlağayımızın təbliği onun kütləvi istehsalına və istifadəsinə yollar açır. Bu isə mədəniyyətimizin inkişafı və adət-ənənəmizin yaşadılmasıdır.

Bayram konsertində xalq artisti Gülyaz Məmmədova, Əməkdar mədəniyyət işçisi, aşıq Solmaz Kosayeva, Maya Qafarovanın rəhbərlik etdiyi "İrəvan" xalq çalğı alətləri ansamblı, Gürcüstanın "Şərəf" ordenli şairi Səadət Buta, "Tarixin ipək ətri" kompozisiyası ilə çıxış edən 316 nömrəli uşaq bağçasının yetirmələri, bədii qiraət ustaları Seymur Novruzov və Fəridə İsmayılova tədbirə rəng qatıblar. Bəstəkar-müğənni Arif Mehmandost, aşıqlar Gözəl Kəlbəcərli, Məhsəti Cabbarova, Rəvanə və Nazənin Leriklilər, "Nənə" Qızlar ansamblı, "Çeşmə" folklor qrupunun üzvü aşıq Xədicə, yazıçı-publisist Zemfira Nusalovanın yaratdığı "Kiçik Akademiya"nın üzvləri və başqaları da öz ifaları ilə şən ovqat yaradıblar.

***Ə.NƏCƏFXANLI***
***XQ***

# "Qərbi Azərbaycana qayıdış zamanın tələbidir"



**Kürdəxanı qəsəbəsindəki 113 nömrəli tam orta ümumtəhsil məktəbin X sinfində "Qərbi Azərbaycan əzəli və əbədi Azərbaycan torpağıdır" və "Mənim Qərbi Azərbaycanım" kitablarının təqdimatı açıq dərslə davam edib.**

Məşğələdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor, Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü Mahirə Hüseynova, Elm və Təhsil Nazirliyinin əməkdaşları – Rövşən Ağayev, Maral Salmanova, pedaqogika elmləri namizədi, dosent Dəyanət Musayev, məktəbin müəllimləri və şagirdləri, Qərbi Azərbaycandan olan bir qrup valideyn iştirak ediblər. Əvvəlcə Qərbi Azərbaycan TV-nin hazırladığı "Qərbi Azərbaycan xronikası" mövzusunda videoçarx nümayiş olunub.



Məktəbin direktoru Gültəkin Rüstəmova bildirib ki, bu gün Qərbi Azərbaycan irsinin, tarixi yaddaşının və mədəni kimliyimizin qorunması kimi son dərəcə önəmli mövzu ilə bağlı bir araya gəlmişik. Qərbi Azərbaycan minilliklər boyunca formalaşmış varlığımızın, milli yaddaşımızın və mədəni irsimizin rəmzidir.

Sonra açıq dərsi aparan Mahirə Hüseynova Qərbi Azərbaycanın tarixi ədalətsizliklərə məruz qalması, soydaşlarımızın doğma yurdlarından didərgin salınması, həmçinin bu torpaqlara qayıdışın milli hədəf kimi önəmi barədə söz açıb. Milli yaddaşın qorunmasının zəruriliyi, o, "Qərbi Azərbaycana Qayıdış" ideyasının yaşadılması və gələcək nəsillərə ötürülməsinin vacibliyini vurğulayıb.

Açıq dərsdə Prezident İlham Əliyevin bu mövzu ilə bağlı fikir və tövsiyələri, Qayıdış Konsepsiyasından irəli gələn məsələlər diqqət mərkəzində olub. Bildirilib ki, Qərbi Azərbaycan məsələsinin gənc nəslin milli kimliyinin ayrılmaz hissəsinə çevrilidiyini nəzərə alaraq, şagirdlər arasında əzəli yurd yerimizin tarixi, coğrafiyası, mədəniyyəti, ədəbiyyatı, görkəmli ictimai xadimləri, toponimləri, folkloru haqqında maarifləndirmə işləri aparılmalıdır.

İnteraktiv formada aparılan məşğələdə şagirdlər mövzuya böyük maraq göstəriblər. Məktəbin rəhbərliyi və müəllimləri, valideyinlər çıxış edərək dərsin müasir tələblərə uyğun şəkildə aparılmasına görə minnətdarlıqlarını bildiriblər.

Azərbaycan Yazıçılar Birliyinin üzvləri Mahirə Hüseynova və Rövşən Ağayev məktəbin kitabxanasına müxtəlif mövzularda, o cümlədən ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlı kitablar hədiyyə ediblər.

Sonda məktəbin həyətyanı sahəsində ağacəkmə aksiyası keçirilib.

***XQ***

*Yeni filmlər*

# "Neft"dən "Oskar"a aparan tarixçə

## *Xeyriyyəçi ömrünün 4 fəsli*



**Elə filmlər var ki, bitdikdən sonra da bizi öz dünyasına çəkir və tamaşaçı uzun müddət həmin təəssüratların təsirindən ayrıla bilmir. Bakı Media Mərkəzinin (BMM) baş prodüseri Arzu Əliyevanın rəhbərliyi, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi ilə gerçəkləşən "Tağıyev" silsilə filmi də məhz belə əsərlərdəndir.**

Xeyriyyəçinin vəfatının 100 illiyinə həsr olunmuş filmin 1-ci hissəsi "Tağıyev: Neft" H.Z.Tağıyevin Bakı neft sənayesinin inkişafına verdiyi mühüm töhfələrə fokuslanır. Filmin emosional zirvəsi, heç kimin inanmadığı halda Tağıyevin israrla davam etdiyi qazma işlərinin sonunda neftin fontan vurması səhnəsidir. Filmin təqdimatı zamanı zaldakı tamaşaçıların ayaq üstə alqışları layihənin güclü təsirini aydın şəkildə nümayiş etdirdi.

Bu milli əhəmiyyətli əsər qısa zamanda beynəlxalq arenada da böyük diqqət çəkdi. "Tağıyev: Neft" "Dehancer Colourist Awards 2024" festivalında qalib gələrək Azərbaycan kinosunun beynəlxalq miqyasda tanınmasına əhəmiyyətli töhfə verdi. Filmin uğuru bununla bitmədi; Azərbaycan tərəfindən rəsmi olaraq Kino Akademiyasının 98-ci "Oskar" mükafatına "Ən yaxşı beynəlxalq bədii film" kateqoriyasında namizəd kimi təqdim edildi.

"Tağıyev: Çar" dövrün güclü siyasi qüvvələri, o cümlədən Rusiya imperiyası ilə münasibətləri, çətin qərar qəbuletmə anlarını və nüfuzlu xeyriyyəçi kimi atdığı addımları işıqlandırır. "Tağıyev: Sona" filmi isə xeyriyyəçinin həyatının ülvi məhəbbət səhifəsini açır. Taleyin çətin yollarından keçən Hacı Zeynalabdinin həyatına illər sonra gənc və savadlı Sona xanım daxil olur. Ona qarşı duyduğu güclü sevgi Tağıyevi yeni



maneələrlə üz-üzə qoyur. Kinolentdə məhz məşhur xeyriyyəçi ilə onun qəlbinə yol tapan Sona xanımın bütün çətinlikləri aşan, unudulmaz məhəbbət hekayəsi əks olunur.

**Azərbaycan kinosunun irimiqyaslı layihələrindən sayılan "Tağıyev" silsiləsinin əsas müəllifi və quruluşçu rejissoru Zaur Qasımlı ilə söhbətimizdə layihənin konseptual təməlləri, fərqli janr elementlərinin necə birləşdiyi və layihənin beynəlxalq hədəfləri barədə ətraflı müzakirə etdik.**



***– Zaur müəllim, "Tağıyev" filminin yaranma ideyası və konseptual əsasları barədə məlumat vermənizi istərdik.***

– "Tağıyev" layihəsinin ideyası heç bir fərziyyə və ya təxmin üzərində deyil, birbaşa arxiv materialları əsasında formalaşdı. "Miras" filmi üçün sənədli materiallar topladığım zaman dəfələrlə Tağıyevin adı və fəaliyyəti ilə bağlı faktlarla qarşılaşdım. Bu isə məni Tağıyevə aid arxiv sənədlərini daha dərindən və sistematik şəkildə araşdırmağa sövq etdi. Araşdırma nəticəsində yeni, bənzərsiz detallar və maraqlı faktlar üzə çıxdı. Düşündüm ki, Tağıyevin həyat hekayəsi və zəngin irsi böyük film silsiləsinin mövzusu olmağa tam əsas verir.

Beləliklə, bu ideyanı Bakı Media Mərkəzinə (BMM) təqdim etdim. Layihə BMM-in rəhbəri və baş prodüserimiz Arzu xanım Əliyeva tərəfindən yüksək dəstəklə qarşılandı və biz birbaşa ssenari mərhələsinə keçdik. Əvvəlcə Tağıyevin dolğun və əhatəli həyat yoluna əsaslanaraq 8 bölümlük ssenari yazıldı. Sonra qərara gəldik ki, birinci mərhələdə yalnız ilk 4 bölümü ekranlaşdıraq, layihənin davamını isə növbəti mərhələlər üçün planlaşdıraq.

Ssenari tam formalaşdıqdan sonra layihənin gərgin hazırlıq mərhələsi başladı: məkanların seçilməsi, dekorasiyaların qurulması, kostyumların tikilməsi, peşəkar aktyor və texniki komandanın yığılması. Hazırlıq mərhələsi bitdikdən sonra 135 günlük ciddi və sıx çəkiliş dövrü başladı. Ardınca isə montaj, səsləndirmə, rəng korreksiyası, qrafika və digər postprodakşn işləri aparıldı.

***– Silsilənin ilk 3 bölümü – "Neft"dəki epik çətinliklərdən, "Çar"dakı siyasi dramdan sonra, "Sona" bölümündə incə məhəbbət dramına keçid etmək tamaşaçının emosional təəssüratını necə balanslaşdırır? Rejissor kimi, bu 3 fərqli janrı bir silsilədə necə birləşdirdiniz?***

– Biz Tağıyevin həyat hekayəsinə süni şəkildə yığılmış janrlar toplusu kimi yanaşmadıq. Əksinə, filmi onun həyatının təbii və ardıcıl mərhələlərinin davamı kimi qəbul etdik. Çünki insan müxtəlif dövrlərdə fərqli "meydanlarda" mübarizə aparmaq məcburiyyətində qalır.

Məsələn, "Neft" Tağıyevin fiziki mübarizə və böyük yüksəliş dövrüdür. Burada insanın torpaqla, neftlə və taleyin sərt şərtləri ilə apardığı amansız savaşın şahidi oluruq. Filmə xas olan böyüklük və təsir gücü məhz bu ilkin mübarizədən yaranır. "Çar" da mübarizə artıq siyasi və ideoloji müstəviyə keçir. Tağıyev imperiya sistemi, bürokratiya və yerli ədalətsizliklə üz-üzə qalır. Biz neft meydanından çıxaraq, birbaşa dövlətlə münasibətlərin dramatik səhnəsinə daxil oluruq. "Sona"da isə bütün xarici mübarizələri bir kənara qoyur, Tağıyevin daxili, emosional dünyasına nüfuz edirik. Silsilənin bu bölümündə onun şəxsi tərəddüdlərini, insani səhvlərini, güclü sevgi ehtirasını və vicdanla üz-üzə qalmağın çətin yollarını göstəririk.

4-cü hissədə mübarizə artıq dini-sosial səviyyəyə keçəcək. Tağıyev qızlar üçün məktəb açmaq kimi mütərəqqi bir ideya ilə çıxış edir. Lakin bu dəfə onun qarşısında dövlət məmuru deyil, fanatik düşüncənin və köhnə təfəkkürün qatı müqaviməti dayanır. Yəni Tağıyev yenə də xalqı üçün çox əhəmiyyətli bir iş görməyə çalışır, lakin bu dəfə həm mübarizənin forması, həm də düşmənin mahiyyəti tamamilə dəyişir. Bu fərqli tonların bir yerdə cəmlənməsinin səbəbi isə sadədir: mövzu da eynidir, obraz da. Sadəcə, həyat onu müxtəlif mübarizə meydanlarına çıxarır– birində kapital, birində dövlət, birində sevgi, digərində isə din və cəmiyyətin inkişafa mane olan mühafizəkar qatı ilə üz-üzə qalır.

Mən bu silsiləni simfonik musiqiyə bənzədirəm: o, dördhissəli bir əsər kimidir. Hər hissənin öz fərqli ritmi olsa da, əsla əsas melodiyanı itirmirsən. Çünki bütün hadisələrin mərkəzində həmişə eyni, böyük ruhlu insan dayanır: Hacı Zeynalabdin Tağıyev.



***– Film Azərbaycanın ən böyük büdcəli üç layihəsindən biridir. Belə bir miqyaslı istehsalın uğuru müstəqil Azərbaycan kinosu üçün hansı yeni maliyyə və peşəkar istehsal standartlarını müəyyən edir?***

– Layihə təkcə büdcəsinin böyüklüyünə görə deyil, həm də iş prinsipi və peşəkar istehsal qaydaları baxımından çox əhəmiyyətlidir. Ətraflı planlama və ilkin hazırlıq bizim üçün əsas şərt idi və irimiqyaslı layihəni improvizasiya ilə idarə etmək mümkün deyildi. Buna görə də, ssenarinin təhlilindən tutmuş, mürəkkəb dekorasiya və kostyumların hazırlanmasına qədər hər şeyi əhatə edən dəqiq çəkiliş qrafiki və sistemli ilkin istehsal planı hazırladıq.

İkinci vacib prinsip isə məsuliyyət və maliyyə şəffaflığıdır. Böyük büdcə, hər şeydən əvvəl, güclü maliyyə intizamı və dəqiq hesabat tələb edirdi. Layihədə iştirak edən hər bir komandanın fəaliyyəti, çəkiliş günləri və dekorun istifadəsi kimi detallar planlı şəkildə qeydə alınmalı və nəzarətdə saxlanılmalı idi.

Üçüncü mühüm məqam böyük komandanın idarə edilməsi və intizamı idi. Yüzlərlə sənət adamı və işçi ilə çalışdıq: əsas aktyor heyəti, kütləvi səhnə iştirakçıları, dekoratorlar, tikinti qrupları, texniki heyət və bir çox digərləri. Bu layihə konkret olaraq sübut etdi ki, ölkəmizdə böyük miqyaslı istehsalları həyata keçirmək üçün nəhəng potensial var. Sadəcə, bu potensialı düzgün təşkil etmək və yüksək intizamla idarə etmək tələb olunur.

***– 76 fərqli məkanda və 300-dən çox dekorasiya elementindən istifadə edilərək çəkilən filmdə XIX əsrin sonu – XX əsrin əvvəllərinin Bakı mühitini və ab-havasını bu qədər dəqiq şəkildə bərpa etmək üçün hansı çətinliklərlə qarşılaşdığınız?***

– Qarşımızdakı əsas çətinlik ondan ibarət idi ki, bizim film üçün ehtiyac duyduğumuz o dövrün orijinal Bakısı artıq demək olar ki, mövcud deyil. Bəzi küçə hissələri və tarixi binalar qalsa da, bütöv bir şəhər mühiti və panoramı yoxdur. Buna görə də məkan axtarışlarımızı təkcə Bakıda yox, müxtəlif regionlarda apardıq. Həmin yerləri isə böyük zəhmət bahasına "köhnə Bakı"ya çevirməli olduq.

Əsas texniki çətinliyimiz isə real çəkiliş məkanlarını, 300-dən çox xüsusi dekorasiya elementini və kompüter qrafikasını təbii şəkildə birləşdirmək oldu. Çünki tamaşaçı dekorla orijinal məkan arasındakı fərqi hiss etməməli idi. Bütün çəkiliş məkanlarında eyni problemlə qarşılaşırdıq – plastik pəncərələr, kondisionerlər, elektrik kabelləri və s. Bütün bu yad elementlər ya çəkiliş zamanı diqqətlə gizlədilməli, ya da montajdan sonra vizual effektlər (qrafika) vasitəsilə təmizlənməli idi.

Daha bir çətinliyimiz isə o dövrün ab-havasını canlandırmaq idi. Biz Bakının yalnız səliqəli, "bəzəkli kadrlar" toplusu kimi yox, nəfəs alan, yaşayan bir şəhər hissi verməsini istəyirdik. Küçənin tozu, bazardakı səs-küy, atların hərəkəti, xırda məişət detalları – bütün bu mikrodetallara xüsusi diqqət yetirdik. Axı biz sənədli film deyil, bədii əsər çəkirdik. Məqsədimiz tarixi məlumatları sadəcə çatdırmaq deyil, dövrün əhvali-ruhiyyəsini, enerjisini və xarakterini tamaşaçıya hiss etdirmək idi.

***– Kütləvi səhnələrdə 2500-ə yaxın yaradıcı şəxsin iştirakı Azərbaycan kinosu üçün həqiqətən də unikal göstəricidir. Belə böyük bir heyətin fəaliyyətini idarə etmək və kadr keyfiyyətini təminatı üçün hansı üsullardan istifadə etdiniz?***

– Dörd filmin istehsalında səhnə iştirakçılarının sayı 2500 nəfərdir. Fərqli səhnələrdə bəzən 30, bəzən isə 150 nəfər çəkilirdi. Lakin təşkilatlanma zəifdirsə, keyfiyyətli kadr almaq mümkün deyil. Buna görə də bizim üçün ən vacib iki əsas prinsip - dəqiq planlama və yüksək intizam idi.

Kütləvi səhnə iştirakçılarını kiçik, idarəolunan qruplara bölürdük. Hər qrupun üzərində məsuliyyətli bir köməkçi rejissor və koordinator olurdu. Mən ümumi kompozisiyanı, dramatik əhvali-ruhiyyəni və kadrın ümumi rəngini idarə edirdim. Köməkçilər isə insanların yerləşməsində, baxış istiqamətlərində və ani reaksiyalarında dəqiqliyi təmin edirdilər.

Bütün qayda-qanunlar və hərəkət planı əvvəlcədən dəqiqliklə izah olunurdu. Çünki kütləvi səhnədə təbii və improvizasiya effekti yaratmaq üçün hər şey ciddi və nizamlı şəkildə qurmalıdır. Bundan əlavə, biz bu şəxslərə sadəcə "arxa plan elementi" kimi yanaşmırdıq. Onların hər biri kadrda bir saniyəlik görünsə belə, bu da aktyor işidir və lazımi ab-havanı yaradır. Odur ki, hər bir iştirakçının rolu dövrün əhvali-ruhiyyəsini canlandırmaqda olduqca əhəmiyyətli idi. Böyük heyətlə işləyərkən həm keyfiyyəti, həm də filmin ruhunu qorumağın əsas şərti məhz bu cür yanaşmadır.

***– Tağıyevin daxili dünyasındakı dərinliyi və yaşadığı dövrü əks etdirmək üçün operator işində hansı fərqli görüntü üslubları və texnikaları seçildi?***

– Operator işi yalnız dövrü sənədli şəkildə göstərməklə kifayətlənməməlidir. Eyni zamanda, daxili və psixoloji vəziyyəti də çatdırmalıdır. Buna görə də 4 filmin əhvali-ruhiyyəsinə uyğun fərqli operator işi seçdik. Məsələn, "Neft" filmində həyatın gərgin axınını və mübarizənin hiss etdirmək üçün daha çox dinamik hərəkətli kameradan istifadə etdik. "Çar" bölümündə daha soyuq, nəzarətli və rəsmi görüntü seçdik. "Sona"da isə kameranı birbaşa insana, onun daxili aləminə yaxınlaşdırdıq. Daha çox orta və böyük planlar vasitəsilə baxışlara, daxili susmalara diqqət yetirilmişdi. Çünki bu hissədə əsas Tağıyevin öz-özü ilə apardığı psixoloji savaşdır. Əsas məqsəd həm dövrün miqyasını, həm də insanın daxilindəki çətinlikləri və tənhalığı göstərmək idi.

***– Dördhissəli silsilənin artıq üç bölümü təqdim olunub. Dördüncü və yekun bölümün mövzusu nə olacaq və tamaşaçıları hansı hadisələr gözləyir?***

– 4-cü hissə Tağıyevin həyatının ən həlledici mərhələlərindəndir. Neft, pul, status, siyasət – bunların hamısı arxada qalır, mərkəzdə bir sual dayanır: "Xalq üçün nə etdin?". Bu bölümdə əsas mövzu qızlar üçün dünyəvi məktəbin açılmasıdır. Tağıyev anlayır ki, milləti irəli aparmağın yolu təhsildən, xüsusilə də qızların təhsilindən keçir.

Məhz buna görə də o, ən böyük müqavimətlə üzləşir. Burada mübarizə artıq neft quyusunda və ya idarə dəhlizlərində deyil, insanların beynində və inancında gedir. Bir tərəfdə Tağıyevi dəstəkləyən ziyalılar, digər tərəfdə isə dəyişiklikdən qorxan, qızların təhsilinə qarşı çıxan köhnə fikirli insanlar dayanır. Şəhərdə gərginlik artır, Tağıyevə təzyiqlər və hədələr başlayır.

Tamaşaçını həm emosional, həm də ideya baxımından kəskin səhnələr gözləyir. Böyük məsciddəki debat səhnəsi və Tağıyevin açıq şəkildə mövqe ortaya qoyduğu anlar yer alır. Sonda məktəbin açılış səhnəsində isə söhbət artıq təkcə binadan getmir, düşüncə dəyişikliyindən gedir. Mənim üçün dördüncü hissə Tağıyevin getdiyi yolun yekun nəticəsidir. Hesab edirəm ki, əsas cavab həmin məktəbin qapısından içəri girən ilk qızların gözündədir.

***– "Tağıyev: Neft" filminin "Oskar" mükafatına təqdim edilməsi Azərbaycan kinosu üçün hansı yeni üfüqləri və imkanları açır?***

– Bizim üçün filmin "Oskar"a namizəd kimi irəli sürülməsi son hədəf deyil, sadəcə, strateji vasitədir. Bu, beynəlxalq miqyasda etibar yaradan və yeni qapılar açan çox mühüm addımdır. Əsas məqsəd odur ki, Los-Ancelesdə, yaxud Avropanın nüfuzlu kino festivallarında Azərbaycan kinosu haqqında müzakirə başlayanda, beynəlxalq standartlara cavab verən, konkret bir film və ad olsun. Belə təqdimat, şübhəsiz ki, filmin beynəlxalq platformalarda daha ciddi və yüksək səviyyədə qəbul olunmasına zəmin yaradır.

Biz bununla xarici mətbuata, tanınmış kino tənqidçilərinə və festival seçimi ilə məşğul olan şəxslərə güclü bir siqnal göndərmiş oluruq: "Azərbaycan da bu səviyyədə, keyfiyyətli filmlər istehsal etmək gücünə malikdir". Bu uğurun tanınması isə gələcəkdə həm yeni və iddialı layihələr, həm də ortaq beynəlxalq istehsallar (co-production) üçün çox mühüm və geniş imkanlar açır.

**Filmin baş qəhrəmanını canlandıran Xalq artisti, istedadlı aktyor Pərviz Məmmədrzayev obraz üzərindəki dərin araşdırmalarından və çəkiliş meydançasının qeyri-xətti, dinamik iş rejimindən danışdı.**

***– Tağıyev kimi milli kimlikdə bu qədər köklü iz buraxmış görkəmli şəxsiyyəti canlandırmaq hansı təəssüratları və məsuliyyət hissini yaratdı? Böyük xeyriyyəçinin çoxşaxəli obrazına hazırlaşarkən hansı mənbələr və tarixi faktlar sizin üçün açar rol oynadı?***



– Hacı Zeynalabdin Tağıyev şəxsiyyətini Azərbaycanda, demək olar ki, hər kəs tanıyır və ona dərin, səmimi bir sevgi bəsləyir. Təbii ki, hər bir vətəndaşın təxəyyülündə bu böyük insanın özünəməxsus, ideal obrazı var. Mənə elə gəlir ki, belə bir görkəmli simanın ekran obrazını canlandırmaq şansı aktyorun karyerasında yalnız bir dəfə olur. Buna görə də bu layihəyə yanaşmağımız çox böyük məsuliyyət tələb edirdi. Bütün yaradıcı komanda olaraq böyük dəqiqlik və ehtiyatla yanaşmalı idik. Hər bir detalda diqqətli, səliqəli və ehtiyatlı olmaq, ictimaiyyətin yaddaşındakı Tağıyev obrazına xələl gətirməmək bizim sənətkar borcumuz idi.

Tağıyevə olan hörmətim və heyranlığım uşaqlıq illərimdən, Manaf Süleymanovun "Oxuduqlarım, eşitdiklərim, gördüklərim" kitabını oxuduqdan sonra formalaşmışdı. Rolun mənə həvalə olunduğu təsdiqlənəndə həmin kitabı yenidən, daha dərindən və təhlil edərək oxudum. Çünki təkcə Tağıyevin şəxsiyyətini deyil, həm də onun yaşadığı tarixi dövrün ab-havasını və mentalitetini öyrənmək vacib idi.

Daha sonra Tarix muzeyinin direktor müavini Fərhad bəy mənə Tağıyevə həsr olunmuş iki çox dəyərli kitab hədiyyə etdi, muzeyi birlikdə gəzdik və Tağıyev fenomenini saatlarla incəliklərinə qədər müzakirə etdik.

Faktları daha dərindən öyrənmək üçün rejissor Zaur Qasımlının ssenari yazarkən istifadə etdiyi bir neçə kitaba da müraciət etdim. Bunlardan əlavə, Nəriman Nərimanovun Tağıyevin fəaliyyətinə həsr olunmuş əsərini oxudum. Hətta sosial şəbəkələrdə köhnə Bakı milyonçularının nəslindən olan insanların səhifələrini tapdım. Onların valideynlərindən eşitdikləri çox maraqlı idi və oxuduğum kitablardakı faktlarla tam uyğunluq təşkil edirdi. Bütün bu faktları filmin quruluşçu rejissoru Zaur Qasımlı ilə bölüşürdüm. Onun əlində çox zəngin arxiv materialları olduğu üçün o, hansı məlumatın tarixi fakt, hansının isə sadəcə bir fantaziya olduğunu dəqiqləşdirirdi. Beləcə, sistemli araşdırmalar və rejissorla sıx əməkdaşlıq sayəsində Tağıyev şəxsiyyəti barədə kifayət qədər dolğun və əhatəli məlumat toplandı.

***– Obrazın inkişaf xəttini qorumaq baxımından aktyor üçün ən yaddaqalan və ya çətin anlar hansı idi?***

– Filmin bütün seriyalarının çəkilişləri xronoloji ardıcıllıqla, yəni ssenaridəki kimi aparılmırdı. Dörd hissənin də epizodları bir-birinə qarışmış şəkildə çəkilirdi. Bu, kinematoqrafiyada normal hal sayılsa da, Tağıyev obrazının canlandırılması yüksək adaptasiya qabiliyyəti və daxili çeviklik tələb edirdi. Məsələn, bir çəkiliş məkanına daxil olanda, dörd seriyaya bölünmüş bütün səhnələri ardıcıl çəkməli olurduq. Bu o demək idi ki, aktyor bir çəkiliş günü ərzində gah Tağıyevin gənc, gah da yaşlı dövrünə uyğun qrim olunmalı idi. Müxtəlif yaş dövrlərinə və müvafiq seriyaların fərqli emosional yüklərinə daimi, ani keçidlər tələb olunurdu. Bu gərgin rejim səbəbindən mən hər hansı bir seriyanı digərindən daha təsirli və ya çətin kimi ayıra bilmərəm. Aktyor daim fərqli hallara dərhal uyğunlaşmağı bacarmalıdır.

Ən yaddaqalan məqamlara gəlincə, bu filmdə bütün səhnələr özünəməxsus idi. Çəkilişdən 2-3 ay əvvəl hər epizodu məşq edib detalları dəqiqləşdirsək də, çəkiliş meydançasına gələndə bəzən epizodu yerli-dibli dəyişmək ehtiyacı yaranırdı. Bu zaman rejissor Zaur Qasımlı ssenari müəlliflərini və aktyorları yığıb elə anındaca epizodu yaradıcı şəkildə yenidən redaktə edirdi. Bu, o demək idi ki, biz Tağıyevin ruhunu elə anındaca hiss edib, vəziyyətə uyğun yeni yaradıcı həllər tapmalı olurduq.

Beləliklə, Zaur Qasımlının bu layihəyə peşəkar sənətkarlıqla yanaşması və Pərviz Məmmədrzayevin obrazın ruhunu yaşatmaqdakı məsuliyyəti bir daha sübut etdi: böyük irs həqiqətən də böyük diqqət tələb edir. Bu silsilə, həm sənətkarlığı, həm də mənəvi yükü ilə Azərbaycan kinosunun yeni, daha iddialı dövrünün başlanğıcıdır.

*Hazırladı:*
*Arzu ƏLİYEVA*
*XQ*

# İncə duyğuların əlvan şeiriyyəti

**Bu dəfə oxucuların görüşünə bizi sözün sehrinə salan, hər misrası ilə qəlbimizin dərinliklərinə yol tapan “Şərəf” ordenli Xalq şairi Vahid Əzizlə gəlmişik. Onunla söhbətimizdə nisgildən və sevincdən, nifrətdən və sevgidən qaynaqlanmış şeir dünyasına boylandıq. Zamanı yaşadan xatirələrdən, tarixə dönmüş anlardan danışdıq.**

***– Vahid müəllim, sizi “Şərəf” ordeni ilə təltif edilməyiniz və 80 illik yubileyiniz münasibətilə təbrik edirik.***

– Çox sağ olun. İnsan əməyinin dövlət tərəfindən qiymətləndirilməsi böyük məsuliyyət və qürurdur. Uca Tanrı ölkəmizi, dövlət başçımızı qorusun. Bu münasibətlə məni təbrik edən hər kəsə minnətdaram.

***– Ömür yolunun dərəli–təpəli, daşlı-kəsəkli dolanbaclarından keçmisiniz. Özünüz də qeyd edirsiniz ki, həyatım da mahnılarım kimidir: dalğalı, tufanlı, boranlı, çiskinli, qarlı, yağışlı, yağmurlu… Elə buna görədirmi ki, sözlərinizə yazılan hər mahnının arxasında bir həyat hekayəsi dayanır. Gəlin, söhbətimizə isti yay günü olsa da, üşüdüyünüz, içinizdə təlatümlərin baş verdiyi bir gündə yazılan “Əzizim” mahnısı ilə başlayaq.***

– Mən həyatda çox keşməkeşli, ağrılı günlər gördüm. Çətin vaxtlarım idi, 1997-ci ildə Yazıçılar İttifaqından işdən çıxarıldıqdan sonra Bakı Şəhər Reklam Tərtibatı Agentliyində işə düzəldim. Bunu da mənə çox gördülər, bir gün çağırdılar ki, ixtisasın uyğun gəlmədiyi üçün ixtisara düşürsən. Dedim ki, mən 5 kitab müəllifiyəm, 60-70 şeirimə mahnı yazılıb, Yazıçılar İttifaqının katibi işləmişəm.

İxtisasım mühəndislik olsa da, Bakı Ali Partiya Məktəbinin jurnalistika fakültəsini bitirmişəm. Bildirdilər ki, ərizə yaz, 2 aylıq maaş verək. Dedim, yox, ərizə yazmayacağam, ixtisar əmrini verin. Allah heç kəsin taleyini namərd əlinə salmasın. Çünki onlar mərdi qova-qova özləri kimi namərd etmək istəyirlər. Məni də çox qovdular, amma namərd edə bilmədilər, ömrümü şərəflə, ləyaqətlə yaşadım. Nə isə, 52 yaşında işsiz-gücsüz qaldım, indiyə kimi – 28 ildir...

Vaxtilə dahi lider Heydər Əliyev məktəbini keçmişdim, Mərkəzi Komitədə işləmişdim. Bu qədər bilik, bacarıq, həyat təcrübəsi ilə xalqıma xidmət etmək istədiyim bir zamanda əlimi-qolumu bağladılar, atdılar kənara ki, “get, sən bu cəmiyyətə lazım deyilsən”. Çox ağır vəziyyətdə idim, ailəm ali məktəb müəllimi olan yoldaşımın aldığı maaşın ümidinə qalmışdı. Tərs kimi, şeir də yaza bilmirdim.

1997-ci il iyun ayının 6-sı idi. Axşamüstü dənizkənarı parkda gəzirdim. Daha yaşamaq istəmirdim, hər şeydən əlimi üzmüşdüm. Bir tərəfdən də fikirləşirdim ki, yox, axı, mənim də ədəbiyyatda izlərim var, görkəmli bəstəkarlar şeirlərimə mahnılar bəstələyirlər. Hələ Politexnik İnstitutunun 3-cü kurs tələbəsi olanda Şövkət Ələkbərova Elza İbrahimovanın sözlərimə yazdığı “Mehribanım”, Flora Kərimova “Şirin bir xəyalsan” mahnılarını oxuyurdular.

Beynimdə bu fikirlər dolaşa-dolaşa indiki Hilton hotelinin yanına gəlib çıxmışdım. Havalı kimi gəzirdim, maşınların arasından yolun o üzünə necə keçdiyimi bilmədim. Yaxınlıqdakı çayxanaya girdim, cibimdən bir parça kağız çıxarıb “Dağ başında qar üstünə qar gələr” misrasıyla başlayan “Əzizim” şeirini yazdım. Səhv etmirəmsə, qısa bir müddət sonra indiki Heydər Əliyev Sarayında Eldar Mansurovun yaradıcılıq gecəsi keçirilirdi. Mən də ön cərgədə oturmuşdum. Flora xanım mahnını oxuya-oxuya səhnədən düşüb yanıma gəldi. Bir-birimizi qucaqladıq, mahnının son akkordları vuruldu. Salona sakitlik çökmüşdü, bir neçə dəqiqədən sonra isə tamaşaçılar mahnını ayaq üstə alqışladılar. Bax, bu mahnının tarixçəsi belədir. Mən uzun şeir susqunluğundan sonra bu şeirlə qayıtdım ədəbiyyata.

***– Yəni 27 il şeir yazmadıqdan sonra.***

– Bəli, bu çox böyük bir fasilə oldu. Uzun illər niyə yazmadım? Görünür, mən 80 yaşa qədər yaşamalıymışam. Ona görə də Allah mənim yaradıcılığıma böyük bir fasilə verdi. O vaxt yazmadıqlarımı indi böyük həyat təcrübəsi ilə yoğurub yazıram. Yazdıqlarım da həyatda gördüklərimdir, içimdə toplanıb və bu gün söz kimi ortaya çıxır.

Xoşbəxt insanam ki, Heydər Əliyev kimi dahi şəxsiyyətlə işləmişəm. Bakı Şəhər Partiya Komitəsində, Mərkəzi Komitədə yüksək vəzifələrdə olmuşam. Lakin özümü heç vaxt iki yerə bölməmişəm. O illərdə demək olar, yazmırdım. Çünki mən partiya işçiləri arasında şair, şairlər içində isə partiya işçisi olmaq istəmirdim. O illərdə “Bayatılar” və bir-iki satirik şeir yazdım, vəssalam.

“Bayatılar”ı da hissə-hissə yazmışdım. 2 bəndini 1980-ci ildə çap etdirdiyim “İllərin baharı” kitabında, 1987-ci ildə “Əllərimin kölgəsi” kitabında bütün şeir çap olundu. Sonra Eldar Mansurov dedi ki, “Bayatılar”a çox gözəl bir mahnı yazmışam, amma bir bənd artırmaq lazımdır. Bir gün həyat yoldaşımla bulvarda gəzərkən bu misraları yazdım:

**Qalanın daşı oldum,**
**Gözümün yaşı oldun,**
**Dünyada gün görmədim,**
**Sevəndə naşı oldum.**

Bu mahnı 1989-cu ildə ilk dəfə Briliyant Dadaşovanın ifasında radioda səsləndirildi, AzTV-də klip çəkildi və dünyada məşhur oldu.

***– Bəs, bu gün çox məşhur olan “Mənə yüz il ömür arzulamayın” şeiri necə yarandı?***

– Doğrusu, bu şeir çox maraqlı şəraitdə yazıldı. 2007-ci ilin iyun ayında “Space” televiziyasından zəng edib dedilər ki, sabah İlhamə Quliyevanın doğum günüdür, efirdə qeyd edəcəyik. Mən də İlhamə xanımın xətrini çox istəyirdim, dost idik. Axşam o da mənə zəng etdi: “Ağsaqqal, sabah gəlirsən?”. Dedim, gəlirəm. Telefonu bağladım və düşündüm ki, mən İlhamə xanıma nə hədiyyə edim? Gecə saat 1-in yarısı idi, ilham pərisi gəldi. Makinanın qarşısına keçdim, cəmi 5 dəqiqəyə “Mənə yüz il ömür arzulamayın” şeirini yazdım.

***– İlham pərisi necə gəlir, vəhy kimi?***

– Bəli, ilham pərisi gəlməsə, heç nə yazmaq olmur. Bu, bir kod kimi göylərdən göndərilir, sən də onu tutub yazırsan. Mənə belə gəlir ki, dünyadan köçən şairlər dərgahda öz işlərini davam etdirirlər. Hər şairə hansısa bir böyük şair kömək edir – Səməd Vurğun, Mikayıl Müşfiq, Mövlana, Nizami və b. Mən hiss edirəm ki, mənə də ilham göndərən bir güc var.

Mən şeir yazanda melodiyanı eşidirəm. Nə qədər dərin fikir gəlsə də, altında musiqi yoxdursa, mən onu yaza bilmirəm. İlham pərisi ilə bir növ mübahisə edirəm. Əgər ona uduzsam, şeir alınmır, idarə edə bilsəm, şeir mənim olur.

***– Sizcə, şairlik taledir, yoxsa seçim?***

– Əsl şairlik Tanrı vergisidir. Mən həmişə deyirəm: bir var şair, bir də var şair olmaq, şeir yazmaq istəyən. Amma böyük şairlik Allahın verdiyi paydır. Birinin payı böyük olur – Füzuli kimi, Səməd Vurğun kimi. Birinin də payı az olur. Amma hər söz yığınına şeir demək olmaz. Şeirin nəfəsi insanın içindən gəlməlidir.

Bilirsiniz, poeziya sadəcə xalqın dediyini nəzmə çəkmək deyil. Şair, ilk növbədə, savadlı olmalıdır. Xalqın dilini, tarixini, keçmişini, adət-ənənələrini bilməyən kəs ədəbiyyata heç nə gətirə bilməz. Dahi bəstəkar Qara Qarayevin bir sözü var. “Xalqdan götürdüyünü xalqa faizlə qaytarmalısan”. Məncə, çox doğru fikirdir. Məsələn, xalq dilində deyirik: “Sənə güvəndiyim dağlar, sənə də qar yağarmış”. Bu misranı poeziya kimi təkrarlamaq olmaz. Uca dağların başı qarlı olar da. Onu olduğu kimi şeirə salmaq poeziya deyil. Mən onu dəyişdim: “Sənə güvəndiyim dağlar, sən də qarsız qalarmışsın”. Bu artıq başqa bir məna, başqa bir fəlsəfədir. Bəzən sadə sözləri dəyişmək belə poeziyanı zənginləşdirir. Məsələn, məşhur atalar sözümüz var: “Gülmə qonşuya, gələr başına. Mən bunu belə işlətmişəm: “Məcnuna “yazıq” – dedim, güldüm, başıma gəldi”. Bu, artıq xalq deyiminə yeni nəfəs verməkdir.

Yüngül, qafiyə xətrinə sözləri şeirə doldurmaq poeziya, hamıya bəlli olanı nəzmə çəkmək ədəbiyyat deyil. Poeziya odur ki, başqasının görə bilmədiyini görə, duya bilmədiyini duya biləsən. Şair xalqın dediyinə əlavə etməli, onu zənginləşdirməlidir.

Sadə bir misal çəkim. Kütlə üçün tikilən paltar modelini hamı geyinir. Elitar dizaynda tikilmiş paltar isə yalnız bir dəfə podiumda geyinilir. Poeziya da belədir: kütləvi şeir var, bir də elitar poeziya.

***– Bəzən şeirlərinizdə “özünüzü axtarırsınız”. Hardan gəlib, hara gedirsiniz, Vahid müəllim?***

**– Özümü tapa bilmirəm...**
**... atları çapın dördnala,**
**qaçmışam – çatıb gətirin,**
**qoymayın səhərə qala,**
**axşamnan tapıb gətirin.**

Hərdən insan içində ola-ola özünü itirir. Məsələn, mən bəzən çox səs-küylü məclisdə susur, heç nə eşitmirəm, özümə qapanıram. Bəzən təklikdə isə çalıb-oynayırmışam kimi oluram. Bu, qeyri-adi bir haldır. Hava dəyişəndə – yağış yağanda, şimşək çaxanda, külək əsəndə, bədənimdə bir gərginlik olur, bilirəm ki, ya xəstələnəcəyəm, ya da gözəl bir şeir yazacağam. Məsələn, “İncimə” şeirimi klinik ölüm keçirdiyim günün ertəsi yazmışam.

***– Yaradıcılığınızda vətən mövzusu xüsusi yer tutur. Şeirlərinizin birində yazırsınız ki, “Vətənin sahibləri şəhidlərdir, dirilər sadəcə vətəndaşlardır”.***

– Bəli. Çünki şəhid torpağa qovuşur, torpaq isə Vətənin özüdür. Torpaq onları öz qoynuna alır, yaşadır. Bir şeirimdə deyirəm: “Torpağın üstündə tez keçir zaman, torpağın altında necədir görən, torpağın üstündə “Fironluq edən, torpağın altında nəçidir görən?”. Yer üzündə firavanlıq edənlərin torpaq altında heç bir üstünlüyü qalmır. Torpaq üzüağ olanı qəbul edir, üzüqaranı yox.

Yazıçıların, şairlərin, sənət adamlarının içində yeganə Qarabağ müharibəsi veteranıyam. 1988-ci ilin sonunda Azərbaycan SSR Ali Sovetinin fərmanı ilə Dağlıq Qarabağ və ətraf rayonlar üzrə Respublika



## Əzizim

Dağ başında qar üstünə qar gələr,
Gileylənmək zirvələrə ar gələr,
Hər nə geysəm vücuduma dar gələr,
Bu darlığa dözmək olmur, əzizim…

Əzəl gündən dünya yalan dünyadır,
Baha satan, ucuz alan dünyadır,
Arzuları nakam qalan dünyadır,
Dağılanı düzmək olmur, əzizim…

Kaş ki, dünya zalımlığın ataydı,
Qəlbim bir an istəyinə çataydı,
Yaşamağım göz yaşıdı, haraydı,
Göz yaşında üzmək olmur, əzizim…

Dalğalara yalvarmaqdan bezmişəm,
Hönkürməkdən, ağlamaqdan bezmişəm,
Səndən ayrı yaşamaqdan bezmişəm,
El-obadan bezmək olmur, əzizim…

Heç bilməzdim daşım belə ağırdır,
Bəxtim belə biçarədir, fağırdır,
Gedəcəyəm, göylər məni çağırdı,
Daha yerdə gəzmək olmur, əzizim…

## İncimə

Eşidəndə dəyişmişəm dünyamı,
Çiçəklər də haray salsa, incimə,
Demirdinmi: "Alacaqsan canımı"
Ruhum getsə, canım qalsa, incimə.

Heç bildinmi, sənnən nələr çəkdi can?
Dərdlərinnən bildin necə çökdü can?
Bir dənəydi, elə bildin çoxdu can?
Vicdanında qanım qalsa, incimə.

İstəməzdim ömrüm solan bağ olsun,
Mənsizliyin bir dözülməz dağ olsun,
Qoymadın ki, bircəciyi ağ olsun
Günlər sənə qənim qalsa, incimə.

Yurdum-yuvam oldu hara? – Bilməzsən,
Ürəyimi bir də qıra bilməzsən,
Məzarıma yaxın dura bilməzsən
Məni cahan yola salsa, incimə.

Kar qəlbini daha necə səsləyim?
Sevgidənsə bəlkə nifrət bəsləyim?
Daş ürəklim, can çürüdən tərsliyin,
Məni sənnən vaxtsız alsa, incimə...

## Mənə yüz il ömür arzulamayın

Mənə yüz il ömür arzulamayın,
Payız yarpağıtək qovmasın külək,
Gözlərim görsə də, ayağım, əlim,
Əsalıq olanda dayansın ürək.

Mənə “Yüz il yaşa!” deməsin dostlar,
Gülüşüm, yerişim, səsim itməsin.
Məndən cavan olan, gümrah olanlar,
Çiynimdə dünyadan köçüb getməsin.

Mənə yüz il ömür arzulamayın,
Bu qədər yaşayan hansı çiçəkdir?
Sən yaşda qalmırsa tay-tuşun, tayın,
Qurdla qiyamətə qalmaq deməkdir.

Mənə elə ömür arzulayın ki,
Ölüncə ümmantək çağlaya bilim.
Qapı-pəncərəni öz evimdəki
Özüm aça bilim, bağlaya bilim.

Sağlıqlar deyəndə hərdən şənimə –
Nə özüm kövrəlim, nə sizə gülüm.
Tanrıdan bir ömür diləyin mənə,
Hər vaxt sevə bilim, sevilə bilim.

Taleyim sevgiylə baxsın üzümə;
Görsün yad payına şərik deyiləm.
Gərək olmayanda özüm-özümə,
Deməli, heç kəsə gərək deyiləm!

Mənə yüz il ömür arzulamayın,
Ləyaqət, təmiz ad atıb getməsin.
Dünyaya qalacaq malı dünyanın,
Karvanım lənətə batıb getməsin!
Mənə yüz il ömür arzulamayın…

Təşkilat Komitəsi yaradıldı, onun üzvü olmuşam. Xankəndidə qarşısında zəfər bayrağımızın qaldırıldığı o binada işləmişəm. O binanın bütün mərtəbələrini – zirzəmisinə qədər tanıyıram. Orada çox ağır günlər görmüşəm.

***– Vahid müəllim, orta məktəb ədəbiyyat dərsliklərinə hansı şairlərin şeirini əlavə etmək lazımdır?***

– Vahid Əzizdən, Ramiz Rövşəndən, Musa Yaqubdan, Məmməd Aslandan və s. bir misra belə yoxdur. İndiki dərsliklərdə elə şeirlər var ki, onların bədii səviyyəsi sual altındadır. Bu, çox ciddi məsələdir.

Bizim vaxtımızda Azərbaycan SSR Maarif Nazirliyinin tərkibində komissiyalar yaradılırdı. Hər bir dərslik – coğrafiya, riyaziyyat, ədəbiyyat xüsusi şuralardan keçir, keyfiyyətə ciddi nəzarət olunurdu. İndi soruşuram: dərsliyin keyfiyyətinə kim cavabdehdir? Dərslikləri çap edən nəşriyyat rəhbəri. Buna görə də dərsliklərə elə şeirlər, hekayələr salınır ki, bilinmir söhbət nədən gedir. Yaxud da xarici ölkə yazıçılarının hekayələri verilir. Axı hər millətin özünəməxsus xüsusiyyətləri var. Uşaq oxuyanda onu başa düşmür, anlamır, gərək izahat verəsən ki, müəllif burada nə demək istəyir.

44 günlük Vətən müharibəsi dövründə yazdığım 100-ə yaxın şeir və bir poema “Param-parça illər” kitabında cəmlənib. Kitab Qarabağ müharibəsinin gündəliyi, işğalçı Ermənistanın zəbt etdiyi tarixi torpaqlarımız uğrunda qəhrəman ordumuzun və xalqımızın mübarizəsi haqqında poetik salnamədir. Şeirlərimin birində yazıram:

**Bayraq – qibləgahdı, inam yeridi,**
**Önündə diz çöküb gərək öpülsün.**
**Şəhidin üstünə o salınır ki,**
**Vətəndən arxayın uyuya bilsin.**

Bax dərsliklərə Vətən, torpaq, bayraq sevgisi aşılayan belə şeirlər salınmalıdır ki, uşaqlar da vətənpərvər ruhda böyüsünlər. Əgər əsgər döyüşə Vahid Əziz, Nüsrət Kəsəmənli, Ramiz Rövşən, Musa Yaqub, Məmməd Aslan, Baba Vəziroğlu, Ramiz Qusarçaylının şeirlərini əzbər deyə-deyə gedirsə, deməli, biz işimizi görmüşük.

Bir dəfə Heydər Əliyev Sarayında konsertdən çıxanda tanış bir şair mənə yaxınlaşıb dedi ki, oğlum əsgərlikdədi sizin kitablarınızı istəyir. Bu, məni çox sevindirdi, bir əsgərin səngərdə şeirlərimi oxumasından mənim üçün şərəfli nə ola bilər ki...

“Param-parça illər” kitabını öz hesabıma çap etdirdim. Hətta Diasporla İş üzrə Dövlət Komitəsinə vətənpərvərlik mövzusunda yazılmış 70-ə qədər kitabımı pulsuz verdim ki, xaricə göndərsinlər. Burada məqsədim pul qazanmaq deyil, təbliğat idi.

***– Sovet dövründə ədəbiyyata böyük diqqət və qayğı vardı. Şair və yazıçıların kitabları dövlət tərəfindən nəşr olunurdu. İndi isə öz şəxsi vəsaitləri hesabına mədəniyyətimizi, ədəbiyyatımızı qorumaq üçün nə etməliyik?***

– O illərdə çap imkanları məhdud olsa da, bu sahəyə dövlət qayğısı böyük idi. “Azərbaycan”, “Ulduz”, “Qobustan” jurnalları, “Ədəbiyyat qəzeti” dövlət vəsaiti hesabına yaşayırdı. İşçilərin maaşı da, yazarların qonorarları da dövlət tərəfindən verilirdi. Şair və yazıçıların əsərləri nəşriyyat tərəfindən çapa qəbul ediləndə qonorar verirdilər. SSRİ dağılandan sonra bu dəngə pozuldu. Lakin Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Yazıçılar İttifaqına xüsusi qayğı göstərdi, həmin nəşrlər dövlət tərəfindən dəstəkləndi.

Mən dəfələrlə demişəm: 50-60-70 yaşlı yazıçını, şairi qapı-qapı gəzdirmək, kitab çapı üçün pul dilənməyə məcbur etmək olmaz. Azərbaycan yazıçısını, şairini, bəstəkarını, rəssamını qürurlu, vüqarlı saxlamaq lazımdır.

Meydan hərəkatı–Milli azadlıq hərəkatı yazıçıların, şairlərin xalqla birləşməsindən başladı. Sözümün canı budur ki, əgər xalq yazıçıya, şairə inanırsa, onun nüfuzu var deməkdir. Yazıçıya hörmət olmalıdır. Heydər Əliyev yazıçıları, şairləri yüksək qiymətləndirirdi. Mədəniyyətin inkişafına xüsusi önəm verirdi.

Vəziyyəti düzəltmək üçün nəşriyyatlardan biri, məsələn, “Azərnəşr” dövlət tərəfindən maliyyələşməli, Bədii Şura yaradılmalı, yazıçılar əsərlərini həmin şuraya təqdim etməlidirlər. Şurada əsərin tərbiyəvi əhəmiyyəti, ideoloji yükü, tarixi dəyəri qiymətləndirilməlidir. İctimai əhəmiyyəti olan əsərlər dövlət sifarişi ilə çap edilməli, məktəblərə, kitabxanalara göndərilməli, müəllifə qonorar verilməlidir. Amma şairi, yazıçını qapı-qapı gəzdirmək, “özün pul tap, özün çap elə” demək ayıbdır.

Bir vaxt Azərbaycanda 5 mindən çox kitabxana var idi. Yarısını bağladılar, satdılar. Bu gün ən çox tirajla çıxan kitab mənim “Yaşamağa tələsməyin” kitabımdır. 1500 tirajla çıxıb. 5000 kitabxanaya 1500 tiraj?

***– Necə bilirsiniz: bu gün kitab, xüsusilə şeir oxuyan gənclik varmı?***

– Bu gün uşaqlar, kitab oxumur, internet var deyirlər. Dünyanın ən güclü internet şəbəkələri Yaponiyada, Almaniyada, Fransada, Amerikadadır, amma ən çox kitab oxuyan da elə həmin ölkələrdir. Mənim fikrimcə, şair və yazıçılarla universitetlərdə, orta məktəblərdə tez-tez görüşlər keçirilməlidir ki, müəllifin özündən eşitdikləri şeir parçası, yaxud da hər hansı bir bədii əsərin süjet xətti gənclərdə ədəbiyyata həvəs oyatsın. Bu yaxınlarda Bakı Dövlət Universitetində tələbələrlə görüşüm keçirildi. 900 nəfərlik zalda 100 nəfər adam ayaq üstə qalmışdı. Təəssüf ki, indi belə tədbirlər çox az keçirilir. Əvvəllər filarmoniyada tanınmış yazıçılar, şairlərlə ayda bir dəfə görüşlər təşkil olunurdu. Bu ənənəni davam etdirmək lazımdır.

***– Telekanallarda mentalitetimizə uyğun olmayan verilişlər yayımlanır, ədəbi dil normaları kobud şəkildə pozulur. Deyirsiniz ki, televiziya kanalları Azərbaycan xalqını geridəqalmış, mədəniyyətsiz, səviyyəsiz kimi tanıdır…***

– O verilişləri, çal-çağırı kim, niyə efirə buraxır? Qaynana, kürəkən oturub ailə problemlərini müzakirə edir, vay-şivən qoparırlar. Buna dünya baxır axı. Bu gün Azərbaycan televiziyalarında məhkəməlik işlərin efirə çıxarılmasının birmənalı şəkildə qarşısı alınmalıdır.

Mən bir neçə gün bundan əvvəl səhər verilişində çıxmışdım. Bir tanışım var, qardaşı xaricdə yaşayır. Zəng edib deyib ki, Vahid Əzizin verilişinə baxıram. Bax, əgər sənin efirinə artıq Atlantik okeanında, İndoneziyada da baxa bilirlərsə, sən xalqı niyə biabır edirsən?

Bilirsən cəsarət nədir? Bax, Həsən Seyidbəyli “O olmasın, bu olsun” filmində Oktyabr inqilabından qabaqkı dövrün kübar cəmiyyətini, ziyalısını, tələbəsini, kasıbını, loğmanını, onların əxlaq və davranışını göstərirdi. İndiki telekanallarda göstərilənlərə bax, biabırçılıqdır. Ona görə deyirəm ki, ölkəmizdə telekanallar yerində deyil.

***– Gənc yazarlar bəzən yaşlı şair və yazıçıların yaradıcılığını inkar edirlər? Bu tendensiyaya münasibətiniz necədir?***

– Bu təbii prosesdir və normal baxıram. Biz də gənc olanda özümüzdən böyükləri inkar edirdik. Hətta Füzuli, Nizami, Səməd Vurğun kimi dahilərin yazdıqlarını qəbul etmirdik. Lakin zaman keçdikcə, səhv etdiyimizi anladıq. Gənc yazarın yaşlı yaradıcı insanı inkar etməsinin bir səbəbi də bu aləmdə özünü axtarması ilə əlaqəlidir.

***– İkinci Dünya müharibəsindən təxminən 10 il sonra müharibə haqqında çox gözəl əsərlər yarandı. Artıq İkinci Qarabağ müharibəsindən 5 il ötdü. Bu müddət ərzində sanballı əsərlər yazıldımı?***

– Çox əsərlər yazıldı. Amma hələ nə Birinci, nə də İkinci Qarabağ savaşı haqqında böyük və əhatəli əsərlər yazılmayıb. Bu əsərləri biz yaza bilməyəcəyik. Onu ancaq Qarabağ müharibəsi dövründə ana bətnində və ya beşikdə mərmi səsinə səksənən uşaqlar yazacaqlar. İkinci Qarabağ müharibəsində düşməndən qisas alanlar Birinci Qarabağ müharibəsində yetim qalanlar oldu. Ən böyük əsərləri məhz onlar yazacaqlar…

***– Vahid müəllim, maraqlı söhbətə görə təşəkkür edirəm.***

– Minnətdaram.

*Müsahibəni apardı:*
*Mehparə ƏLİYEVA*
*XQ*

# Mir Cəlalın hekayələri alman dilində








**Azərbaycanın Almaniyadakı səfirliyinin təşəbbüsü və dəstəyi ilə görkəmli yazıçı, böyük alim Mir Cəlal Paşayevin 20 hekayəsindən ibarət “İnsanlığın yüksək dəyəri” adlı kitab Almaniyanın tanınmış “H.J.Maurer” nəşriyyatı tərəfindən çap olunub. Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində kitabın təqdimat mərasimi keçirilib.**




Tədbirdə ADA Universitetinin rektoru, professor Hafiz Paşayev, Əməkdar müəllim, professor Ədibə Paşayeva, Bundestaq üzvləri, diplomatlar, Almaniyanın bir sıra dövlət qurumlarının, elm, ədəbiyyat, mədəniyyət və incəsənət ictimaiyyətinin nümayəndələri, bu ölkədə yaşayan Azərbaycan, türk və digər dost icmaların təmsilçiləri iştirak ediblər.

Əvvəlcə Mir Cəlal haqda “Ədibin Evi” Ədəbiyyata Dəstək Fondu tərəfindən hazırlanmış film nümayiş olunub.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev təqdimat mərasimində çıxış edərək, Mir Cəlalın seçilmiş əsərlərinin yer aldığı “İnsanlığın yüksək dəyəri” kitabının alman dilində işıq üzü görməsinin iki ölkə arasında mədəni əlaqələrin inkişafına mühüm töhfə verdiyini vurğulayıb.

Professor Hafiz Paşayev çıxışında Mir Cəlalın əsərlərinin alman dilinə tərcümə olunmasının iki ölkə və xalq arasında mədəni əlaqələrə və qarşılıqlı anlaşmaya töhfə verəcəyinə inandığını bildirib. Rektor səslənən musiqi nümunələri və səhnələşdirilən ədəbi parçaların mədəniyyətin millətlər və insanlar arasında körpü salan gücünü ən gözəl şəkildə nümayiş etdirdiyini bildirib.

Berlin Humboldt Universitetində Azərbaycan tarixi kafedrasının keçmiş rəhbəri, professor Eva-Maria Aux çıxışında Mir Cəlal yaradıcılığının mərkəzində insanın daxili aləmi, onun mənəvi bütövlüyü və xüsusilə də insanlıq anlayışının dayandığını vurğulayıb.

Sonra “İnsanlığın yüksək dəyəri” kitabında yer alan hekayələrin bir hissəsinin səhnələşdirilmiş təqdimatı olub. Əsərlər Azərbaycan musiqisinin sədaları altında alman aktyorları Sara Maria Sander, Tamer Tahan və Elizabet Degen tərəfindən səsləndirilib.

***XQ***

*Sənət məclisi*

# Tar milli musiqimizin danışan dilidir





**Noyabrın 28-də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində “Həmişə oxuyacaq tar” adlı ədəbi-musiqili gecə keçirilib. Mərasimdə musiqişünas alim, Əməkdar incəsənət xadimi, professor Tariyel Məmmədovun “Azərbaycan musiqi alətlərinin tacı tar” kitabının təqdimatı da olub.**

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası, “Musiqi dünyası” Azərbaycan beynəlxalq elmi musiqi jurnalı və “Azərbaycan nəşriyyatı” Məhdud Məsuliyyətli Cəmiyyətinin əməkdaşlığı nəticəsində ərsəyə gələn kitab dahi bəstəkar, çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş Üzeyir Hacıbəylinin 140 illik yubileyinə ithaf olunub.

Ədəbi-musiqili gecəni giriş sözü ilə açan muzeyin direktoru akademik Rafael Hüseynov musiqi tariximizin bütün mənzərəsinə nəzər saldıqda ən yüksək mövqedə məhz tarın dayandığını söyləyib, onun “musiqi alətlərimizin şahı” adlanmağa layiq olduğunu bildirib. Alim qeyd edib ki, Azərbaycan milli musiqi alətləri içərisində özünəməxsusluğu ilə fərqlənən tar xalqımızda azərbaycançılıq ruhunun aşılanmasında əvəzsiz rol oynayır. O, tarın tarixi, Azərbaycan musiqisinin inkişafında rolu və yeri, dahi Üzeyir Hacıbəylinin tar haqqında fikirləri, Azərbaycanın tar ifaçılığı sənətinin UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi haqqında da məlumat verib.

Bildirilib ki, Üzeyir Hacıbəyov sovet dövründə xalqların milli xüsusiyyətlərini məhv etmək üçün tarı da sıradan çıxarmaq, onu hər yerdən yığışdırmaq kampaniyalarına başladığı vaxtlarda cəsarətlə bu aləti müdafiə etmişdi. Böyük bəstəkar yaxşı bilirdi ki, tar təkcə musiqi aləti deyil, həm də xalqımızın ruhunun ifadəçisi, milli kimliyini özündə yaşadan mənəvi dəyərlərdəndir.

Tar haqqında müxtəlif dövrlərdə bir sıra kitab və monoqrafiyaların çap olunduğunu, məqalə və dissertasiyaların yazıldığını söyləyən muzeyin direktoru ictimaiyyətə təqdim olunan “Azərbaycan musiqi alətlərinin tacı tar” kitabının məziyyətlərindən bəhs edib. Bildirib ki, professor Tariyel Məmmədovun kitabı elmi məzmununa görə bu musiqi alətinə həsr olunmuş əsərlərin şahı hesab edilə bilər.

Akademik Rafael Hüseynov professor Tariyel Məmmədovun musiqi tarixinin araşdırılması istiqamətindəki çoxşaxəli fəaliyyətindən də söz açıb, “Azərbaycan musiqi alətlərinin tacı tar” kitabını musiqi irsimizin öyrənilməsi baxımından dəyərli elmi mənbə kimi qiymətləndirib. Bildirib ki, bu kitab Azərbaycan musiqi tarixinin böyük bir salnaməsi, musiqi mədəniyyətimizin mühüm hadisəsidir.

Çıxışının sonunda Rafael Hüseynov gələcəkdə digər musiqi alətlərimiz haqqında da belə sanballı nəşrlərin ərsəyə gələcəyinə inam ifadə etdi.

Xalq artisti, Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli, tanınmış bəstəkar, Əməkdar incəsənət xadimi Cavanşir Quliyev, Xalq artisti Möhlət Müslümov, Azərbaycan Milli Konservatoriyasının rektoru, professor Kamilə Dadaşzadə və başqaları çıxış edərək kitab barədə fikirlərini bölüşüblər. Qeyd olunub ki, tar haqqında dolğun məlumatların yer aldığı kitabda musiqi tariximizi əyani surətdə izləmək mümkündür.

Çıxışlarda Azərbaycan musiqi tarixinin öyrənilməsində belə sanballı nəşrlərin müstəsna rolundan söz açılıb. Bildirilib ki, kitab Azərbaycan mədəniyyət tarixinə dəyərli töhfə olmaqla yanaşı, həm də mühüm praktiki əhəmiyyətə malikdir. Professor Tariyel Məmmədovun çoxillik gərgin fəaliyyətinin, davamlı zəhmətinin bəhrəsi olan əsər gənclər, mədəniyyət və incəsənət tədqiqatçıları üçün dəyərli mənbədir.

Əməkdar incəsənət xadimi, professor Tariyel Məmmədov əsərin necə ərsəyə gəlməsindən danışıb, təşkilatçılara və iştirakçılara təşəkkürünü bildirib.

Tədbir bədii hissə ilə davam etdirilib.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Tofiq Bakıxanov – 95*

# Təmənnasızlıq və məsuliyyət nümunəsi yaratmış sənətkar

**Əlli ilə yaxındır ki, əlimdə qələm, önümdə dəftər var. Bu uzun müddətdə neçə ziyalı, yaradıcı insan, ictimai-siyasi xadimə sual vermişəmsə, müsahibə götürmüşəmsə, bir Allah bilir. Həmişə hiss etmişəm ki, Azərbaycanın elm, mədəniyyət, ədəbiyyat, incəsənət aləmi hüdudsuz, mən isə yaşımın bütün dövrlərində maraqlı “obyekt”lərlə görüşmək üçün həvəskaram. Hətta xarici ölkələrə səfərlər zamanı da bu adətimdən əl çəkə bilməmişəm. Ancaq Tofiq müəllim mənim həmsöhbətim olmuş 95 yaşlı ikinci adamdır.**



Daha doğrusu, mən görkəmli publisist, teatrşünas, salnaməçi, 1950-ci ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü, Əməkdar mədəniyyət işçisi, çoxsaylı mükafatların laureatı olmuş Qulam Məmmədlinin evinə gedəndə onun hələ cəmi 94 yaşı var idi. Təxminən qırx il dostluq və əməkdaşlıq etdiyimiz Tofiq Bakıxanov isə üç-dörd gündən sonra 95 yaşı tamamlayır. Ustadı təbrik edirəm.

Tofiq müəllim haqqında – daha doğrusu, onun özü, atası – görkəmli tarzən Əhməd Bakıxanov, babası – böyük mütəfəkkir Abbasqulu Ağa Bakıxanov haqqında çox yazmışam. Hətta birlikdə bir neçə kitab da ərsəyə gətirmişik. Onun milli mədəniyyətimizin qarşısındakı məsuliyyəti, ömrü boyu təmənnasız olması barədə dəfələrlə söz açmışam. Odur ki, bu sətirlərdə daha onun yaradıcılığı və ya fərdi keyfiyyətləri barədə söz açmaq istəmir, şahidi olduğum bir neçə xatirəni qələmə alıram.

## Xocalı soyqırımını Xorasanda andıq

... 1997-ci ilin fevral ayı idi. İran İslam Respublikasının Azərbaycandakı səfirliyi bir qrup şəhid ailəsi təmsilçisini, Qarabağ əlilini və tanınmış ziyalılardan beş-on nəfəri Məşhəd ziyarətinə göndərmişdi. Tofiq Bakıxanov da həmin beş-on ziyalının sırasında idi. Tədbiri işıqlandırmaq üçün dörd nəfər mətbuat təmsilçisi də siyahıya daxil edilmişdi. Dörd avtobus adam idik.



Təşkilatçılar bildirdilər ki, Məşhəd yaxınlığındakı bir ordugahda (onlar zəvvarlar üçün yaradılmış düşərgəyə ordugah deyirlər) gecələyəcək, səhər tezdən isə ziyarətə gedəcəyik. Axşam yeməyindən sonra Tofiq müəllim mənim qapımı döydü: – İttifaq bey (bəy demək istəyirdi) bu gün ayın neçəsidir? Dedim: – 26-sı. Bir də soruşdu: – Bu gün nə günüdür? Dedim: – Şənbə.

– A kişi yox ey, bu gün Xocalı soyqırımı günüdür. Yığışaq həyətə, sənin radiodan təcrübən var. Çıxış elə, Xocalı barədə danış.

Mən razılaşdım. Rəhmətlik Baba Pünhan və jurnalist Əzizağa Elsevər yol yoldaşlarımızı həyətə çağırdılar. Hamının həyətə çıxmasından şübhələnən polislər narahat oldular. Daha doğrusu, tədbirin baş tutmasına mane olmaq istədilər. Tofiq müəllim özünü qabağa verdi. Onun İranda da tanınması, ad-sanı və xüsusilə döşündəki orden–medallar bizə Xocalı faciəsini Xorasanda da anmaq imkanı verdi. Yeri gəlmişkən, mənim çıxışımdan sonra Baba Pünhan da erməni işğalı mövzusunda olan şeir oxumuşdu.

## “Təbriz”dən Araza baxırdı ustad...

Azərbaycan Prezidenti İlham Əliyevin “Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsi haqqında” 12 fevral 2014-cü il tarixli Sərəncamından sonra yubiley tədbirlərindən biri də Naxçıvanda keçirilirdi. Həmin ilin avqustunda Naxçıvana Tofiq müəllimin ailə üzvləri, professor Ağaverdi Paşayev və mən getmişdik (həmin səfər barədə ətraflı təəssüratlarım “Xalq qəzeti”nin 10 avqust 2014-cü il sayında verilmişdi. Orada yazılırdı:

“ ... Naxçıvan şəhəri, ılıq yay səhəri, “Təbriz” mehmanxanasının 13-cü mərtəbəsindəki yeməkxana. Görkəmli Azərbaycan ziyalılarından olan Tofiq Bakıxanovla üzbəüz əyləşib səhər yeməyi gözləyirik. Bir neçə dəqiqədən sonra iki gənc – bir oğlan, bir qız yemək məcməyiləri ilə gəlirlər. Qız xeyli aralıda dayanır. Oğlan əlindəki məcməyidə olanları süfrəyə düzəndən sonra ehtiramla geri çəkilir və ...qızın əlindəki məcməyini alır.

Çöhrəsindən abır-həya, ailə tərbiyəsi süzülən qız ehtiram əlaməti olaraq bizə – biri 60-ı, o biri isə 80-i geridə qoymuş qonaqlara yaxın gəlmir. Sonra növbəti təamlar gətirilir və həmin qayda təkrar olunur… bu mənzərə beynimdə təxminən əlli il əvvəlki xatirələri canlandırır. Bizim 8-10 yaşımız olanda anam evə gələn qonağın qabağına yemək aparmaz, əlindəki tabağı qapıya qədər gətirib ya bizə, ya da atama verərdi...

Ani olaraq atalı-analı günlərimin xatirələrinə qovuşuram və Tofiq müəllimin pəncərədən baxaraq xidmətçi oğlandan soruşduğu “Bu, hansı göldür?” – sualıyla yenidən “süfrəyə qayıdıram”.

– Bu, göl deyil, Araz çayıdır. Burada qabağına bənd vurulub deyə, göl kimi görünür, – deyə oğlan cavab verir.

Tofiq müəllimin Araza baxıb hansı hissləri keçirdiyini bilmirəm. Amma o yadımdadır ki, həmişə Arazdan o biri taya baxan ağsaqqalın həmin məqamı olduqca maraqlı idi: “Təbriz”dən Araza baxırdı ustad.

## Abbasqulu ağanın yadigarı

Abbasqulu Ağa Bakıxanovun yubileylərindən hansındasa böyük bir qrupla Qubaya – böyük mütəfəkkirin Amsar kəndindəki ev–muzeyinə getmişdik. Qonaqlardan bəziləri həyətdəki ağaclardan gilas yeyirdilər. Mən isə muzeyi namünasib gündə görəndən sonra dilxor olub bir kənarda dayanmışdım.

Əhvalımın xoşa gəlmədiyini sezən Tofiq müəllim vəziyyəti bir az “düzəltməyə” çalışdı: “İttifaq bəy, get sən də gilas ye. Amsar gilası Bakıda tapılmaz. Abbasqulu ağanın özünün əkdiyi ağaclardır”.

O, dedi, mən isə gilas yesəm də, ustadın sözünə inanmadım. Çünki gilas ağacının iki yüz ildən çox yaşaya biləcəyi inandırıcı deyildi.

## Bilgəhdə görüş

Bir gün eşitdim ki, Tofiq müəllim Bilgəhdə – Kardioloji sanatoriyada müalicə olunur. İşdən çıxan kimi evə – Müşfiqabada qayıtmadan yay mer-meyvələrindən, yer-yemişdən ibarət bazarlıq edərək, təxminən, on kiloqramlıq zənbillə Bilgəhə – Tofiq müəllimin yanına getdim. Xeyli söhbət elədik (sanatoriyada da stolunun üstündə kitab, dəftər, qələm var idi).

Mən durub getmək istəyəndə əvvəlcə xahiş elədi ki, burada mənim heç nəyə ehtiyacım yoxdur, üstəlik, hər gün evdən yanıma gələn olur. Ona görə də gətirdiyin zənbili də götür. Yəni apardığım şeyləri qəbul etmək istəmədi. O, qəbul etmək istəmədi, mən isə geri götürməkdən utandım. Sonra tələb elədi. Hər halda, ikimiz də dirəşdik. Axırda o qalib gəldi.

Mən yayın istisində Bülbül prospektindən Bilgəhə apardığım həmin ağır zənbili oradan da Müşfiqabada aparmalı oldum.

95 yaşın mübarək, ustad! Daha yüzə nə qaldı ki? Allah qalan yolu da asan eləsin!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

*Təqdimat*

# Zərdabişünaslığa yeni töhfə








**Milli oyanış və istiqlal mübarizəsi dövrü ziyalılarının mənəvi atası olmuş böyük maarifçi-demokrat, milli teatrın və mətbuatın banisi, sivil inkişafın digər sahələrində də ilk təməllər yaratmış Həsən bəy Zərdabinin xatirəsi əbədiyyətə qovuşduğu 28 noyabr günündə hər il dərin ehtiramla yad edilir. Böyük xalq xadiminin vəfatının 118-ci ildönümündə tanınmış ədəbiyyatşünüs və diplomat, ictimai fikir tariximizin nüfuzlu araşdırıcısı, professor Vilayət Quliyevin "Yorulmaz əkinçi: Həsən bəy Zərdabi" kitabının təqdimatı və imza mərasimi keçirilib.**

"Libraff" kitab mağazaları şəbəkəsinin "Park Akademiya" filialında təşkil edilmiş məclisi giriş sözü ilə açan Azərbaycan Mətbuat Şurasının sədri, Yazıçılar Birliyinin sədr müavini, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid "TEAS Press" nəşriyyatında çapdan çıxmış yeni araşdırma əsərinin əsasını Həsən bəy Zərdabinin qoyduğu milli mətbuatımızın 150 illik yubileyinə və onun yaradıcısının xatirəsinə dəyərli töhfə olduğunu söyləyib. Aparıcı bildirib ki, Vilayət Quliyev uzun illərdir ki, tariximizin qaranlıq səhifələri ilə bağlı ən müxtəlif mövzuları yorulmadan, davamlı olaraq araşdırır. Onun Zərdabi irsinin öyrənilməsi və yeni nəsillərə çatdırılması ilə bağlı fəaliyyəti isə xüsusi məmnunluq doğurur.

Rəşad Məcid qeyd edib ki, təqdim olunan nəşr böyük ideallar mübarizinin həyat və fəaliyyətinin indiyədək qaranlıqda qalmış və az öyrənilmiş sahələrinə işıq salmaqla böyük maraq doğurur. Kitabın "Xatirələr", "Nekroloqlar və vida sözləri", "Məktublar" bölümlərindəki materiallar Həsən bəyin həyat yolunu və milli məfkurənin formalaşma tarixini öyrənmək baxımından xeyli yeni material verir.

Azərbaycanın görkəmli dövlət və siyasət xadimi, diplomat, tarix elmləri doktoru Həsən Həsənov Vilayət Quliyevlə şəxsi münasibətlərinin onun yaradıcılığına yaxından bələdliyə imkan verdiyini vurğulayaraq, alimin azərbaycanşünaslığın tarixi qaynaqlarının öyrənilməsi, tanıdılması ilə bağlı çoxillik axtarışlarının silsilə mənbələrə çevrildiyini söyləyib. O yeni kitabın bu sırada layiqli nəşr olduğunu qeyd edərək, Həsən bəy Zərdabi haqqında yazılanların təkcə milli mətbuatımızın deyil, ictimai fikir tariximizin də daha dərindən və əhatəli öyrənilməsinə yol açdığını bildirib.

Xalq yazıçısı Elmira Axundova Vilayət Quliyevin digər əsərləri kimi, Zərdabi haqqındakı kitabının da fakt-sənəd bazasının zənginliyi, təhlil dərinliyi, münasibət yeniliyi, özündən əvvəl qələmə alınan əsərlərə ehtiram və diqqət ruhu ilə seçildiyini nəzərə çatdırıb. Həsən bəy Zərdabinin Azərbaycan xalqının milli oyanış və sivil inkişaf tarixində müstəsna mövqe tutduğunu vurğulayan Bakı Dövlət Universitetinin professoru, Əməkdar jurnalist Qulu Məhərrəmli bu misilsiz irsin Fərhad Ağazadə, Abbas Zamanov, Ziyəddin Göyüşov, Vəli Məmmədov, İzzət Rüstəmov, Rəhman Bədəlov kimi tədqiqatçıların yaratdığı elmi-məfkurəvi mənbəyə Vilayət Quliyevin gətirdiyi yeniliklərin önəmindən söz açıb.

Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Asif Rüstəmli bildirib ki, Azərbaycan milli mətbuatının 150 illiyinin qeyd edildiyi bir zamanda Professor Vilayət Quliyevin "Yorulmaz əkinçi: Həsən bəy Zərdabi" adlı kitabının geniş oxucu auditoriyasına təqdimatı "Əkinçi"nin əsryarımlıq yubileyinə ən sanballı töhfələrdən biridir. Bu toplu alimin 21 il əvvəl eyni mövzuya həsr etdiyi "Böyük Əkinçi" monoqrafiyası ilə birlikdə zərdabişünaslığı xeyli zənginləşdirib.

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktor müavini, tarix elmləri doktoru Eynulla Mədətli, Azərbaycan Dillər Universitetinin prorektoru, professor Həmidə Əliyeva, "Ədəbiyyat qəzeti"nin baş redaktoru, filologiya elmləri üzrə fəlsəfə doktoru Azər Turan, Medianın İnkişafı Agentliyinin icraçı direktorunun müavini Natiq Məmmədli və digər çıxış edənlər Həsən bəy Zərdabinin ictimai-mədəni və maarifçilik sahəsində misilsiz xidmətlərindən danışıblar, böyük Zərdabinin bu xidmətlərini əhatəli elmi araşdırmaya cəlb etmiş ədəbiyyatşünas Vilayət Quliyevin tədqiqatının aktuallığından söz açıblar.

Vilayət Quliyev əsəri nəfis şəkildə çap etdiklərinə görə "TEAS Press" nəşriyyatına, təqdimat mərasiminin təşkilində xüsusi əməyi olan Azərbaycan Mətbuat Şurasına və iştirakçılara minnətdarlığını çatdırıb. O, böyük Zərdabi şəxsiyyətinin və irsinin öyrənilməsi, yaşadılması, estafet kimi gələcəyə ötürülməsi ilə bağlı vacib məqamları da vurğulayıb, səslənən sualları cavablandırıb.

Sonda "Yorulmaz əkinçi: Həsən bəy Zərdabi" kitabının imza mərasimi keçirilib.

***Tahir AYDINOĞLU***
***XQ***

## "Mənim fəlsəfəm"

**Azərbaycan Yazıçılar Birliyinin üzvü, XXI əsr Azərbaycan poeziyasının istedadlı nümayəndələrindən biri olan Rafiq Ələkbərin "Mənim fəlsəfəm" kitabında şairin poetik məzmunu, dərin ifadə tərzi, lirik hiss və duyğusu ilə diqqətçəkən müxtəlif şeirləri toplanıb. Öz dəst-xətti, deyim tərzi ilə seçilən şairin şeirlərinin əsas mövzusu beynəlxalq dəyərlərə, Vətənə, Tanrıya, ailəyə, övlada olan sevgiyə əsaslanır.**

"Mənim fəlsəfəm" kitabının məqsədi yaradıcılığının ana xəttini türkçülük, Vətənə, torpağa bağlılıq təşkil edən, bir neçə detektiv roman müəllifi olan Rafiq Ələkbəri ingilisdilli insanlarla tanış etməkdir. İngilis dilində müasir şeirlə maraqlananlar müəllifin kitabdakı qeyd




və izahlarından da yararlana biləcəklər. Fəlsəfi esseləri və aforizmləri ilə tanınan müəllif bildirir: "İnsan Allahı tanıyıb, onu qəbul etməklə özünü tanıyır və bu zaman mənəviyyat da, mərhəmət də əsas həyat göstəricisinə çevrilir. İmansız adamlar kifayət qədər miskin çoxluq təşkil edir, görünür, onlara nəsə verilməlidir ki, insanlar. Lakin mən dini əqidəsi olan bütün insanlara hörmətlə yanaşmağı vacib hesab edən insanlarla həmfikirəm".

Tərcüməçi Rafiq Ələkbərin ən yaxşı şeirlərini, qeyd və izahlarını kitaba daxil etmişdir.

***XQ***

# Gənclər necə böyüməli və tərbiyə olunmalıdırlar?

## *Sağlam düşüncəli, məsuliyyətli və məqsədyönlü gənclik cəmiyyətin sabahkı inkişafının təminatıdır*

**Cəmiyyətin inkişafında yaşlı nəslin nümayəndələri ilə yanaşı, gənclərin də rolu böyükdür. Bu səbəbdən də Vətəninə, xalqına sədaqətli vətənpərvər gənclərin yetişdirilməsi dövlətin prioritet siyasətidir. Gənclərin tərbiyəsi həm ailənin, həm də cəmiyyətin üzərinə düşən mühüm vəzifələrdən biridir. Sağlam tərbiyə görmüş gənclik bir ölkənin gələcəyini müəyyənləşdirir. Ümummilli lider Heydər Əliyev sağlam düşüncəli yeni gənc nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edirdi. Dövlətimiz bu gün də gənclərə böyük ümidlə baxır və onun ictimai həyatın bütün sahələrində fəal iştirakını təmin etməyə çalışır.**



Prezident İlham Əliyev gənclərin rolunu yüksək qiymətləndirərək demişdir: "Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi. ...Milli ruh, milli ləyaqət və vətənpərvərlik onları irəliyə aparırdı. Belə xalqla heç kim mübarizə apara bilməz".

Bəli, məhz vətənpərvər gənclərimiz milli ruhda böyüdü, tərbiyə aldı. Azərbaycanın Milli qəhrəmanları Mübariz İbrahimov, Natiq Qasımov, Pəncəli Teymurov, Vətən Müharibəsi qəhrəmanlarından Həmid Şükürov, Ramiz Cəfərov, Mehrab Niftalıyev, Zaur Nuridəliyev, Orxan Əkbərov, Surxay Noçuyev, Camal İsmayılov və s. Vətən, müqəddəs torpaqlarımız uğrunda canlarından keçdilər. Odur ki, Vətən belə qəhrəmanları ilə bütövdür, azaddır. Dalğalanan bayraq da məhz qəhrəman igidlərimizin, yenilməz ordunun sayəsində əbədidir. Vətən müharibəsi Azərbaycan gəncinin vətənpərvərliyini, gücünü, əzmini bütün dünyaya nümayiş etdirdi. Şübhəsiz, əsas ağırlıq isə Azərbaycan gəncinin üzərinə düşdü.

Bu yazıda gənclərimizin qəhrəmanlığı, vətənpərvərlikləri ilə yanaşı, cəmiyyətdə rastlaşdığımız xoşagəlməz hadisələrə də toxunacağıq.

Vaxtilə yaxından tanıdığım el ağsaqqalı Məmmədəli Həsənovdan eşitdiyim bir söhbəti qeyd etmək istərdim. Bildirirdi ki, 1941-1945-ci illər İkinci Dünya müharibəsindən sonra çətinliklər içində yaşayanlardan biri kimi o vaxtlar adamların cəmi bir dəst paltarı olardı və onun hər hansı bir yeri sökülərdisə dərhal ona yamaq vururdılar. Hətta ailədə bir neçə uşaq varsa, böyüyünün geyindiyi paltarı növbəti il o biri övlada saxlayardılar. Çətin bir zəmanədə insanlar vətənpərvər gənc, ziyalı kimi yetişirdi. Hətta çoxuşaqlı ailələrə rast gəlinərdi. Gənclərin ali təhsil almağa meylləri olduqca yüksək idi. Bəzən rast gəlirdik ki, bir ailənin 5 övladı ali məktəbdə təhsil alır. O vaxtın cavanlarında ədəb-ərkan da öz yerində. Ağsaqqala, ağbirçəyə, müəllimlərə hörmət xüsusi idi. Harada görsələr, ədəb-ərkanla görüşərdilər.

Digər məsələ isə ictimai nəqliyyatda bəzi gənclərimizin davranışı ilə bağlıdır. Çoxumuz bu gün ictimai nəqliyyatdan-avtobus və metrodan mütəmadi istifadə edirik. Etiraf etmək lazım gəlir ki, metroya minən bəzi gənclərimiz oturmaq üçün yer axtarır, əyləşən kimi qulaqcıqdan istifadə edir, ayaq üstdə duran yaşlı qocalara, əlillərə, körpə uşaqlılara yer verməmək üçün görməməzliyə vururlar.

Toxunacağım növbəti irad gənclərin geyim tərzidir. Bəzən cavan anaların, qızların geyimləri qəbuledilməzdir. Hətta rastlaşdığım bir hadisə isə körpə uşaqlı şalvarı dizi yarıq anaya metroda yer vermək istəyən orta yaşlı qadın dilə gələrək dedi ki, ay qızım, əslində, mən durub sizə yer verməliyəm, ancaq geyiminə görə bunu edə bilmirəm. Bu məsələdə əsas günah valideynlərdə və cəmiyyətdə qınağın olmamasıdır.

İndi zaman olduqca fərqlidir. Ancaq şükürlər olsun ki, hər şey var, özü də geyim paltarları daha çox olmaqla, həm də ucuzdur. Deməli, yarıq şalvar və yaxud da deşik-deşik pencək geyən bəzi gənc qızlar bunu yoxsulluqdan deyil, bizə yad olan dəbə görə edirlər. Çünki təkcə əllərindəki telefonu satmaqla ondan on qat artığını ala bilərlər.

Bəzən şahidi olursan ki, maşın idarə edən gənc sürücü səsgücləndiricilərdən istifadə etməklə, eləcə də həmin maşında oturanlar çəkdikləri siqaretin kötüyünü, su, həmçinin gənclərdə asılılıq yaradan "enerji" içkisinin qabını saxlayıb zibil qabına atmaq əvəzinə, elə küçədə maşın hərəkətdə olarkən hara gəldi atırlar. Yüksək sürət, oxutduğu musiqi isə qulaq batırır. Xüsusilə də yay aylarında saatın neçə olmasının fərqinə varmayan gənclərimiz "avtoşluq" yarışına çıxırlar.

Həmçinin parklarda gənclər çəkdiyi siqareti, çırtladığı tumu hər 5-10 metrdən bir qoyulmuş zibil qablarına deyil, hətta böyük zəhmət və xərc hesabına salınmış yaşıllıqların, parka gözəllik gətirən güllərin içinə atırlar. Bax belə hallarda kənar şəxslər də biganəlik göstərməməli, belələrinə öz şəxsi iradlarını bildirməli və lazım gəldikdə həm də onları ictimai qınaq obyektinə çevirməlidirlər.

Hətta şəhərimizin insanlar gur olan küçələrində şəhərə qonaq gəlmiş əcnəbi turistlərdən abır-həya gözləməyərək siqaret çəkərək ekologiyanı zəhərləyir, ictimai yerdə açıq qeyri-etik hərəkətlər etməklə hər kəsdə nifrət hissi yaradırlar. Bu cür gənclərə qarşı mübariz olmalı, pis vərdişlərdən çəkindirməliyik.

Gənclərin pis vərdişlərə meyli onların sağlamlığına, sosial inkişafına və gələcək həyat keyfiyyətinə ciddi təsir edir. Bu vərdişlərin qarşısının alınması təkcə gənclərin özündən deyil, həm də ailə, məktəb, cəmiyyətin birgə səylərindən asılıdır. Sözsüz ki, sağlam düşüncəli, məsuliyyətli və məqsədyönlü gənclik cəmiyyətin sabahkı inkişafının təminatıdır.

***Müşfiq MİRZƏ***
***XQ***

### *Ekspert rəyi*

**Üzeyir ŞƏFİYEV,**
**sosioloq**



Ölkəmizdə gənclər əhalinin 22 faizini təşkil edir. Bu gün gələcəyimiz olan gənclər dövlət qayğısı ilə əhatə olunublar. Azərbaycan gəncləri dünya gəncləri arasında ən layiqlisidirlər. Hər zaman müxtəlif sahələrdə sözün demiş gənclərimizlə qürur duyuruq. Çünki onlar Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini bərpa etmiş, Vətən, müqəddəs torpaq uğrunda canlarından keçmişlər. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev hər zaman çıxışlarında qeyd edir ki, 44 günlük Vətən müharibəsində qazanılan qələbə məhz gənclərin vətənpərvərliyi sayəsində əldə olundu. Bununla yanaşı, müxtəlif sahələrdə də gənclərimiz öndədir. Xoş sədaları dünyanın müxtəlif ölkələrindən gəlir.

Gənclərimizdə bununla yanaşı, xoşagəlməz hallara da rast gəlirik. Bəzən gənclərimizin kənar müdaxilələrə məruz qalması da müşahidə olunur. Xüsusilə sosial şəbəkələr üzərindən. Sosial şəbəkələr, sosiallaşma institutu kimi təhsil müəssisələrindən daha çox təsir imkanına malikdir. Təəssüf hissi ilə qeyd etməliyəm ki, internet resursları sosial animiyanı körükləyən bir mühit kimi də gənclərə aşındırıcı təsir göstərir. Bəzən elə cinayət hadisələri var ki, təhlil etdikdə görürsən ki, bu, Azərbaycan cəmiyyətinə xas olan hadisələr deyil, Avropa və Qərb ölkələrindən sosial şəbəkələr üzərindən gənclərimizə aşılanır.

Çalışmalıyıq ki, sağlam sosial şəbəkələr gənclərimizin həyatında rol oynasın. Elə etməliyik ki, gənclərimiz təsir altına düşməsinlər, sağlam düşüncənin sahibi olsunlar. Həmçinin internet və sosial şəbəkələr vasitəsilə müxtəlif oyunlara, hansı ki, gənclərdə aqressiv hisslər yaradır, bu cür oyunlara süzgəc tətbiq edilməlidir. Xaricdə istehsal olunmuş cizgi filmləri izlənilməklə də yeniyetmələrin hər hansı bir cinayət hadisəsini törətməyə sövq edir. Süni intellekt və digər innovativ texnologiyalardan istifadə edərək milli cizgi filmləri üstünlük təşkil etsin, milli animasiyalarımız olsun. Bu yayda Ankara şəhərində Anıtqəbirdə oldum. Orada Çanaqqala savaşını əks etdirən animasiyalı çox maraqlı səhnələrə rast gəldim. İstərdim ki, Şanlı zəfərimizi əks etdirən 44 günlük müharibədən səhnələr muzeylərdə nümayiş etdirilsin.

Gənclərin formalaşmasında media və televiziya kanalları da öz köməkliklərini əsirgəməməlidir. Hərdən rastlaşırıq ki, cinayət aləminin insanları sosial şəbəkələrdə, mediada qəhrəmanlaşdırılır. Gənclərimiz də bu cür insanların həyatda düz yaşadıqlarını zənn edərək onları özlərinə ideal seçirlər.

Bəzi dini təmayüllər, sektalar var ki, bunlar da gəncləri təsiri altına salmağa çalışırlar. Düzdür, dövlətimizin müvafiq qurumları bu işlə çox ciddi məşğuldurlar. Hər halda, cəmiyyətimiz də bu işdə yardımçı olmalıdır.

Dövlət başçısı hər zaman qeyd edir ki, gənclərin formalaşmasında əsasən ailə və təhsil institutları mühüm əhəmiyyət kəsb edir. Çalışmalıyıq ki, ailədə psixoloji mühit sağlam olsun. Ailədə münaqişə hallarına rast gəlinməsin. Münaqişə yaşananda gənclərin psixi durumunda problemlər yaşanır ki, bundan da cəmiyyət əziyyət çəkir. Odur ki, ailə institutumuzu qorumalıyıq ki, gənclər sağlam böyüsünlər.

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 253 (30947) 29 noyabr 2025-ci il, şənbə

# 4 min illik tənəzzülün sirri

**Dünyanın ən qədim və inkişaf etmiş mədəniyyətlərindən biri sayılan, texnoloji səviyyəsinə görə Misir və Mesopotamiyadan geri qalmayan Harappa Hind sivilizasiyası, təxminən, 4 min il əvvəl qəfil tarix səhnəsindən silinmişdi. Onilliklər boyu bu böyük tənəzzülün səbəbi məlum olmasa da, alimlərin apardığı yeni araşdırma o zaman sivilizasiyanın sonunu gətirən əsas amili üzə çıxarıb.**



Harappa mədəniyyəti eramızdan əvvəl 3300–1300-cü illər arasında indiki Pakistan və Hindistanın şimal-qərbində, Hind çayının məhsuldar vadisində mövcud olub. Onun daha da qədim dövrdə – eramızdan əvvəl 5000-ci ildə formalaşdığı ehtimalı da irəli sürülür. Lakin bu sirli sivilizasiyanın yazısı indiyə qədər oxunmadığı üçün onun siyasi, sosial və iqtisadi quruluşu haqqında biliklər ancaq arxeoloji tapıntılara və digər xalqların yazılı mənbələrinə əsaslanır.



XX əsrin əvvəllərində tapılan iki əsas şəhər, – Harappa və Moxenco-Daro, – İnd sivilizasiyasının yüksək mühəndislik səviyyəsini üzə çıxarıb. Burada evlərdə kanalizasiya, vannalar, tualetlər, həmçinin inkişaf etmiş su təchizatı sistemi mövcud olub. Buna baxmayaraq, sivilizasiyanın idarə modeli, şəhərlərin bir-biri ilə münasibətləri və hakimiyyət strukturu barədə dəqiq məlumat yoxdur. Arxeoloqlar bu günə qədər hökmdar heykəllərinə və ya hərbi səhnələri əks etdirən təsvirlərə rast gəlməyiblər.

Eramızdan əvvəl 1900-cü illərə yaxın Harappa mədəniyyətində geriləmə baş verib: yazı sistemi tədricən yox olub, Yaxın Şərq xalqları ilə ticarət zəifləyib, şəhərlər tərk edilib. Bu tənəzzülün səbəbi uzun müddət mübahisəli qalsa da, əsas versiyalar iki fərziyyəni dəstəkləyib: Hind-Avropa tayfalarının hücumu və ya çay sistemlərinin quruması.

Nəhayət, beynəlxalq alimlər qrupu Hindistan Texnologiya İnstitutunun professoru Vimal Mişranın rəhbərliyi ilə bu sirri açmağa yaxınlaşıb. Onlar qədim dövrdə bölgəyə düşən yağıntı miqdarını müəyyən etmək üçün üç iqlim modelindən və "təbiətin arxivləri" adlandırılan stalaktitlər, stalaqmitlər və göl çöküntülərindən istifadə ediblər. Bu kombinasiyalı metod tədqiqatçılara minilliklər əvvəlki iqlimi yüksək dəqiqliklə bərpa etməyə imkan verib.

Nəticələr gözləniləndən də təsiredici olub: Harappa sivilizasiyası eramızdan əvvəl 4400–3400 illər arasında hər biri ən azı 85 il davam edən dörd böyük quraqlıq dövrü yaşayıb. Bu dövrdə həm də orta illik temperatur 0,5°C artıb. Suyun azalması, İnd çayının səviyyəsinin düşməsi və yağışların zəifləməsi sivilizasiyanın təsərrüfat modelini, – illik daşqınlardan su alan buğda və arpa əkinçiliyini, – çökdürüb. Su çatışmazlığı nəticəsində şəhərlərdə inkişaf etmiş mühəndis sistemlərini saxlamaq mümkünsüz olub və insanlar başqa bölgələrə köçməyə məcbur qalıblar.

Əvvəlcə əhali sağ qalmış çay qolları boyunca yerləşsə də, quraqlığın davam etməsi kütləvi miqrasiyaya səbəb olub. Tərk edilmiş şəhərləri zamanla qum və toz basıb. Harappalıların bir hissəsi Himalay yamaclarına və Qanq çayının məhsuldar vadisinə köçərək digər xalqların mədəniyyətlərinə qarışıb. Alimlər bildirirlər ki, Harappa sivilizasiyasının tənəzzülü sürətli və qəfil yox, çox uzunmüddətli və mərhələli olub.

Quraqlıq nəticəsində bitkilərin məhv olması torpaqda rütubəti azaldıb, havaya qalxan toz isə yağıntıların daha da azalmasına səbəb olaraq regionu getdikcə daha quraq və yaşanmaz vəziyyətə gətirib. Nəticədə dünyanın ən inkişaf etmiş qədim sivilizasiyalarından biri su qıtlığı və iqlim dəyişikliyi qarşısında tab gətirə bilməyərək tarix səhnəsindən silinib.

*Hazırladı:*
***S.ELAY***
***XQ***

## İDMAN

### Misli Premyer Liqasında XIII tur



**Dünən futbol üzrə Misli Premyer Liqasında XIII tura start verilib. Yevlax şəhər stadionunda baş tutan turun açılış matçında "Kəpəz" və "Zirə" komandaları qarşılaşıb. Görüş qonaqların 2:0 hesablı qələbəsi ilə yekunlaşıb.**

Oyunun 62-ci dəqiqəsində Leroy Mikels akrobatik zərbə ilə hesabı açıb. 84-cü dəqiqədə isə İssa Cibrilla ikinci topu gəncəlilərin qapısından keçirib.

Hazırda "Zirə" 26 xalla turnir cədvəlinin 2-ci pilləsində qərarlaşıb. 6 xalı olan Gəncə təmsilçisi 10-cu yerdədir.

Günün ikinci oyununda "Turan Tovuz" öz meydanında "Neftçi"ni qəbul edib. Tovuz şəhər stadionunda keçirilən qarşılaşma 0:0 hesabı ilə başa çatıb.

Qeyd edək ki, turun digər oyunları noyabrın 29-30-da keçiriləcək.

### Azərbaycan–Çexiya idman əməkdaşlığı



**Avropa Gimnastika Konqresi ərəfəsində gənclər və idman naziri Fərid Qayıbov Çexiyanın Milli İdman Agentliyinin sədri Ondrej Şebek ilə ikitərəfli görüş keçirib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı hər iki ölkədə həyata keçirilən irimiqyaslı idman layihələri, qarşılıqlı təlim-məşq toplanışlarının təşkili və idman sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub. Həmçinin antidopinq sahəsində birgə fəaliyyət imkanları nəzərdən keçirilib.

Görüş zamanı həm də Bakı-2026 "Dünyanın İdman Paytaxtı" çərçivəsində paytaxtımızda keçiriləcək tədbirlərdə Çexiya nümayəndələrinin iştirakı barədə də fikir mübadiləsi aparılıb.

### "WAKO" üzrə onqat Dünya çempionu




**Dünya və Avropa çempionu Eduard Məmmədov 21-30 noyabr tarixlərində Əbu-Dabidə keçirilən kikboksinqin WAKO versiyası üzrə dünya çempionatında iki qızıl medal qazanıb.**

"Master Class" kateqoriyasında 63 kiloqram çəki dərəcəsində kikboksinqin "Light Contact" və "Kick Light" növlərində çıxış edən idmançımız hər iki versiya üzrə qızıl medal qazanıb.

"Light Contact" növündə Böyük Britaniyadan Singh Gurmare, Portuqaliyadan Cortes Emanuel, İtaliyadan Simone Calogero, "Kick Light" növündə isə İsveçdən Ahlvarsson Ola, Kanadadan Gallant Benjamin və italiyalı Simone Calogeroya qalib gəlib.

Bu qələbələr sayəsində Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin İdman-təlim şöbəsinin rəisi, polis polkovnik-leytenantı, Azərbaycan Kikboksinq Federasiyasının vitse-prezidenti Eduard Məmmədov ümumilikdə WAKO üzrə 10-cu dəfə dünya çempionu olub.

***Qabil YUSİFOĞLU***
***XQ***

### ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi maliyyə-uçot şöbəsinin mütəxəssisi Limunət Əbdülkərimovaya qızı

**GÜLBƏNİZ XANIMIN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.





# Balakəndə maarifləndirici görüş

**Balakən şəhəri Nizami Gəncəvi adına 1 saylı tam orta məktəbdə ötən gün mühüm maarifləndirici görüş keçirilib. Görüşün təşəbbüskarı Balakən Polis Şöbəsi olmaqla, məclisdə rayon prokurorluğu, təhsil sektoru rəhbərliyi və məktəb kollektivi də iştirak edib. Tədbirdə "Narkomaniya ümumi bəladır", "Sosial şəbəkələrin zərərli təsirləri", "Yetkinlik yaşına çatmayanların məişət zorakılığına məruz qalmaları" və "Polis uşaqların gözü ilə" mövzuları geniş müzakirə olundu.**

Məktəbin direktoru Şəfiqə Tütünçüyeva tədbiri açaraq qonaqları salamlayıb və görüşün məqsədi barədə məlumat verib. Daha sonra Balakən Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Çingiz Aslanov, rayon prokuroru, Baş Ədliyyə müşaviri Camal Bağırov və Balakən Təhsil Sektorunun müdiri Mehparə Mirzəyeva çıxış edərək mövzular üzrə həm hüquqi, həm psixoloji, həm də sosial aspektləri şagirdlərin diqqətinə çatdırıblar, onların suallarını cavablandırıblar.

Tədbir səmimi mühitdə, canlı dialoqlarla davam edib. Şagirdlərin suallarının çoxluğu mövzuların aktuallığını göstərib; səsləndirilməyən, lakin gündəmi əhatə edən əlavə suallar isə gələcək görüşlərə marağı daha da artırıb. Xüsusilə narkomaniya ilə bağlı məlumatlar və faktlar şagirdlərin diqqətində xüsusi yer tutub, çünki mütəxəssislər qeyd ediblər ki, narkotik vasitələrin istifadəsi təkcə şəxsi problem deyil, ailəni, məktəbi, bütövlükdə cəmiyyətin sosial təhlükəsizliyini təhdid edən ümumi bəladır.

Məruzəçilər narkomaniyaya aparan səbəblər haqqında ətraflı danışıblar. Qeyd olunub ki, narkotik maddələrin ilk dəfə "cəhd etmək", "dostların təkidi" və ya "zərərsiz olduğunu düşünmək" kimi səbəblərlə qəbul edilməsi gələcəkdə ağır psixoloji və fiziki asılılığa, təhsildən uzaqlaşmaya, aqressiv davranışlara və cinayət məsuliyyəti ilə nəticələnən addımlara gətirib çıxarır.

Sonda tədbir iştirakçıları bir daha vurğulayıblar ki, narkomaniya ilə mübarizə yalnız qadağalardan ibarət deyil, maarifləndirmə, düzgün informasiya, açıq dialoq və şagirdlərlə davamlı ünsiyyət bu sahədə ən təsirli vasitələrdir. Balakəndə keçirilən bu görüş həm məktəb ictimaiyyətinə, həm də gənclərə mühüm mesajlar verərək onlarda məsuliyyət hissini və təhlükələrə qarşı ayıqlığı artırmaq baxımından böyük əhəmiyyət daşıyıb.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

## HAVA

# Bəzi yerlərdə çiskin, yağış...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Gün ərzində bəzi yerlərdə fasilələrlə çiskinli yağış yağacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-11, gündüz 14-17 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 769 millimetr civə sütunundan 766 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 70-75 faiz təşkil edəcək.**



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi şərq rayonlarında çiskinli yağış yağacağı proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 4-8, gündüz 13-16 dərəcə isti, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 7-10 dərəcə isti olacağı bildirilir.

***XQ***

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3519
SİFARİŞ 2325
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Müşfiq CƏFƏROV
Çapa imzalanmışdır 00:00